31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİK GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 277 (8593) CÜMƏ AXŞAMI, 31 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İlham Əliyev yeni tarix yazır

> “Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də, tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq.”
>
> **İlham ƏLİYEV**

Adətən, tarixi salnaməçilər, tarixçilər yazırlar!

Təskirələrdə, salnamələrdə, müxtəlif tarixi əsərlərdə!

*Dövlət başçıları da tarix yazırlar!*

*Amma yeni tarix yazmaq onların heç də hamısına nəsib olmur!*

*Çünki onlar tarixi iş otaqlarında yazmırlar, döyüş meydanlarında, real həyatda, əməlləri ilə, möhtəşəm qələbələri ilə yaradırlar!*

Tarixçilərin və salnaməçilərin yazıb gələcək nəsillərə çatdırdıqları tarix isə əslində qalib dövlət başçıları və sərkərdələrin gördükləri işlər, yaratdıqları yeniliklər, həyata keçirdikləri dəyişikliklər olur!

**Azərbaycan xalqı xoşbəxt xalqdır ki, onun tarix yaradan rəhbəri, itirilmiş əraziləri geri qaytarmağı bacaran, ölkənin ərazi bütövlüyünü bərpa edən sərkərdə övladı var!**

**Bəli, Müzəffər Ali Baş Komandanımız İlham Əliyev Azərbaycanın yeni tarixini, şərəf tarixini yazıb yaradır!**

❖ ❖ ❖

**Tariximizin son beş əsrində İlham Əliyev Azərbaycanın ilk dövlət başçısıdır ki, işğal olunmuş əraziləri geri qaytardı!**

**Bunu bacardı, bunu etdi: güclü və arxalı düşməni diz çökdürərək məğlubiyyətini etiraf etdirdi!**

*Düşmən məhvdən qurtarmaq üçün kapitulyasiya sənədini imzaladı!*

*Beləliklə, iki əsr ərzində davam edən Qarabağ münaqişəsinə son qoyuldu!*

*Qarabağ əbədilik Azərbaycanın oldu!*

*Azərbaycanın ərazi bütövlüyü bərpa edildi!*

**İlham Əliyev Azərbaycan və dünya tarixinə qalib sərkərdə, itirilmiş əraziləri geri qaytaran dövlət rəhbəri kimi düşdü!**

❖ ❖ ❖

*Torpaqlar qılıncın gücü ilə fəth olunur!*

*Ərazilər müharibə yolu ilə alınır və verilir!*

Vaxt var idi dövlətlər dünyanın bu başından o başına qədər əraziləri müharibə yolu ilə ələ keçirirdilər!

Güclünün qabağına çıxan, ona bir söz deyən olmurdu!

Çünki belədə onlar da fateh sərkərdənin qılıncının gücünü öz üzərilərində hiss edə bilərdilər.

**Müasir dünya isə bambaşqadır!**

İndi işləməsə də, “beynəlxalq hüquq” adlı bir anlayış var.

Güclülər zəiflərin qulağını çəkmək istəyəndə ondan istifadə edirlər.

İndi beynəlxalq güclər var!

Beynəlxalq təşkilatlar, qurumlar mövcuddur.

Onların əlində dövlətləri ram etməyə, zəiflətməyə, sivil dünyadan təcrid etməyə xidmət edən “sanksiya” adlı alət var!

İndi dünyada “ictimai rəy” adlanan bir anlayış da var!

Onu isə dünyada tanınan müxtəlif KİV formalaşdırır.

İndi “sosial şəbəkə” adlı bir “meydan” da var!

Bu meydanda kim nə istəyir yazır, çəkib göstərir, həm də həqiqət ilə yalanı həmişə ayırmaq mümkün olmur!

**Bütün bunları nəzərə almadan müharibə aparmaq, qalib gəlmək mümkün deyil!**

**Bütün bunlarsız yeni tarix yaratmaq da mümkünsüzdür!**

*Ardı 4-cü səh.*

# Milli həmrəyliyin təntənəsi

## Vətən müharibəsi Azərbaycan xalqının birliyini, hər zaman İlham Əliyevin ətrafında sıx səfərbər olduğunu bir daha nümayiş etdirdi

**Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. 29 ildir ki, müstəqil Azərbaycan xalqı bu tarixi əlamətdar bayramlardan biri kimi qeyd edir.**

Amma bu il Milli Həmrəylik Günü tamamilə fərqli, daha yüksək əhvali-ruhiyyə ilə qarşılanır. Çünki bu il torpaqlarımızın işğaldan azad olunması həm də milli həmrəyliyimizin təntənəsi, xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsinin təcəssümü oldu.



### Heydər Əliyev xalqımızı bir amal uğrunda birləşdirdi

Öncə onu qeyd edək ki, ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızda cərəyan edən proseslər orta və yaşlı nəslin yaxşı xatirindədir. Cəmiyyətimizdə meydana çıxan qütbləşmə səbəbindən baş verən parçalanma, o cümlədən siyasi çəkişmələr və separatizmin baş qaldırması yenicə qovuşduğumuz müstəqilliyimiz üçün olduqca təhlükəli ssenarilər yaratmışdı. Milli maraq və mənafelər ətrafında səfərbərliyin, həmrəyliyin olmaması özünü ciddi problem kimi göstərərək hələ kövrək olan müstəqilliyimizin möhkəmləndirilməsində və yeni dövlət quruculuğunda ən böyük problemə çevrilmişdi. Elə bütün bunların nəticəsi idi ki, 1993-cü ilin ortalarına qədər Azərbaycanda vətəndaş sülhü və həmrəyliyi mövcud olmamış, qarşıdurma kəskinləşmişdi. Hətta Ermənistanın işğalçılığına qarşı aparılan müharibədə ön xətt mövqelərimiz müdafiəsiz qalmış, xalqımız yenicə əldə olunmuş dövlət müstəqilliyini itirmək təhlükəsi ilə üzləşmişdi.

Məhz Heydər Əliyevin 1993-cü ildə xalqın yekdil təkidi ilə hakimiyyətə dönüşündən sonra ölkədə davamlı sabitlik və iqtisadi tərəqqinin əsasının qoyulması ilə yanaşı, milli birliyə nail olundu, azərbaycançılıq anlayışı milli təfəkkür tərzinə çevrildi. Bundan sonra Azərbaycan dünyanın ayrı-ayrı ölkələrində məskunlaşmış soydaşlarımız üçüq milli iftixar, mənəvi dayaq və güvənc yeri oldu. Ona görə ən yeni tariximizdə xalqımızın milli həmrəyliyinə nail olunması Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı əvəzsiz xidmətlərindən biri kimi dəyərləndirilir.

Heydər Əliyev xalqımızın milli həmrəyliyinin əldə olunmasına hələ Naxçıvanda fəaliyyət göstərdiyi dövrdən xüsusi diqqət və həssaslıqla yanaşırdı. Təsadüfi deyil ki, 1991-ci il dekabrın 16-da Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi “Dünya azərbaycanlılarının həmrəylik və birlik günü haqqında” qərar qəbul edərək dekabr ayının 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmişdi.

*Ardı 5-ci səh.*

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Milli Məclisin müraciəti

**Azərbaycan Respublikasının Milli Məclisi dekabrın 30-da keçirilmiş plenar iclasında Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə müraciət qəbul edib. AZƏRTAC müraciəti təqdim edir.**

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimizi!

Sayına, intellektual və mənəvi potensialına görə dünyanın böyük millətləri sırasında layiqli yer tutan qüdrətli Azərbaycan xalqının övladlarını dil, əqidə, əməl birliyinə çağırış günü ərəfəsində hər birinizi səmimi-qəlbdən salamlayırıq.

Bu il dünya azərbaycanlıları 31 Dekabr - Həmrəylik Gününü son dərəcə böyük ruh yüksəkliyi ilə qarşılayırlar. Ümummilli məqsəd naminə birləşib dəmir yumruğa çevrilməyi bacarmış Azərbaycan xalqı və onun qəhrəman Ordusu Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ermənistan silahlı qüvvələrini darmadağın edərək torpaqlarımızın işğalına son qoyub. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın düşmən işğalından azad edilməsi, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması xalqımızı 30 ildən artıq davam edən məğlubiyyət sindromundan qurtarmış və onu qalib xalqa çevirib.

Azərbaycançılıq amalı ətrafında milli-mənəvi bütövləşmə hərəkatının başlanğıcını qoymuş Ulu Öndər Heydər Əliyevin vəsiyyəti şərəflə yerinə yetirilib.

*Ardı 3-cü səh.*

# Vətən müharibəsi iştirakçılarının təltif olunması onların xidmətlərinin Prezident İlham Əliyev tərəfindən yüksək qiymətləndirilməsinin təsdiqidir

**Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət nümayiş etdirmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə “Vətən Müharibəsi Qəhrəmanı” adı, müxtəlif orden və medallarla təltif olunurlar.**

Bu təltiflər Vətən Müharibəsində iştirak edən hərbi qulluqçuların xidmətlərinin Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən yüksək qiymətləndirilməsinin təsdiqidir. Bu, həm də hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

AZƏRTAC xəbər verir ki, dekabrın 9-dan 30-dək dövlət başçısının sərəncamları ilə 83 hərbi qulluqçu “Vətən Müharibəsi Qəhrəmanı” adı, 33 nəfər “Zəfər” ordeni, 204 nəfər “Qarabağ” ordeni, 3 nəfər 1-ci dərəcəli “Vətənə xidmətə görə”, 9 nəfər 2-ci dərəcəli “Vətənə xidmətə görə”, 331 nəfər 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordenləri, 105 nəfər 3-cü dərəcəli “Rəşadət” ordeni, 288 nəfər “Azərbaycan Bayrağı” ordeni ilə təltif ediliblər. Həmçinin 3598 nəfər “Vətən uğrunda”, 622 nəfər “İgidliyə görə”, 1113 nəfər “Döyüşdə fərqlənməyə görə”, 5449 nəfər “Cəsur döyüşçü”, 12 519 nəfər “Cəbrayılın azad olunmasına görə”, 13 953 nəfər “Füzulinin azad olunmasına görə”, 7991 nəfər “Xocavəndin azad olunmasına görə”, 3549 nəfər “Zəngilanın azad olunmasına görə”, 3572 nəfər “Suqovuşanın azad olunmasına görə”, 9376 nəfər “Qubadlının azad olunmasına görə”, 4646 nəfər “Şuşanın azad olunmasına görə”, 5203 nəfər “Kəlbəcərin azad olunmasına görə”, 2267 nəfər “Ağdamın azad olunmasına görə”, 5775 nəfər “Laçının azad olunmasına görə” medalları, 1981 nəfər isə “Hərbi xidmətlərə görə” medalı ilə təltif olunublar. Ümumilikdə təltiflərin sayı 82 670-dir.



Təltif olunanların tam əksəriyyəti sıravi əsgərlər, müddətdən artıq xidmət edən hərbi qulluqçular, gizirlər və kiçik zabitlərdir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif olunması davam etdiriləcək.

# Qarabağı dünyanın ən gözəl guşələrindən birinə çevirəcəyik

**Düşmən məğlub edildiyi gündən Yerevanda mitinqlərin arası kəsilmir, bütün siyasi qüvvələr Ermənistan ordusunun darmadağın edilməsinin səbəblərini araşdırır, hamı bir-birini ittiham edir.**

Bu təsadüfi deyil. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən ildırım sürəti ilə darmadağın edilmiş, ardınca isə azad olunmuş ərazilərin bərpasına başlanmışdır. Artıq yerli icra hakimiyyətləri, hüquq mühafizə orqanları da fəaliyyətə başlayır, təhlükəsizlik məsələləri həll edilir, ərazilər sürətlə minalardan təmizlənir.

İlk baxışdan nəzərə çarpan odur ki, azad edilmiş ərazilərdə dağıdılan infrastrukturun bərpası məqsədilə bütün istiqamətlərdə dərin araşdırmalar aparılır, yer üzündən silinmiş kəndlərin və şəhərlərin canlanması üçün ciddi addımlar atılır. Böyük investisiya qoyuluşları tələb edən nəhəng bərpa işləri mərhələli şəkildə, sektorlar üzrə sərmayələrin geniş spektrinin cəlb olunmasını zərurətə çevirir.

*Ardı 8-ci səh.*

## T.Ə.Əhmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında jurnalistika sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Teymur Əkbər oğlu Əhmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## E.C.Məmmədovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Elman Camal oğlu Məmmədov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## T.Y.Rüstəmxanlının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai həyatında səmərəli fəaliyyətinə görə Tənzilə Yolçu qızı Rüstəmxanlı "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## M.İ.İbrahimovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan milli musiqi sənətinin inkişafında böyük xidmətlərinə görə Mənsum İsrafil oğlu İbrahimov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## H.Ə.Həsənovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə görə Həsən Əziz oğlu Həsənov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## V.Ə.Cəfərova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan ədəbiyyatının inkişafında səmərəli fəaliyyətinə görə Vahid Əziz oğlu Cəfərova (Vahid Əzizə) Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## N.M.Vəlixanlının "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında elmin inkişafında böyük xidmətlərinə görə Nailə Məmmədəli qızı Vəlixanlı "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## K.M.Abdullayevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında elm və təhsilin inkişafında böyük xidmətlərinə görə Kamal Mehdi oğlu Abdullayev "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Vergi Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583; 2001, № 7, maddə 454, № 9, maddə 576, № 12, maddə 734; 2002, № 5, maddə 249, № 12, maddə 707; 2003, № 8, maddə 425, № 12 (I kitab), maddə 671; 2004, № 1, maddə 1, № 11, maddə 887, № 12, maddə 980; 2005, № 2, maddə 61, № 8, maddə 688, № 12, maddə 1081; 2006, № 12, maddələr 1005, 1026; 2007, № 1, maddə 4, № 6, maddə 597, № 8, maddə 745, № 11, maddə 1053, № 12, maddə 1192; 2008, № 7, maddə 602, №11, maddə 960; 2009, № 7, maddə 506; 2011, № 1, maddə 14, № 7, maddələr 588, 603, № 12, maddə 1115; 2012, № 6, maddələr 500, 513, № 7, maddə 652, № 9, maddə 841, № 12, maddə 1226; 2013, № 2, maddə 91, № 4, maddə 366, № 11, maddə 1278, № 12, maddələr 1483, 1486, 1495; 2014, № 2, maddələr 94, 98, № 6, maddə 608, № 7, maddə 770, № 8, maddə 957, № 10, maddə 1158, № 12, maddə 1525; 2015, № 1, maddə 11, № 12, maddə 1433; 2016, № 2 (I kitab), maddə 207, № 3, maddələr 396, 402, № 5, maddə 848, № 6, maddələr 973, 974, 1015, № 7, maddə 1245, № 10, maddə 1603, № 11, maddələr 1752, 1792, 1793, № 12, maddələr 2001, 2037, 2046; 2017, № 2, maddə 146, № 5, maddələr 695, 723, 737, № 6, maddə 1055, № 7, maddə 1304, № 8, maddə 1509, № 12 (I kitab), maddələr 2219, 2251, 2270; 2018, № 2, maddə 149, № 5, maddə 863, № 6, maddə 1193, № 7 (I kitab), maddələr 1414, 1427, № 10, maddə 1962, № 11, maddələr 2186, 2210, № 12 (I kitab), maddələr 2498, 2509; 2019, № 1, maddə 30, № 4, maddə 590, № 5, maddələr 796, 801, 804, 812, 814, № 8, maddələr 1364, 1373, 1378, № 12, maddə 1894; 2020, № 5, maddə 522, № 6, maddələr 668, 678, № 7, maddə 832, № 8, maddə 1013; Azərbaycan Respublikasının 2020-ci il 6 oktyabr tarixli 178-VIQD və 184-VIQD nömrəli qanunları) 212.1-ci maddəsi aşağıdakı redaksiyada verilsin:

"212.1. Bu Məcəllənin 211.1.1-ci maddəsində nəzərdə tutulmuş yol vergisi xarici dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat vasitələri Azərbaycan Respublikasının gömrük ərazisinə daxil olan zaman gömrük sərhəd buraxılış məntəqələrində və ya gömrük rəsmiləşdirilməsi yerlərində, Azərbaycan Respublikasının gömrük ərazisini tərk edən zaman yol vergisinə cəlb olunmalı hallarda isə gömrük sərhəd buraxılış məntəqələrində gömrük orqanları tərəfindən tutulur və 1 (bir) bank günü ərzində dövlət büdcəsinə köçürülür.".

**Maddə 2.** Bu Qanun dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2020-ci il*

## Xorvatiya Respublikasının Prezidenti zati-aliləri cənab Zoran Milanoviçə

Hörmətli cənab Prezident!

Ölkənizdə baş vermiş zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Xorvatiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2020-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 22 iyul tarixli 1334 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 7, maddə 1276) ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"na aşağıdakı məzmunda 4.4.23-1-ci yarımbənd əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 4.4.23-1. | Narkotik vasitələrin və psixotrop maddələrin qəbulu ilə bağlı problemlər haqqında idmançıları maarifləndirmək məqsədilə müasir metodiki vasitələrdən istifadə etməklə təbliğat işinin təşkili, bu istiqamətdə mexanizmin təkmilləşdirilməsi, müvafiq qurumlarla əlaqə yaradılması və mövcud beynəlxalq təcrübənin tətbiqi | Gənclər və İdman Nazirliyi, Azərbaycan Milli Antidopinq Agentliyi, digər aidiyyəti dövlət orqanları (qurumları) | mütəmadi |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2020-ci il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

İlin son həftəsinə təsadüf edən doğum gününüz münasibətilə Sizi təbrik etməkdən məmnunluq və şərəf hissi duyuram.

Yola saldığımız ildə və Prezident olduğunuz əvvəlki illərdə Siz milli və qlobal səviyyələrdə misli görünməmiş təhdidlərə qarşı mübarizə aparmısınız və həmişə olduğu kimi, ölkənizin, vətəndaşlarınızın və dostlarınızın rifahı naminə yüksək mənəvi-əxlaqi dəyərlərlə yanaşı, həmçinin müdrik və uzaqgörən liderlik nümayiş etdirmisiniz. Sizin bu fəaliyyətiniz ən yüksək qiymətə layiqdir.

Siz təxminən iki ay bundan əvvəl prezidentliyinizin 18-ci ilinə başlamısınız. Yəhudi ənənəsinə görə, 18 rəqəminin xüsusi numeroloji mənası vardır və "həyat yolu"nu təcəssüm etdirir.

Bununla əlaqədar beynəlxalq səviyyədə təqdirəlayiq fəaliyyəti ilə seçilən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin fəxri üzvü kimi Sizə cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayır, uzaqgörən, müdrik və nümunəvi liderlik fəaliyyətinizin davamlı olmasını diləyirəm.

Birinci xanım, zati-aliləri Mehriban Əliyevaya və gözəl qızınız Leylaya ən xoş arzularımı və ehtiramımı çatdırmağınızı xahiş edirəm.

*Sizə dərin hörmət, xoşbəxt və uğurlu yeni il arzularımla,*

***Dalia İtzik,***
***İsrailin sabiq Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Zati-aliləri, hörmətli Prezident İlham Əliyev!

Sizi doğum gününüz münasibətilə ürəkdən təbrik edirəm.

Yeni 2021-ci il ərəfəsində Sizə və doğmalarınıza möhkəm cansağlığı, xoşbəxtlik və firavanlıq arzulayır, ölkənizə və onun vətəndaşlarına davamlı sülh və rifah diləyirəm.

İqtisadi, sosial və siyasi sahələrdə ölkənizin qarşısında duran vəzifələrin həlli istiqamətindəki fəaliyyətinizdə Sizə uğurlar arzulayıram.

Bir daha Sizə səmimi salamlarımı və xoş arzularımı çatdırıram.

*Hörmətlə,*

***Rene Van der Linden,***
***Niderland-Azərbaycan Dostluq Qrupunun sədri***

## Azərbaycan ilə Beynəlxalq Qırmızı Xaç Komitəsi arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Dekabrın 30-da xarici işlər naziri Ceyhun Bayramov Beynəlxalq Qırmızı Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyinin rəhbəri Arian Bauerlə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Ceyhun Bayramovun BQXK-nın Avropa və Mərkəzi Asiya üzrə Regional direktoru Martin Şüepplə dekabrın 7-də keçirdiyi görüşünün davamı olaraq, Azərbaycanın münaqişənin təsirinə məruz qalmış ərazilərində komitənin fəaliyyəti ilə bağlı fikir mübadiləsi aparılıb.

Tərəflər 2020-ci il 10 noyabr tarixli Birgə Bəyanatdan sonra bölgədə yaranmış yeni vəziyyət, bütün kommunikasiyaların açılması, hər iki icmanın sülh və təhlükəsizlik şəraitində birgə yaşayışının təmin olunması və bəyanatdan irəli gələn digər məsələləri müzakirə ediblər. BQXK tərəfindən ehtiyacı olan insanlara müvafiq yardımların göstərilməsi istiqamətində görülən işlər məmnunluqla qeyd edilib, Azərbaycanın təşkilatın fəaliyyətini dəstəklədiyi vurğulanıb. Görüşdə habelə Azərbaycan ilə BQXK arasında əməkdaşlıq məsələləri, təşkilatın ölkəmizdəki fəaliyyətinin səmərəliliyinin daha da artırılması yolları müzakirə edilib.

## Xarici işlər naziri Ceyhun Bayramov Diplomatiya könüllüləri ilə görüşüb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elan etdiyi "Könüllülər ili" çərçivəsində dekabrın 30-da xarici işlər naziri Ceyhun Bayramov XİN-in nəzdində fəaliyyət göstərən Diplomatiya könüllüləri ilə videokonfrans formatında görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüşdə xarici işlər naziri Ceyhun Bayramov dövlət başçısının təşəbbüsü və təşviqi ilə ölkəmizdə geniş vüsət alan könüllülük hərəkatının önəmindən bəhs edib. 2020-ci ilin Prezident İlham Əliyev tərəfindən "Könüllülər ili" elan edilməsinin ölkədə Azərbaycan gəncliyinə dövlət səviyyəsində verilən yüksək dəyərin bariz nümunəsi olduğu, artıq ölkəmizdə könüllülük fəaliyyətinin sistematik xarakter daşıdığı diqqətə çatdırılıb.

Nazir Azərbaycan könüllülərinin pandemiya dövründəki təqdirəlayiq fəaliyyətindən bəhs edib, bu müddət ərzində müxtəlif sahələrdə fəaliyyət göstərən könüllülərin həmrəyliyini və birgə əməkdaşlığını məmnunluqla vurğulayıb. Azərbaycan Könüllü Təşkilatları İttifaqının təsis edilməsinin ölkəmizdə könüllülər hərəkatında mühüm addımlardan biri olduğunu söyləyib.

Ceyhun Bayramov 2020-ci ildə Azərbaycan üçün ən əlamətdar hadisə olan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun şanlı Qələbəsindən bəhs edib. Nazir Azərbaycanın cəbhədə olduğu kimi, siyasi müstəvidə də qazandığı uğurlardan danışıb. Vətən müharibəsi dövründə Azərbaycan xalqının həmrəyliyini, dövlət başçısının qeyd etdiyi kimi, "dəmir yumruq" kimi birləşdiyini xüsusi vurğulayıb. Ərazi bütövlüyümüzün bərpası uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi ehtirama yad edilib və qazilərimizin tezliklə sağlamlıqlarına qovuşmaları arzulanıb.

Ermənistanın informasiya sahəsində təxribatlarının qarşısını almaq məqsədilə aparılan təqdirəlayiq informasiya müharibəsindən danışan nazir bu işdə gənclərin də fəal iştirakını qeyd edib, onların bundan sonra da Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması üzrə fəaliyyətinin davam etdirilməsinin vacibliyini vurğulayıb.

Diplomatiya Könüllülərinin il ərzində fəaliyyətini yüksək qiymətləndirən xarici işlər naziri onlara gələcək işləri ilə bağlı tövsiyələrini verib.

Sual-cavab sessiyası ilə davam edən görüşün yekununda nazir könüllüləri şanlı Qələbəmiz, "Könüllülər ili", Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

## Moskvada Azərbaycan və Ermənistan təhlükəsizlik xidmətləri rəhbərlərinin görüşü keçirilib

**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) rəisi general-polkovnik Əli Nağıyev Rusiya Federal Təhlükəsizlik Xidmətinin (FTX) direktoru ordu generalı Aleksandr Bortnikovun dəvəti ilə Rusiya Federasiyasında rəsmi səfərdə olub.**



AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin saytına istinadla xəbər verir ki, səfər çərçivəsində Rusiya FTX-nin direktoru Aleksandr Bortnikovun vasitəçiliyi ilə general-polkovnik Əli Nağıyev ilə Ermənistan Respublikası Milli Təhlükəsizlik Xidmətinin direktoru Armen Abazyan arasında görüş keçirilib. Görüşdə Rusiya Federasiyasının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikasının baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan və beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsinin hazırkı vəziyyəti, sərhəd təhlükəsizliyi, işğaldan azad olunmuş ərazilərdə terrorçuluqla mübarizə, Dağlıq Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş və girov götürülmüş şəxslərin taleyinin aydınlaşdırılması, meyitlərin basdırıldığı yerlərin müəyyənləşdirilməsi və əsirlərin dəyişdirilməsi, həmçinin təhlükəsizlik sahəsində qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Eyni zamanda zərurət yaranacağı təqdirdə məlumat mübadiləsi üçün müvafiq əlaqə kanalının təşkilinin vacibliyi də qeyd edilib.

## Azərbaycan İƏT Ombudsmanlar Assosiasiyasının dəstəyi ilə keçirilən seminarda təmsil olunub

Beynəlxalq əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının dəstəyi ilə təşkil olunan onlayn təlim-seminarda iştirak ediblər. İƏT-ə üzv ölkələrin Ombudsman təsisatlarının təmsil olunduğu seminarda ərizə və şikayətlərə baxılma qaydaları ilə bağlı Türkiyə Ombudsman Təsisatının təcrübəsi nümayiş etdirilib.




Seminarın məqsədi insan hüquqlarının səmərəli müdafiəsi sahəsində əməkdaşların bilik və bacarıqlarının artırılması, həmkar qurumlar arasında təcrübə mübadiləsinin gücləndirilməsi olub.

Ombudsman Aparatından AZƏRTAC-a bildiriblər ki, müvəkkil Səbinə Əliyevanın da üzvü olduğu İƏT Ombudsmanlar Assosiasiyasının İdarə Heyəti tərəfindən verilən qərara əsasən, Ombudsman təsisatları arasında təcrübə mübadiləsinin artırılması məqsədilə belə seminarların təşkili nəzərdə tutulub.

Türkiyənin Baş Ombudsmanı, İƏT Ombudsmanlar Assosiasiyasının prezidenti Şərəf Malkoçun açılış nitqi ilə başlayan təlim-seminarın birinci hissəsində əsasən müraciət hüququnun təmin olunması, eyni zamanda Türkiyə Ombudsmanının mandatı, ərizə və şikayətlərin qəbulu, icrası ilə bağlı ətraflı təqdimat keçirilib.

Seminarın ikinci hissəsi iştirakçılar arasında təcrübə mübadiləsinə həsr edilib. Azərbaycan Ombudsman təsisatının əməkdaşları müvəkkil tərəfindən müraciətlərin qəbulu, onlara baxılma qaydaları haqqında digər iştirakçılara məlumat veriblər, həmçinin onları maraqlandıran sualları səsləndiriblər.

## Milli Məclisin iclasında

# Parlamentin payız sessiyası başa çatdı

Dekabrın 30-da Milli Məclisin cari ildə sonuncu plenar iclası keçirildi. Parlamentin sədri Sahibə Qafarova gündəlikdə 7 məsələnin olduğunu bildirdi.





Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli “Müflisləşmə və iflas haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrini üçüncü oxunuşda müzakirəyə təqdim etdi. Bildirdi ki, hər iki layihə barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verilib və komitəyə heç bir təklif daxil olmayıb. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olundu.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında digər qanun layihəsini barədə isə Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili üçüncü oxunuşda təqdim etdi. Qeyd etdi ki, məcəlləyə ediləcək dəyişiklik iki yeni maddənin əlavə olunması ilə bağlıdır. Birinci və ikinci oxunuşdan sonra keçən müddət ərzində qanunun mətninə hər hansı bir dəyişiklik daxil olmayıb. Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi

Tahir Mirkişili “Dövlət borcu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə layihə (üçüncü oxunuş) barədə də məlumat verdi. Bildirdi ki, qanun layihəsi Təminat Fondu ilə dövlət büdcəsi arasında qarşılıqlı köçürmələrin mexanizmini özündə əks etdirir. Qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Gündəliyin növbəti məsələsi “Azərbaycan Respublikasının Əfqanıstan İslam Respublikasında (Kabil şəhərində) Səfirliyinin təsis edilməsi haqqında” qanun layihəsi idi. Layihə barədə məlumat verən parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, ilk növbədə, Azərbaycan Prezidenti İlham Əliyevin Əfqanıstanın ölkəmizdəki yeni təyin olunan səfirini qəbul edərkən söylədiyi fikirləri diqqətə çatdırdı: “Qardaş əfqan xalqına hər zaman - danışıqlar və işğal dövründə, müharibə zamanı və müharibədən sonra, qələbəmizi qeyd etdiyimiz vaxtda yanımızda olmağına, bizi dəstəklədiyinə görə minnətdarlığımızı bildiririk”. Komitə sədri bildirdi ki, Əfqanıstanla əlaqələr çox vacib və əhəmiyyətlidir.

Komitə sədri Siyavuş Novruzov, deputatlardan Fəzail Ağamalı, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Musa Qasımlı, Aqil Abbas, Məlahət İbrahimqızı çıxış edərək Azərbaycanla Əfqanıstan arasında sıx dostluq münasibətlərinin olduğunu, bu ölkənin hər zaman bir-birini dəstəklədiklərini bildirdilər. Müzakirələrdən sonra qanun layihəsi qəbul olundu.

Daha sonra iclasda gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı dinlənildi. Məlumatı təqdim edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxışının əvvəlində Azərbaycan Prezidenti, Silahlı Qüvvələrın Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə edilən böyük Zəfər münasibətilə təbrikini çatdırdı.

Bahar Muradova məruzəsində qeyd etdi ki, Azərbaycanda qadın-kişi bərabərliyinin sosial-mədəni əsasları xalqımızın etnik və milli dəyərlərinə, adət-ənənəsinə söykənir. Cinsi mənsubiyyətinə görə ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqla gender bərabərliyinin təmin edilməsini nəzərdə tutan “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununun qəbul olunmasından keçən müddət ərzində bu məsələyə dövlət idarəçiliyində diqqət artırılıb, gender mədəniyyətinin təbliği sahəsində maarifləndirmə və məlumatlandırma tədbirləri geniş vüsət alıb.

Diqqətə çatdırıldı ki, məlumatda əks olunan statistik göstəricilər Dövlət Statistika Komitəsinin və digər orqanların məlumatlarına, habelə Dövlət Komitəsinin qeyri-hökumət və beynəlxalq təşkilatlarla birgə həyata keçirdiyi araşdırmaların nəticələrinə əsaslanıb. Qeyd olundu ki, ötən dövrdə normativ hüquqi bazanın təkmilləşdirilməsi və müasir tələblərə uyğunlaşdırılması üçün müvafiq işlər görülüb. Hər iki cins üçün de-yure bərabərliyin de-fakto təmin edilməsi üçün bir sıra mexanizmlər yaradılıb.

İnstitusional mexanizmlər sırasında, ilk növbədə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsini, onun tabeliyində fəaliyyət göstərən Uşaq və Ailələrə Dəstək Mərkəzlərini, gender məsələləri üzrə məsul şəxsləri, gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə monitorinq qruplarını, Qadın Resurs Mərkəzlərini, Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsini göstərmək olar.

Gender bərabərliyinin təmin edilməsində dövlətin vəzifələrinin yerinə yetirilməsi sahəsində həyata keçirilən tədbirlər barədə danışan komitə sədri dedi ki, bütün demokratik cəmiyyətlərdə olduğu kimi, Azərbaycanda da dövlət cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin yolverilməzliyini təmin etmək üçün tədbirlər görür. Dövlət Komitəsi tərəfindən aparılan araşdırmaların və daxil olan vətəndaş müraciətlərinin təhlili göstərir ki, əmək hüquqlarının təmin edilməsində cinsi mənsubiyyətə görə ayrı-seçkiliyə yol verilməsi ilə bağlı ən geniş yayılmış hallar özəl sektorda hamilə və himayəsində azyaşlı uşağı olan analarla əmək müqaviləsinə xitam verilməsi, işə qəbul zamanı əks cinsin nümayəndələrinə üstünlüyün verilməsi, işləyən analar üçün nəzərdə tutulmuş güzəştlərin nəzərə alınması ilə bağlı olub.

Qız uşaqlarının erkən evliliyə məcbur edilməsi məsələsinə toxunan komitə sədri bildirdi ki, son illər Prezident İlham Əliyevin uşaq və yeniyetmələrin inkişafına dair yeritdiyi siyasət, imzaladığı bir sıra fərman və sərəncamlar, hazırlanmış dövlət proqramları və fəaliyyət planlarında nəzərdə tutulan vəzifələrin icrası nəticəsində Azərbaycan gəncliyi hərtərəfli qayğı və diqqətlə əhatə olunub, bu sahədə nəzərə çarpan uğurlar əldə edilib.

Bildirildi ki, gender bərabərliyinin təmin edilməsində əsas vəzifələrdən biri dövlətin idarə olunmasında və qərarlar qəbul edilməsində bir cinsin üstünlüyünə yol verilməməsidir. Göstərilən səylər nəticəsində irəliləyişlər əldə olunub, qadınların təmsilçiliyi, ilk növbədə, qanunvericilik orqanında nəzərə çarpacaq dərəcədə artıb. Milli Məclisin deputatları içərisində qadınların təmsilçiliyi 2005-ci ildə 13 nəfərdən 2020-ci ildə 22 nəfərədək artıb. Komitə sədrlərindən 2-si, Komitə sədrinin müavinləri içərisində isə 4-ü qadınlardır. Milli Məclisin sədri qadın seçilib.

Komitə sədri onu da dedi ki, icra hakimiyyəti orqanlarında da təmsilçilik qadınlar üçün yaxşılaşmışdır. 2017-ci ildə ölkənin ali icra hakimiyyəti orqanlarında Azərbaycan qadınları Mehriban xanım Əliyevanın respublikamızın Birinci vitse-prezident təyin olunmasından sonra tarixdə ilk dəfə ən yüksək səviyyədə təmsil olunublar. Hazırda yerli icra hakimiyyətlərində 1 başçı, 76 nəfər icra hakimiyyəti başçısının müavini qadındır. Eyni zamanda məhkəmə hakimiyyətində, yerli özünüidarəetmə orqanlarında da artım müşahidə olunmaqdadır.

Bahar Muradova çıxışında bəzi statistik rəqəmləri də diqqətə çatdırdı. Qeyd etdi ki, ölkədə 5 milyon iqtisadi fəal əhalinin 48,7 faizi və ya 2,5 milyonu qadın, 51,3 faizi və ya 2,6 milyon nəfəri kişilərdir. 2.1 milyon qeyri-fəal əhalinin 1,4 milyon nəfəri qadın (65,8 faiz), 733 min nəfəri isə kişidir (34,2 faiz). İqtisadi fəaliyyət növləri üzrə qadınların orta aylıq əməkhaqqı 335 manat, kişilərin 663 manatdır. İşsiz əhali arasında qadınların payı yüksək olsa da, işsizlik statusu alan kişilərin sayı çoxdur. İşsiz əhalinin yaş qrupları və cins üzrə bölgüsündə də qadınlar 42,6 faiz təşkil etməklə kişilərdən (57,4 faiz) geri qalır.

Çıxışının sonunda Bahar Muradova gender bərabərliyinin təmin edilməsi sahəsində boşluqların aradan qaldırılması və ölkəmizin üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsinin vacibliyini bildirərək təkliflərini diqqətə çatdırdı.

Parlamentin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova Milli Məclisin sədri Sahibə Qafarovanın uzun müddət AŞ PA-nın aidiyyəti qurumuna rəhbərlik etdiyini, gender məsələləri ilə bağlı çıxışlarını, tövsiyələrini, habelə Azərbaycan həqiqətlərinin yüksək səviyyədə geniş ictimaiyyətə çatdırdığını bildirdi.

Hicran Hüseynova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin məlumatına Milli Məclisdə onun rəhbərlik etdiyi komitədə baxıldığını dedi.

Diqqətə çatdırıldı ki, ölkələr qarşısında dayanan əsas məqsədlərdən biri cəmiyyətin inkişafında qadınların daha səmərəli fəaliyyəti üçün bərabər imkanların yaradılmasıdır. Bu tendensiya Azərbaycanın da həyata keçirdiyi siyasətə uyğundur.

Müstəqilliyimizin ilk illərində yaranmış çətin vəziyyətə baxmayaraq, Ulu Öndər Heydər Əliyev qadın hüquqları, onlara qarşı ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində mühüm tədbirlər həyata keçirib. Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə 1998-ci ildə Azərbaycan Respublikası Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Ulu Öndərin Azərbaycanda qadınların rolunun artması, Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında sərəncamları qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı.

Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan imkanların daha da genişləndirilməsi Prezident İlham Əliyevin dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdən olduğunu vurğulayan komitə sədri bu sahədə ölkəmizdə həyata keçirilən təqdirəlayiq işlərdən bəhs etdi.

Müzakirələr zamanı Milli Məclis sədrinin müavinləri Fəzail İbrahimli, Adil Əliyev, komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlardan Məlahət İbrahimqızı, Nurlan Həsənov, Razi Nurullayev, Qüdrət Həsənquliyev, Etibar Əliyev, Fəzail Ağamalı gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı barədə fikirlərini açıqladılar, rəy və təkliflərini səsləndirdilər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova səsləndirilən fikirlərə münasibət bildirdi.

Gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının illik məlumatı nəzərə alındı.

Spiker Sahibə Qafarova bildirdi ki, hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Milli Məclis dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımıza və həmvətənlərimizə müraciət qəbul edir. Gündəliyin sonuncu, 7-ci məsələsi məhz Milli Məclisin müraciəti haqqındadır.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin müraciətini deputat Elnur Allahverdiyev səsləndirdi.

Müraciət səsə qoyularaq qəbul olundu **(Müraciətin mətni qəzetin bugünkü sayında dərc olunub).**

Gündəlikdəki məsələlərin müzakirəsi başa çatdıqdan sonra Milli Məclisin sədri Sahibə Qafarova sessiya dövründə görülmüş işlər haqqında məlumat verdi. Bildirdi ki, Milli Məclisin payız sessiyasında 19 iclas keçirilib, 86 qanun və qərar qəbul edilib. Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan qanunvericilik səlahiyyətlərini tam həcmdə yerinə yetirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən daxili və xarici siyasətini parlament səviyyəsində dəstəkləmək üçün zəruri işlər həyata keçirilib.

Parlamentin sədri diqqətə çatdırdı ki, Milli Məclisin payız sessiyasının mühüm bir dövrü Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə xalqımızın apardığı Vətən Müharibəsi ilə eyni vaxta təsadüf edib: “Qarabağın qurtuluşu uğrunda aparılan Vətən müharibəsində Azərbaycan parlamenti də qəlbən döyüş meydanlarında oldu. Ancaq bizim əsas mübarizə vasitəmiz parlament diplomatiyası idi. Erməni faşizminin iç üzünü və çirkin mahiyyətini ifşa etmək üçün lazım olan bütün tədbirlər görüldü”.

Milli Məclisin əməkdaşlıq etdiyi ölkələrin parlamentlərinə və beynəlxalq parlament təşkilatlarına Milli Məclisin sədri, müvafiq komitə və dostluq qruplarının rəhbərləri tərəfindən 500-ə qədər məktub göndərilib. Eyni zamanda Milli Məclisin sədri və deputatlar yerli və xarici kütləvi informasiya vasitələrində müntəzəm çıxışlar edib, xarici ölkələrdəki həmkarları ilə onlayn görüşlər keçirib və telefon danışıqları aparıb, xalqımızın haqq işinə beynəlxalq dəstəyi təmin etmək üçün hər bir imkandan istifadə ediblər.

Vətən müharibəsində əldə edilmiş böyük Qələbə münasibətilə Milli Məclis ayrıca bir iclas keçirərək, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Azərbaycan xalqına müraciət qəbul edib. Bu müraciətində Milli Məclis Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və prinsipləri əsasında başa çatdırması münasibətilə Prezidenti təbrik edib, müdrik rəhbərinə göstərdiyi dəstəyə görə Azərbaycan xalqına minnətdarlığını bildirib.

Milli Məclisin sədri dedi ki, dövlətimizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə yaradılmış “YAŞAT” Fonduna Milli Məclisin deputatları, Aparatın və İşlər İdarəsinin əməkdaşları tərəfindən 182 min manat vəsait köçürülüb.

Sahibə Qafarova onu da bildirdi ki, bir ilə yaxındır bütün dünya, o cümlədən Azərbaycan pandemiya şəraitində yaşayır. Yeni reallıq Milli Məclisin fəaliyyətinə öz təsirini göstərsə də, iş ahəngini qoruyub saxlamaq mümkün olub. Komitə və komissiyaların iclasları videokonfrans formatında keçirilib. Pandemiya şəraitinə baxmayaraq, parlamentin beynəlxalq əlaqələrinin inkişafı sahəsində işlər davam etdirilib. Milli Məclisin sədri və deputatlar bir sıra beynəlxalq təşkilatların videokonfrans formatında keçirilən toplantılarında iştirak və çıxış ediblər. Deputatlar Gürcüstanda və Qırğızıstanda keçirilən parlament seçkilərini, Moldovada keçirilən prezident seçkilərini müşahidə ediblər. Bir sıra xarici ölkələrin təmsilçiləri, o cümlədən səfirləri də Milli Məclisdə olublar.

Oktyabr ayında Azərbaycanda rəsmi səfərdə olan qardaş Türkiyə Cümhuriyyəti Böyük Millət Məclisinin sədri Mustafa Şentop Milli Məclisə təşrif buyurub. Parlamentin iclasında çıxış edən Mustafa Şentop Azərbaycanın haqq işinə qardaş Türkiyənin siyasi-diplomatik və mənəvi dəstəyini bir daha ifadə edib. Türkiyə nümayəndə heyətinin bu səfəri ölkələr arasında birlik və qardaşlığın əyani nümayişi olub.

Bildirildi ki, bu səfərin gedişində Türkiyə və Azərbaycan parlamentlərinin sədrləri arasında əldə edilmiş razılaşmaya uyğun olaraq Türkiyə Böyük Millət Məclisinin İnsan hüquqları komitəsinin tərkibində yeni bir alt komitə yaradılıb. Alt komitəyə Azərbaycanda Vətən Müharibəsi zamanı Ermənistan silahlı qüvvələri tərəfindən insan hüquqları sahəsində beynəlxalq norma və prinsiplərin pozulması faktlarının araşdırılması həvalə edilib.

Alt komitənin sədri və üzvləri Azərbaycanda olub, Milli Məclisin sədri və Baş prokuror ilə görüşüblər. Onlar erməni faşistləri tərəfindən terror aktları törədilmiş Gəncə, Tərtər və Bərdə şəhərlərinə gedib, zərər çəkmiş sakinlərlə görüşüblər.

Noyabr ayında Türkiyənin sabiq Baş naziri və Türkiyə Böyük Millət Məclisinin sabiq sədri Binəli Yıldırım Azərbaycana səfər edib, Prezident İlham Əliyevlə görüşüb və Milli Məclisdə olub.

Bundan başqa, Vətən müharibəsi başa çatdıqdan sonra Fransa və İtaliya parlamentlərinin Azərbaycanla dostluq qruplarının üzvləri Azərbaycana dəstək məqsədi ilə ölkəmizə gəlib, Milli Məclisin sədrilə, dostluq qrupları ilə görüşüb, Ağdam və Gəncə şəhərlərində olublar. Onlar erməni terrorçularının törətdikləri cinayətləri yerində müşahidə ediblər.

Sahibə Qafarova çıxışına yekun vuraraq bildirdi ki, Milli Məclis payız sessiyasını və ümumiyyətlə, 2020-ci ili uğurla başa çatdırır. Deputatlara səmərəli fəaliyyətlərinə görə təşəkkür edən spiker qeyd etdi ki, qarşıdan bizim gözəl bayramlarımız gəlir. Xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili qeyd edəcək. Bayramlar münasibətilə deputatlara, media nümayəndələrinə təbriklərini çatdıran Sahibə Qafarova Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlanmasını təklif etdi.

Spiker Azərbaycan dövlətinin daha da möhkəmlənməsi və inkişaf etməsi, xalqımızın rifahının yüksəlməsi naminə dəyərli fəaliyyətlərində deputatlara nailiyyətlər arzuladı.

Sahibə Qafarova parlamentin 2020-ci ilin payız sessiyasını bağlı elan etdi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

*Rəşad CƏFƏRLİ,*
*“Azərbaycan”*

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Milli Məclisin müraciəti

*Əvvəli 1-ci səh.*

Bu gün Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Laçında, Şuşada və azad edilmiş digər torpaqlarımızda şanlı Azərbaycan bayrağının dalğalanması ölkəmizin tarixində yeni inkişaf dövrünün başlandığını təcəssüm etdirir.

Bu tarixi Zəfərə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız və həmvətənlərimiz də dəyərli töhfə veriblər. Siz doğma Azərbaycanımızın haqq işi naminə qüvvələrinizi birləşdirərək yaşadığınız ölkələrin dövlət orqanlarına və ictimaiyyətinə Vətən müharibəsi barədə doğru-düzgün məlumatlar çatdırıb, lazım gəldikdə kütləvi tədbirlər keçirərək səsinizi ucaltmısınız.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Bəşər sivilizasiyasının inkişafının indiki mərhələsi dünyanın siyasi mənzərəsinin sürətlə dəyişməsi, millətlərin tarix səhnəsində oynadıqları rolların keyfiyyətcə yeniləşməsi ilə fərqlənir. Həyat sübut edir ki, yalnız öz gücünü bir yerə toplamağı bacaran xalqlar etnik-siyasi hüquqlarını və milli mənafelərini müdafiə etmək imkanlarını həyata keçirə bilirlər. Dünya tarixinə və mədəniyyətinə misilsiz töhfələr vermiş Azərbaycan xalqının yeni dövrdə davamlı yüksəlişinin yolu məhz on milyonlarca soydaşımızın və həmvətənimizin mütəşəkkil qüvvə kimi formalaşmasından keçir.

Son 17 ildə heyrətamiz inkişaf yolu keçərək Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevrilmiş Azərbaycan Respublikası bütün dünya azərbaycanlılarının güvən yeridir. Tarixboyu xalqımızın istedad və zəkasının gücü ilə qurulmuş qüdrətli dövlətlərin ənənələri bu gün də yaşadılır və inkişaf etdirilir. Azərbaycan Respublikası siyasi, iqtisadi və hərbi gücünü, mədəni zənginliyini durmadan artıran, gələcəyə inamla baxan bir dövlətdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi uzaqgörən daxili və xarici siyasət dövlətimizə çox böyük uğurlar gətirir. Bir neçə il əvvəl BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olmuş Azərbaycan 2019-2022-ci illər üzrə Qoşulmama Hərəkatının sədridir. 120 ölkəni birləşdirən bu mötəbər qurumun rəhbəri seçilməsi ölkəmizin çox böyük beynəlxalq nüfuz və etibarından xəbər verir.

Azərbaycançılıq amalının şüurlara və qəlblərə hakim kəsilməsinə yönələn uzaqgörən dövlət siyasəti həyata keçirilir, xarici ölkələrdəki Azərbaycan icmaları ilə əlaqələr gücləndirilir. Bu istiqamətdə görülən işlərin bir nəticəsi də budur ki, dünya azərbaycanlıları milli mənlik şüuru əsasında sıx birləşməyin əhəmiyyətini indi daha dərindən dərk edirlər. Azərbaycan diaspor təşkilatları inkişaf edib möhkəmlənir, soydaşlarımızın və həmvətənlərimizin siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işinə daha yaxından qoşulurlar. Onlar yaxşı anlayırlar ki, Azərbaycan xalqının varlığı və gələcəyi, milli dövlətçiliyimizin əbədi olaraq davam etməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır.

Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!

Sizi ümummilli qayələrimizin gerçəkləşməsi naminə daha sıx birləşməyə çağırır, xalqımızın mənafelərinin qorunması işində ayıq-sayıq olmağa səsləyirik. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, könül xoşluğu, doğma Azərbaycanımıza nurlu sabahlar arzulayırıq.

# 2020-ci il tariximizin ən şanlı səhifəsidir



“2020-ci ilin əvvəllərindən dünyada baş verən pandemiyanın təsirləri təəssüf ki, ölkəmizdən də yan keçmədi. COVID-19 infeksiyasının yaratdığı pandemiya şəraiti dünyada formalaşmış qaydaların dəyişməsi ilə nəticələndi. Pandemiyanın dünya iqtisadiyyatını çökdürməsinə və ölkələrin bir çoxunun asılı vəziyyətə düşməsinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə vaxtında atılan doğru addımlar nəticəsində koronavirusun ölkəmizə təsirləri minimuma endirildi. Bunun nəticəsidir ki, iqtisadi inkişafın əsas göstəricilərini müəyyən edən “Doing Business-2020” hesabatında ölkəmiz ən islahatçı 20 ölkə sırasına daxil edildi”. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin müavini Adil Əliyev söyləyib.

Pandemiyanın yaratdığı ən ciddi problemlərdən birinin tibbi maska və tibbi ləvazimatların çatışmazlığı olduğunu deyən A.Əliyev bildirib: “Tibbi maska çatışmazlığının qarşısını almaq məqsədilə regionda ilk olaraq ölkəmizdə tibbi maska istehsal edən müəssisə açıldı, dərhal modul tipli xəstəxanalar quraşdırıldı, tibbi heyətin təkmilləşdirilməsi, həmçinin bütün növ tibbi avadanlıqlar və dərman vasitələrinin təmin olunması nəticəsində Ümumdünya Səhiyyə Təşkilatı ölkəmizi xəstəliyə qarşı ən yaxşı və sistemli mübarizə aparan ölkə olaraq seçdi”.

Milli Məclis sədrinin müavini qeyd edib ki, pandemiya dünyada tibbi sahə ilə yanaşı, sosial, xüsusilə təhsil, məşğulluq və digər sahələrdə də çətinliklər yaratdı. Pandemiyanın yayılması ilə əlaqədar tətbiq edilən xüsusi karantin rejimi zamanı vətəndaşlarımızın evdə qalmasına görə dövlət tərəfindən onlara maddi yardımların verilməsi təmin olundu. Həmçinin təhsil alanların təhsil prosesindən kənarda qalmaması məqsədilə qısa müddət ərzində distant təhsilə keçid, təhsilin proqram təminatı yaradılana qədər televiziya vasitəsilə teledərslərin keçirilməsi nəticəsində pandemiyanın bu sahəyə vura biləcəyi zərər minimuma endirildi.

“2020-ci il Azərbaycan xalqı üçün Zəfər tariximizin ən şanlı səhifəsi oldu. Ermənistanın 2020-ci ilin iyunundan etibarən bir neçə ay ərzində törətdiyi ardıcıl təxribatların qarşısı Müzəffər Ali Baş Komandanın rəhbərlik etdiyi şanlı Ordumuz tərəfindən qətiyyətlə alındı. Ermənistana dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, işğalçı ölkə öz təcavüzkar siyasətindən əl çəkmədi. Nəticədə Ali Baş Komandanın “İrəli!” əmri ilə rəşadətli Ordumuzun 44 gün davam edən “Dəmir yumruq” əməliyyatı başlandı. Hansı ki, bu hərbi əməliyyat təkcə bizim deyil, istifadə edilən taktika və texnika baxımından dünyanın hərb tarixində yeni bir səhifə oldu. Qəhrəmanlarımız döyüş meydanında böyük şücaət göstərərək Ermənistana məxsus olan texnikaları məhv etməklə, bir çox texnikanı qənimət olaraq ələ keçirməklə, habelə erməni hərbi qulluqçularını əsir götürməklə Ermənistan ordusunu darmadağın etdilər”, - deyən Adil Əliyev vurğulayıb ki, bu müharibə dövründə qəhrəmanlarımızla yanaşı, hamımız cəbhədə idik. Xalqımız Prezident İlham Əliyevin “Bir birlikdə güclüyük!” şüarını rəhbər tutaraq istər ön cəbhənin təminatında, istərsə də informasiya meydanında düşmənə sarsıdıcı zərbələrin vurulması, habelə Ermənistanın törətdiyi vəhşiliklərin dünyaya çatdırılması istiqamətində üzərinə qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldi.

Milli Məclis sədrinin müavini deyib: “44 gün davam edən müharibə Ermənistanın tam məğlubiyyəti ilə başa çatdı və düşmən ağ bayraq qaldıraraq təslim olmağa, habelə kapitulyasiya aktı imzalamağa məcbur oldu. İmzalanmış bəyanat bizim müharibədə və diplomatiyadakı Qələbəmizin əyani təcəssümüdür. Bu sənədin şərtləri əsasında erməni qoşunları Ağdam şəhəri və ətraf kəndlərdən, Kəlbəcər və Laçın rayonlarından çıxarıldı, bir güllə belə atmadan əzəli və əbədi torpaqlarımıza qovuşduq. Diplomatik qələbəmiz isə təbii ki, döyüş meydanında Ordumuz tərəfindən qazanılmış Zəfərlə dövlətimizin başçısının dünyaya nümayiş etdirdiyi qətiyyətin vəhdəti sayəsində mümkün oldu. Sənəddə nəzərdə tutulmuş və Naxçıvanla Azərbaycanın uzun illərdən sonra quru yolu ilə birləşməsini təmin edəcək məqam isə çox mühüm idi”.

Adil Əliyev diqqətə çatdırıb ki, diplomatik qələbəmizdə həm də hazırda rəhbərlik etdiyimiz, dünyanın 120 dövlətini özündə birləşdirən Qoşulmama Hərəkatına üzv dövlətlərin ölkəmizin haqlı mövqeyini dəstəkləməsi olduqca vacib idi. Xarici ölkələrlə qurulan əlaqələr, diplomatik müstəvidə aparılan danışıqlar erməni xislətini özlərində əks etdirən dövlətlərin bizə qarşı atmaq istədiyi addımların qarşısını qətiyyətlə aldı.

2020-ci il Azərbaycan xalqının həmrəyliyini bütün dünyaya göstərdi. 2021-ci ildə isə bizi işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması kimi böyük hadisə gözləyir.

Qazanılmış tarixi Zəfər, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımızı təbrik edir, hər zaman Prezident İlham Əliyevin ətrafında belə sıx birləşməsini arzu edirəm.

# İlham Əliyev yeni tarix yazır

Əvvəli 1-ci səh.

*İlham Əliyev Azərbaycana rəhbərliyə başlayanda artıq Ermənistan işğal etdiyi əraziləri "özününküləşdirməyə" başlamışdı:*

■ gecə-gündüz dayanmadan müdafiə qurğuları, atəş nöqtələri, istehkamlar qurur, bunkerlər tikirdi;

■ özünün aldığı və ona bağışlanan silahları işğal ərazilərinə daşıyaraq torpaqları xoşluqla qaytarmayacağını nümayiş etdirirdi;

■ bütün dünyaya car çəkərək ermənilərin "öz müqəddəratını təyin etmək" hüququndan dəm vurur, "Dağlıq Qarabağ Respublikası"nı müstəqil respublika kimi təqdim edirdi;

■ ATƏT-in Minsk qrupu sülh danışıqlarının ağası idi və bu danışıqlar da acı bağırsaq kimi uzanırdı;

■ erməni torpağı "danışıqlar yolu ilə" qaytarana oxşamırdı...

*Heydər Əliyev siyasi kursunun davamçısı olduğuna görə, Azərbaycanın yeni rəhbərinin çiyninə çoxsaylı vəzifə yükü qoyulmuş, həm də çox böyük məsuliyyət düşmüşdü.*

*Görüləsi iş çox, imkanlar məhdud, dəstək verib kömək edənlərimiz isə yox dərəcəsində idi!*

**Ən əvvəl Ulu Öndərin başladığı işi davam etdirmək, uğurla sona çatdırmaq, xalqın ona bəslədiyi etimad və inamı doğrultmaq vacib idi!**

**Üstəlik, Ulu Öndər Heydər Əliyev ona Şuşanı işğaldan qurtarmaq barədə şəxsi vəsiyyətini də etmişdi...**

*Tarixi dəyişmək, yeni tarix yazmaq qaçılmaz idi...*

Amma bunun üçün mümkün olmayanları mümkünə çevirmək, necə deyərlər, möcüzə yaratmaq tələb olunurdu!

**Azərbaycan Prezidenti, Ali Baş Komandan olaraq İlham Əliyev bu möcüzəni yarada, müstəqil Azərbaycanın yeni tarixinin ilk səhifələrini yaza bildi!**

❖ ❖ ❖

"Sülh danışıqları"nı davam etdirməklə bərabər, müharibəyə hazırlıq da görülməliydi!

Bu yolda isə problemlər, maneə və əngəllər çox görünürdü:

■ Beynəlxalq hüquq işləmirdi, onun əvəzində ikili standartlar hökm sürürdü.

■ Beynəlxalq qurum və təşkilatlar, bir sıra aparıcı dövlətlər açıq-aşkar ermənilərin ədalətsiz mövqelərini müdafiə edirdilər.

■ Transmilli layihələrin reallaşdırılmasında ermənipərəst qüvvələr maneələr yaradır, "ekoloji", maliyyə problemləri törətməyə çalışırdılar.

■ Hər dəfə Azərbaycan ordunu yeni silahlarla təchiz edəndə havadarları Ermənistana qiyməti milyard dollardan çox olan silah-sursat hədiyyə edir, tarazlaşdırma yaratmağa çalışırdılar.

**Lakin İlham Əliyev nə məqsədindən döndü, nə geri çəkildi, nə də yoruldu!**

*Ən əvvəl, mövcud vəziyyəti dərindən təhlil etdi, dünyanın, Cənubi Qafqazın və Azərbaycanın inkişaf istiqamətlərini, baş verə biləcək siyasi, iqtisadi, qlobal dəyişiklikləri düzgün müəyyənləşdirdi, uzun bir dövr üçün atılacaq zəruri addımları dəqiqliyi ilə hesabladı, erməni məkrini zərərsizləşdirməyin, ölkəyə çoxsaylı dostlar qazandırmağın yollarını tapdı, daxili və xarici imkanları səfərbər etdi, əlverişli zamanın yetişməsini, bütün hazırlıqların məqamında başa çatmasını təmin etdi!*

Görülən işlərin bir qismi aşkar, bəziləri isə məxfi qaydada aparılırdı.

Cənab İlham Əliyev "hücum diplomatiyası"na start verərək, beynəlxalq qurum və təşkilatlarda, ayrı-ayrı ölkələrdə ermənilərin şər-böhtan kampaniyasına qarşı mübarizəni gücləndirdi. Bu sahədə işin effektliyini artırmaq üçün Azərbaycan və Türkiyə diasporunun əlbir, əlaqəli fəaliyyəti təmin olundu.

Qonşularla, habelə dünyada xüsusi çəkisi olan dövlətlərlə qarşılıqlı maraqlara və hörmət prinsipinə əsaslanan əlaqələr yaradıldı, dost, dəstəkçi ölkələrin sayı artırıldı.

**Bu məsələdə Prezident İlham Əliyevin şəxsi nüfuzunun və diplomatik məharətinin xüsusi əhəmiyyəti oldu. Belə ki, Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi və cənab İlham Əliyevin Təhlükəsizlik Şurasının iclaslarına müəyyən dövrdə sədrlik etməsi, habelə İslam Əməkdaşlıq Təşkilatına, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına, Qoşulmama Hərəkatına sədrliyi dövründə dünyanın və bəşəriyyətin taleyüklü problemləri və onların uğurlu həlli ilə bağlı ciddi təşəbbüslər irəli sürərək təkliflər verməsi, əksər dövlətlərin maraqlarına uyğun problemlərin müzakirəyə çıxarılması və onların çözümü istiqamətində səmərəli addımlar atılması sayəsində Azərbaycana dost münasibəti bəsləyən, onun haqq işini müdafiə edən dövlətlərin sayı əhəmiyyətli dərəcədə çoxaldı.**

*İlham Əliyev uzaqgörənliyi Azərbaycan Ordusunun gücləndirilməsində, ən müasir texnologiyalara əsaslanan silahlarla təchiz edilməsində həlledici amilə çevrildi.*



Ermənistan və onun dəstəkçiləri sülh danışıqları ilə, sadəcə, baş qatırdılar. Onlar "münaqişənin sülh yolu ilə həllindən başqa variant yoxdur" desələr də, əslində, Azərbaycanla yeni müharibəyə ciddi hazırlıqlar görürdülər. Çünki bilirdilər ki, nə Azərbaycan Prezidenti cənab İlham Əliyev, nə də Azərbaycan xalqı heç zaman işğalla barışmayacaq və nəyin bahasına olursa-olsun, torpaqları azad etməyə çalışacaqlar! Odur ki, işğal ərazilərinin təbii relyefindən istifadə edərək betonlaşdırılmış müdafiə qurğuları, keçilməz səngərlər, bunkerlər, minalanmış sahələr yaradır, havadarlarının köməyi ilə möhkəm istehkam qurğuları tikirdilər.

Elə zənn edirdilər ki, Azərbaycan müharibəyə başlayacağı təqdirdə ona ciddi tələfat yaşadacaq, tikdikləri qurğularda gizlənərək hücum edən hissələri geri oturdacaq, bir daha özlərinin "məğlubedilməz ordu", "məğlubedilməz millət" imiclərini möhkəmləndirərək ərazilərimizi həmişəlik əllərində saxlayacaqlar.

Hətta bu xülya ilə "yeni Ermənistanın" təzə "xəritəsini" çap etdirərək geniş yayır, məktəblərdə yeni nəslə tədris edirdilər.

**Bütün bunlardan cənab İlham Əliyevin xəbəri vardı!**

**Ali Baş Komandanımız bu xülyaları yaxşı bilir, daim nəzərə alırdı!**

**Ancaq düşməndən fərqli olaraq zəruri hazırlıq işlərini son dərəcə məxfiliklə aparırdı.**

**İlham Əliyevi aldatmaq istəyən Paşinyan son nəticədə özü aldanaraq axmaq vəziyyətinə düşdü!**

Həm də bunu hərbi əməliyyatlar başlanandan bir neçə gün keçdikdən sonra anladı...

Belədə isə gec idi!

Çox gec!

❖ ❖ ❖

**Ali Baş Komandan İlham Əliyev müharibəyə təkcə hərb cəbhəsində deyil, diplomatiya və informasiya sahəsində də ciddi hazırlaşmışdı.**

*Hər şey gözlənildiyi kimi oldu:*

■ Ermənistan "qoymayın zavallı və qədim xalqı qırırlar, kilsələri dağıdıb bizi öz torpaqlarımızdan çıxarırlar", - deyə şivən qoparmağa başladı!

■ Bir sıra dövlətlərin başçıları, beynəlxalq qurum və təşkilatların rəhbərləri, tanınmış siyasilər hərbi əməliyyatların dayandırılması, sülh danışıqlarına başlanılması yönündə Azərbaycana xahişlər etməyə başlayaraq, təsir və təzyiq göstərməyə can atdılar!

■ Erməni diasporu tərəfindən ələ alınmış beynəlxalq televiziya kanalları və informasiya agentlikləri Azərbaycana qarşı şər-böhtan kampaniyasına start verdilər!

Burda bir incə məqam da vardı!

*Ermənistan və onun havadarları elə zənn edirdilər ki, hərbi əməliyyatlara başlayan Azərbaycan düşmən mövqelərinə elə ilk hücumlarında səngər, istehkam, mağara və tələlərə rast gələrək çıxılmaz vəziyyətə düşəcək, ciddi texnika və canlı qüvvə itkisinə məruz qalaraq geri oturdulacaq, müharibəni dayandırmaq üçün "vasitəçi" dövlətlərə, ATƏT-ə yalvar-yaxara başlayacaq.*

Sən öz saydığını say...

Həqiqətən də, belə bir vəziyyət yarandı!

Amma əks cəbhədə!

Miskin və rəzil günə düşən Ermənistan oldu!

Diz çöküb yalvaran, ona-buna saysız telefon zəngləri ilə minnətçi düşən Ermənistanın baş naziri Paşinyan idi!

*Ali Baş Komandan İlham Əliyev isə heç bir xahişə, minnətə, təsir və təzyiq cəhdinə baxmırdı!*

*Beynəlxalq qurum və təşkilatların rəhbərlərinə "Otuz ildə harada idiniz, niyə münaqişəni sülh yolu ilə həll etmirdiniz?" sualını verərək boğazlarını qurudurdu!*

*İlham Əliyevə hər cür təsir və təzyiq cəhdi irəlicədən uğursuzluğa məhkum idi.*

*Paşinyanın yeddi şərtini ayaq altına atan Ali Baş Komandan İlham Əliyev yalnız bircə şərt irəli sürürdü:*

**- Düşmən kapitulyasiya sənədinə imza atsın, torpaqlarımızdan dərhal rədd olub getmələri barədə konkret tarixlə qrafik göstərsin!**

**Hər şey Prezident İlham Əliyevin dediyi kimi oldu!**

❖ ❖ ❖

Müharibə dövrü fəaliyyətində cənab İlham Əliyev informasiya savaşında da qalib gələrək ermənilərə xidmət edən telekanallarda və informasiya agentliklərində ermənilərin özlərinin xəbis, faşist simalarını ifşa etdi, onların şər-böhtanlarını konkret faktlarla puça çıxardı, qərəzli mövqe sərgiləyən jurnalistləri qaçılmaz dəlil və faktlarla yerlərində oturtdu, obyektiv və ədalətli olmağa səslədi!

İlham Əliyev bu müharibənin dinlərarası savaş kimi təqdim edilməsinin də qarşısını aldı, Azərbaycan xalqının tolerant olduğunu, multikulturalizm ənənələrinə sadiqliyini sübut etdi, ölkəmizdə yaşayan bütün xalqların və millətlərin azərbaycançılıq ideyası ətrafında sıx birləşdiyini göstərdi.

İlham Əliyev "xiristianların məbədləri dağıdılır" erməni yalanının hiylədən başqa bir şey olmadığını söyləyərək bunun əksini, işğal zonasındakı Azərbaycana məxsus 67 məsciddən 63-nün dağıdıldığını ortaya qoydu!

**İlham Əliyev həmçinin sübut etdi ki, "münaqişənin həlli yalnız sülh danışıqları ilə mümkündür" deyənlər, əslində, riyakarlıq edir, işğal faktını əbədiləşdirməyə, torpaqların Ermənistana qalmasına çalışırmışlar.**

**Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin əsl yolu elə müharibəymiş!**

**Azərbaycan xalqının Vətən müharibəsi ədalətə, beynəlxalq hüququn öz yerini tutmasına, düşmənin özgə torpaqlarından qovulmasına şərait yaradan ən sürətli və təsirli vasitəymiş!**

❖ ❖ ❖

**Azərbaycan xalqının qalibiyyət savaşına rəhbərlik edən cənab İlham Əliyev yeni bir tarix yaratdı.**

*Onun bu tarixi qələbəsini şanlı-şöhrətli edən bir neçə mühüm məqam da var:*

■ İlham Əliyev yalnız Azərbaycan torpaqlarını ələ keçirərək onu otuz il işğalda saxlayan Ermənistana yox, həm də dünyanın bir sıra aparıcı dövlətlərinin dövlət başçılarının qərar qəbul etmələrinə təsir göstərən, parlamentlərində "erməni məsələsinə" dair müzakirələr açdıran, qanundankənar layihələr qəbul etdirən, beynəlxalq qurumları və KİV-i ələ alaraq öz maraqlarına işləməyə sövq edən dünya erməniliyinə qalib gəldi!

■ İlham Əliyev ermənilərin patoloji xəstəliyinə çevrilən "erməni soyqırımı" və "böyük Ermənistan dövləti" xülyasının daşıyıcılarına qalib gəldi!

■ İlham Əliyev həm də "məğlubedilməz xalq" və "məğlubedilməz ordu" anlayışını məhv edərək onun gülünclüyünü göstərdi!

**Əslində, İlham Əliyev özünə qədərki tarixi dəyişərək yeni tarixin təzə səhifəsini yazmağa başladı.**

YENİ TARİXİN BAŞLANĞICI OLARAQ:

■ Dünya hərb tarixində yenilik kimi qəbul edilən və hərbi əməliyyatların aparılmasında mühüm dəyişikliklərə səbəb olacaq yeni növ müharibə nümunəsini ortaya qoydu!

■ Cənubi Qafqazda qüvvələr nisbətinin əsaslı şəkildə dəyişdiyini göstərdi!

■ Müstəqil Azərbaycanın yeni tarixinin yeni xəritəsini cızdı, Naxçıvanla Azərbaycanı quru yolla birləşdirən çox mühüm strateji əhəmiyyətli dəhlizin açılmasını təmin etdi!

■ Cənubi Qafqazda əməkdaşlığın yeni formatlarının yaranmasına və uğurlu fəaliyyətinə zəruri əsaslar yaratdı!

■ Ermənistanın faşist, fitnəkar, vəhşi, dağıdıcı və murdar xislətini aşkar və ifşa edərək "məzlum millət" maskasını cırıb atdı!

■ Ermənistanın Qarabağ siyasətini birdəfəlik məhv edərək tarixin "məğlublar arxivinə" göndərdi!

■ Ermənistanın işğalçı, qocaya, qadına, uşağa aman verməyən, mülki obyektləri dağıdan və dinc əhalini hədəfə alan mənfur ordusunu darmadağın etdi!

■ Cənubi Qafqazda sülhə və əməkdaşlığa yol açan yeni mühit və düzən formalaşdırdı!

■ Ən nəhayət, İlham Əliyev COVID-19 pandemiyası səbəbindən bütün dünya üçün qorxulu, tənəzzül ili sayılan 2020-ci ili müstəqil Azərbaycanın yeni tarixinin başlanğıcı sayılan "Zəfər ili"nə çevirdi.

**Eşq olsun yeni tariximizin müəllifi və yaradıcısı Müzəffər Ali Baş Komandan İlham Əliyevə!**

**Qarabağ bizimdir!**

**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**

## Pakistanın Prezidenti və birinci xanımı Heydər Əliyev Fondunun dəstəyi ilə İslamabadda fiziki qüsurlu şəxslər üçün keçirilən əlil arabalarının təqdim olunması mərasimində iştirak ediblər

**Pakistan Prezidentinin Sarayında Heydər Əliyev Fondunun dəstəyi ilə 100 nəfər fiziki qüsurlu şəxsin hər birinin bədən ölçülərinə uyğun xüsusi olaraq hazırlanmış əlil arabaları təqdim edilib, eləcə də qüsurlu şəxslərin rəsm əsərlərinin və əl işlərinin sergisi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi və birinci xanımı Samina Alvi, dövlət rəsmiləri, deputatlar, tanınmış ictimai-siyasi xadimlər, media nümayəndələri iştirak ediblər.

Pakistan Prezidenti və birinci xanımı, eləcə də digər iştirakçılar fiziki qüsurlu şəxslərin rəsm əsərləri və əl işləri sərgisinə baxıblar.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın adından mərasim iştirakçılarını salamlayan Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə Azərbaycan Respublikasında bütün fiziki qüsurlu şəxslərin hüquq və azadlığının, onların müdafiəsinin, layiqli həyat şəraiti ilə təmin olunmasının, ilk növbədə, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edildiyini, onların rahat yaşayış və rifahının təmin olunmasının Azərbaycan hökumətinin tam nəzarətində olduğunu bildirib. Səfir qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərən Heydər Əliyev Fondunun da Azərbaycanda və xaricdə fiziki qüsurlu şəxslərin



müdafiəsi sahəsindəki rolunu qeyd edərək, Fondun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri, "Hilal-e-Pakistan" ordeni ilə də təltif olunmuş Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Heydər Əliyev Fondunun Azərbaycanda və Pakistan da daxil olmaqla bir sıra digər ölkələrdə təhsil, səhiyyə, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirməyə davam etdiyini vurğulayıb. Əli Əlizadə xeyriyyə layihələrini dəstəklədiyinə və Azərbaycan-Pakistan münasibətlərinə göstərdiyi xüsusi diqqətə görə Heydər Əliyev Fonduna və onun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib.

Səfir fiziki qüsurlu şəxslərin hüquqlarının və sosial rifahının tam həyata keçirilməsinin böyük vaxt və kollektiv yanaşma tələb etdiyini, xüsusi əlil arabalarının təqdim olunması ilə yanaşı, bu şəxslərin rəsm və əl işlərindən ibarət sərgisinin keçirilməsi məqsədinin onların bacarıqlarını ortaya çıxarmaq, özlərinə inamlarını artırmaq olduğunu qeyd edib. Pakistan hökuməti tərəfindən fiziki qüsurlu şəxslərin rifahı üçün keçirilən müxtəlif proqramlardan da bəhs edən səfir Əli Əlizadə bu tədbirə Prezident Sarayında evsahibliyi etdiyinə və xeyirxah məqsədlərə xidmət edən işlərə göstərdiyi davamlı diqqətə görə Pakistan Prezidenti Arif Alviyə təşəkkürünü bildirib.

Tədbirin xüsusi ali qonağı, Pakistanın Prezidenti Arif Alvi Heydər Əliyev Fondunun Pakistanda, eləcə də dünyanın bir çox ölkələrində çoxsaylı humanitar layihələr həyata keçirdiyini xüsusi qeyd edərək, bu cür proqramların həyata keçirilməsinin təqdirəlayiq olduğunu vurğulayıb və Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya dərin təşəkkürünü ifadə edib. Azərbaycanla Pakistan arasındakı yüksəksəviyyəli qardaşlıq münasibətlərindən məmnunluğunu bildirən Prezident 2019-cu ildə Qoşulmama Hərəkatının iclasında iştirakla bağlı Azərbaycana səfər etdiyini və ölkəmizdə göstərilən xüsusi diqqət, qayğı və qonaqpərvərliyin onda xoş təəssüratlar yaratdığını vurğulayıb. Prezident 44 günlük müharibədən söhbət açaraq ölkəmizin öz torpaqlarını işğaldan azad etməsi və təcavüzkar Ermənistan üzərində qələbə qazanması münasibətilə Azərbaycan hökumətini və xalqını təbrik edib, xüsusi təbriklərinin Azərbaycan Prezidentinə də çatdırılmasını xahiş edib. O, həmçinin fiziki məhdudiyyətli şəxslərə diqqətin göstərilməsinin vacibliyindən bəhs edərək Pakistan hökuməti tərəfindən də bu şəxslərin rifahının daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilməkdə olan layihələr barədə məlumat verib və onlara, sadəcə, dövlət tərəfindən deyil, eyni zamanda vətəndaşlar tərəfindən də qayğı göstərilməsinin zəruriliyini vurğulayıb.

Tədbirin yekununda Pakistanın Xüsusi Təhsil Baş Direktorluğu, Bait-ul-Mal, Xüsusi Hərbi Təhsil Akademiyası və Xüsusi İstedad Mübadilə Proqramı təşkilatlarını təmsil edən fiziki qüsurlu şəxslərə Heydər Əliyev Fondunun dəstəyi ilə onların bədən ölçülərinə uyğun xüsusi olaraq hazırlanmış 100 ədəd araba təqdim olunub.

## Heydər Əliyev Fondu 100 minədək ailəyə, uşaq evləri və internat məktəblərinə Yeni il sovqatları göndərib





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə aztəminatlı və digər həssas qruplardan olan ailələrə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə sovqatlar paylanılıb.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun və "Regional İnkişaf" İctimai Birliyinin həyata keçirdiyi aksiya respublika üzrə 100 minədək ailəni əhatə edir. Bura aztəminatlı ailələrlə yanaşı, sağlamlıq imkanları məhdud uşaqlar, 5 və daha artıq uşaqlı, Ermənistanın hərbi təcavüzü zamanı dəymiş zərərlər nəticəsində evlərini tərk edən ailələr daxildir.

Ərzaq məhsullarından ibarət sovqatların vətəndaşlara çatdırılması mövcud karantin rejiminin tələblərinə əməl olunmaqla, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə həyata keçirilir. "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri aksiyanın həyata keçirilməsində yaxından iştirak edirlər.

Qeyd edək ki, aztəminatlı ailələri və xüsusi qayğıya ehtiyacı olan şəxsləri daim diqqətdə saxlayan Heydər Əliyev Fondu onlarla bağlı mütəmadi olaraq müxtəlif layihələr həyata keçirir. İndiyədək respublika üzrə sosial yardım alan ailələrə Yeni il, Novruz və Ramazan bayramlarında sovqatlar çatdırılıb, sosial yardıma ehtiyacı olan minlərlə şəxs üçün bayram süfrələri təşkil edilib, hədiyyələr verilib. Eləcə də yeni növ koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə elan olunmuş xüsusi karantin rejimi dövründə evdən çıxması qadağan edilən yaşı 65-dən yuxarı tənha yaşayan şəxslərə və "Biz birlikdə güclüyük" layihəsi çərçivəsində aztəminatlı ailələrə ərzaq payları çatdırılıb.

❖ ❖ ❖

Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində "Buta" sarayında uşaq evləri və internat məktəblərinin sakinləri üçün şənlik təşkil edirdi.

Bu il COVID-19 pandemiyası ilə əlaqədar şənliyin təşkil olunması xüsusi karantin rejiminin qaydalarına uyğun olmadığından fond bu kateqoriyadan olan uşaqları fərqli şəkildə təbrik edib.

Uşaq evləri və internat məktəblərində tərbiyə alanları sevindirmək üçün Heydər Əliyev Fondunun nümayəndələri uşaqların qaldıqları müəssisələrə gedərək, onlara bayram sovqatları çatdırıblar.

Hər zaman Heydər Əliyev Fondunun təşkil etdiyi aksiyaları səbirsizliklə gözləyən və böyük sevinclə qarşılayan uşaqlarda bu il də bayram əhvali-ruhiyyəsi yaratmaq üçün Heydər Əliyev Fondu təşkil etdiyi hədiyyələri onların zövqünə və istəklərinə uyğun hazırlayıb. Uşaqlara 2021-ci ilin rəmzi olan yumşaq oyuncaqlar, onların ən çox sevdikləri şirniyyatlar və leqo konstruktorları təqdim edilib. Heydər Əliyev Fondunun sovqatları Bakı ilə yanaşı, Gəncə, Lənkəran və Şəkidəki uşaq evləri, internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqların sosial-xidmət müəssisələrinə və Uşaq Psixonevroloji Mərkəzinə çatdırılıb.

Fondun təşkil etdiyi bayram aksiyası iki minə yaxın uşağı əhatə edib.

# 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür



## Milli həmrəyliyin təntənəsi

*Əvvəli 1-ci səh.*

Bu qərar müstəqilliyini yeni elan etmiş Azərbaycanda milli həmrəylik ideyasının möhkəmlənməsinə əvəzsiz töhfə idi. Birlik və həmrəylik istiqamətində atılmış bu ilk addım sonrakı dövrlərdə xalqımızın vahid ideologiya ətrafında birləşməsində mühüm rol oynadı. 1993-cü ildə xalqın istəyi ilə Heydər Əliyevin respublikamıza rəhbərliyə başlamasından sonra Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü daha geniş vüsət taparaq ürəklərdə vətən eşqi, milli və mənəvi birlik, həmrəylik hissləri bəsləyən hər bir soydaşımız tərəfindən güclü dəstək aldı.

### Dünya azərbaycanlılarının lideri

Ulu Öndərin milli həmrəylik və azərbaycançılıq amalının şüurlarımızda möhkəm yer tutmasına yönəlmiş uzaqgörən siyasətini bu gün inamla davam etdirən Prezident İlham Əliyevin bu sahədə həyata keçirdiyi fəaliyyət ardıcıl və sistemli səciyyə daşıyır. Ötən 17 ildə İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində Azərbaycanın yüksəlişinin ortaya qoyduğu ən böyük reallıqlardan biri xalqımızın milli həmrəyliyinin daha da güclənməsidir. Bu illər ərzində İlham Əliyevin Azərbaycan cəmiyyətindəki etimadının daha da yüksəlməsi, dövlət başçısının yürütdüyü siyasətin xalqımız tərəfindən yekdilliklə və coşqu ilə dəstəklənməsi həm də milli həmrəyliyimizin ifadəsidir.

Eyni zamanda xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin genişləndirilməsini dövlət siyasətinin mühüm istiqamətinə çevirmiş cənab İlham Əliyev mövcud sosial-iqtisadi inkişaf şəraitində diaspor quruculuğu sahəsində dövrlə səsləşən genişmiqyaslı tədbirlər həyata keçirir. Dövlət başçısı xaricdə yaşayan hər bir azərbaycanlının maraq və mənafeyinin qorunmasını Azərbaycan dövlətinin başlıca vəzifəsi hesab edir. Məhz İlham Əliyevin bu istiqamətdə ortaya qoyduğu siyasi iradə ölkəmizin hüdudlarından kənarda yaşayan soydaşlarımızda milli ruhun yüksəlməsinə, onların vahid ideologiya və məqsədlər ətrafında daha sıx səfərbər olmalarına böyük töhfə verir. Məhz bu siyasətin məntiqi nəticəsi olaraq cənab İlham Əliyev bütün seçkilərdə tək Azərbaycan vətəndaşlarının deyil, dünyanın bütün ölkələrində yaşayan soydaşlarımızın dəstəyini alıb, onların alternativsiz lideri olub.

### Milli birliyin ən gözəl nümunəsi

Başa çatan 2020-ci il Azərbaycan xalqı üçün olduqca əlamətdar dövr kimi tarixə qovuşur. Çünki bu il respublikamızın ərazi bütövlüyü bərpa edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuz Ermənistanı məğlub edərək xalqımıza intizarla gözlədiyi qələbənin sevincini bəxş etdi.

Vətən müharibəsi müddətində xalqımız hər gün öz rəhbərinin yenilməz qətiyyətinə, siyasi iradəsinə şahidlik etdi. Məhz İlham Əliyevin ortaya qoyduğu nümunə xalqımızı bu müharibədə qələbəyə ruhlandırdı. Dövlət başçısının vətənpərvərliyi xalqımızı torpaqlarımızın azadlığı uğrunda mübarizədə həmrəy etdi. İlham Əliyevin qətiyyəti, ilk gündən nümayiş etdirdiyi hərbi-siyasi əzmi hər bir azərbaycanlını öz rəhbərinin ətrafında daha sıx birləşdirdi. Siyasi əqidəsindən, statusundan, vəzifəsindən, milli mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı milli həmrəylik nümayiş etdirdi. Prezident İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə dünya azərbaycanlılarına təbrikində bununla bağlı deyib: “Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir”.

Vətən müharibəsində dünyanın bütün ölkələrində yaşayan azərbaycanlılar da tarixdə görünməmiş dərəcədə fəallıq göstərdilər, daha sıx birləşdilər. Yaşadıqları ölkələrdə Azərbaycanın haqq səsinin eşidilməsi üçün səylərini əsirgəmədilər. “Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur”, - deyə İlham Əliyevin təbrikində bildirib.

Bəli, Vətən müharibəsi xalqımızın mübarizliyini bütün dünyaya nümayiş etdirdi. Eyni zamanda bu savaşda xalqımız İlham Əliyevin rəhbərliyi ilə milli həmrəyliyin ən mükəmməl nümunəsini yaratdı. Heç bir qüvvə bu sarsılmaz birliyi pozmaq iqtidarında deyil.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

## Yumruqtək birləşmək nümunəsi

**Narahatlıq və əndişələrlə dolu 2020-ci il artıq başa çatmaqdadır. Tarix səhnəsinə qədəm qoyduğu ilk aylardan dünyada müxtəlif ictimai-siyasi olayların baş verdiyi, terror aktlarının törədildiyi, aləmi çulğalayan taclı virusun canlar aldığı bu ili bəşər övladı heç sevmədi, tez-tez yamanladı, dalbadal gələn uğursuzluqların suçunu məhz bu ildə axtardı. Rəqəmlərinin yanaşı düzülüşü gözəl görünən, rahat tələffüz edilən 2020-ci ildə.**

Amma tarixə qovuşmaqda olan bu ilin özəllikləri də varmış. İndi Azərbaycan xalqı bunun daha çox fərqindədir. Çünki bu il xalqımızın tarixində, qan yaddaşında Zəfər, Qələbə və Uğur ili kimi əbədi yaşayacaqdır. Cəmi 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Ordusunun düşmən üzərində möhtəşəm qələbəsi ilə başa çatdı. Ali Baş Komandanımızın hərbi rəhbərliyi ilə hünərvər əsgər və zabitlərimiz qalibiyyətli döyüş əməliyyatları apararaq Ermənistanın işğal etdiyi əzəli torpaqlarımızı azad etdi, xalqımızın 30 illik Qarabağ həsrətinə son qoydu.

“Qalib haqlı olandır” deyiblər. Düşmən əsarətində qalmış yurd yerlərimizin hər qarışı uğrunda çarpışan, şirin canından keçən igidlərimizin torpağa səpələnmiş al qanıyla yazılıb hərb salnaməmiz. Silaha sarılmış Vətən övladlarının həmrəyliyi, ruh yüksəkliyi bizə möhtəşəm qələbəni qazandırdı. İşğal edilmiş ərazilərdə sülh və rifahın bərqərar olması nəticəsində tarixi ədalət bərpa edildi. Bizə bu sevinc dalğasını yaşadan, ən əsası isə yumruqtək birləşib çəkici bir zindana vurmaq nümunəsi göstərən, tarix yazan müdrik Sərkərdəmizə-Müzəffər Ali Baş Komandanımıza, Azərbaycan əsgərinə minnətdarlıq duyğumuz sonsuzdur.

Erməni vandalizminin şahidi olan, 30 il ərzində işğal altında, əsirlikdə qalan yurd yerlərimiz xiffətini çəkdiyi igid oğullarımızın, polad biləkli Vətən müdafiəçilərinin qədəmlərinə sevinir, canlanır, nəfəs alır. Şükürlər olsun ki, doğma insanların səsinə, hənirtisinə həsrət yollar, bağlı qapılar açılır.

Bizim hər birimiz bu ilin son aylarında möhtəşəm həmrəyliyin şahidi olduq. Dövlət, xalq və ordu birliyinin. Bu sıx vəhdət ürəyimizdə ehtişam, fəxr-fəxarət duyğusu yaratdı. Xalqımız bütün dünyaya, bizi dəstəkləyən və dəstəkləməyən dövlətlərə haqq işi naminə bir yumruqtək birləşmək nümunəsi göstərdi. Bu gün Vətənimiz dünyanın müxtəlif ölkələrinə səpələnmiş soydaşlarımızın, qəlbi doğma yurdumuzla döyünən həmvətənlərimizin daha sıx birləşməsinə, təşkilatlanmasına güvənir.








Vətən müharibəsinin davam etdiyi günlərdə biz bu birliyi bir daha müşahidə etdik. Necə deyərlər, diasporumuzun təmsilçilərinin əhvali-ruhiyyəsi, iş ahəngi cəbhə xəttində zəfər yürüşləri aparan ölkəmizin nəbzi ilə bir vururdu. Avropanın bir sıra ölkələrində yaşayan həmvətənlərimiz təmsil olunduqları diaspor təşkilatlarının xətti ilə ölkəmizə dəstək aksiyaları keçirir, Azərbaycanın haqq işini Qarabağ həqiqətlərini dünyaya çatdırırdı. Almaniyada fəaliyyət göstərən diaspor üzvlərimizin bu ölkənin böyük şəhərlərində Berlin, Köln, Düsseldorf, Leypsiq, Drezdendə... keçirdikləri dəstək aksiyaları bu qəbildəndir. Burada çalışan azərbaycanlı mütəxəssislər, təhsil alan tələbələr ölkəmizin mülki əhalisinə qarşı terror aktı törədən erməni vandallarının vəhşiliklərini pisləyir, dünya ictimaiyyətini haqq işimizi dəstəkləməyə səsləyirdi. Siegen universitetinin magistri Cavidan Kərimlinin də təşkilində səyləri olan Vətənə Dəstək Qrupu Qarabağda qəhrəmancasına həlak olan şəhidlərimizin ailələrinə burada yaşayan azərbaycanlılar adından müntəzəm olaraq maddi yardım göstərir.



Bu günlərdə Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il münasibətilə “Bir olaq, həmrəy olaq” adlı bayram tədbiri keçirmişdir. Bu, 500 nəfərə yaxın soydaşımızın iştirakı ilə dörd saatdan çox davam edən həmrəylik konfransı idi. Tədbirdə 2020-ci ilin Azərbaycan tarixinə qızıl hərflərlə Qələbə ili kimi həkk olunduğu, Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuzun tarix yazdığı qeyd edilmişdir. Gələn il Dünya azərbaycanlılarının qurultayının Qarabağda keçirilməsinin qərara alındığı diqqətə çatdırılmışdır.

Çıxış edənlər həmvətənlərimizə qarşıdan gələn 2021-ci ildə yeni nailiyyətlər, sıx birlik və qələbələr arzulamışlar. Zəfər müjdəsini bizə yaşadanlara maddi və mənəvi dəstək olmaq məqsədilə yaradılmış “Yaşat” Fondu barədə iştirakçılara ətraflı məlumat verilmiş, bu xeyriyyəçilik qurumunun fəaliyyətinə qoşulmaq tövsiyə olunmuşdur. Nəzərə çatdırılmışdır ki, Azərbaycan yalnız Vətən müharibəsində deyil, eyni zamanda düşmənlə mübarizədə informasiya cəbhəsində də qalib gəlmişdir və bu işdə diasporumuzun rolu mühümdür.

Türkiyədəki diasporumuzun fəallarından olan vəkil Səidə Ekmen informasiya mübarizəsinə hələ iyul ayından başlandığını, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Tovuz bölgəsində törətdiyi təxribatlarla bağlı məlumatların dünya ictimaiyyətinə çatdırıldığını vurğulamışdır. Qeyd olunmuşdur ki, həmin günlərdə burada yaşayan həmvətənlərimiz Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün uyuduğu Ankaradakı Anıtqəbir kompleksini ziyarət etməklə dövlətimizə və şanlı ordumuza dəstək aksiyalarını davam etdirmişlər. S.Ekmen və A.Azaflının təşkilatçılığı ilə izdihamlı yürüş keçirilmiş, soydaşlarımız Anıtqəbir kompleksini ehtiramla ziyarət etmişlər. Bu yürüşə ölkəmizin Türkiyədəki səfirliyinin nümayəndələri də qatılmışdır.

Digər dövlətlərin bayraqlarının Anıtqəbir kompleksində qaldırılması protokol üzrə qadağan olunsa da, Türkiyə tərəfi bununla bağlı səfir Xəzər İbrahimin müraciətini nəzərə alaraq, Azərbaycanın dövlət bayrağının kompleksdə dalğalandırılmasına icazə vermişdir. Çox qürurvericidir ki, Atatürkün məzarı üzərinə qoyulan əklilə Türkiyə ilə yanaşı, Azərbaycanın da dövlət bayrağı əlavə edilmişdir. Bu, Türkiyənin Cümhuriyyət tarixində ilk hadisə olaraq yaddaşlara yazılmışdır.

Türk vəkillərinin bu haqlı mücadilədə daim Azərbaycanın yanında olduqları, cəbhədə və beynəlxalq arenada yaşanacaq hüquq pozuntularının aradan qaldırılmasına dəstək verəcəkləri diqqətə çatdırılmışdır. Türkiyənin müxtəlif şəhərlərindəki vəkillər kollegiyalarının Azərbaycan Vəkillər Kollegiyası ilə birgə nüfuzlu beynəlxalq təşkilatlara Ermənistanın Azərbaycana qarşı yönəlmiş təxribatları ilə bağlı müraciətlər ünvanladığı bildirilmişdir.

Türkiyənin Azərbaycandakı sabiq səfiri, ölkəmizin böyük dostu Hulusi Kılıç, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, millət vəkili Şamil Ayrım və digər həmvətənlərimiz “Qarabağ Azərbaycandır!” mövzusunda çoxsaylı tədbirlər keçirmişlər.

Göründüyü kimi, taleyin hökmü, dövranın gərdişi ilə dünyanın müxtəlif ölkələrində məskunlaşan soydaşlarımız dövlət başçısı İlham Əliyevin təbirincə desək, “Bizim işimiz haqq işi, yolumuz haqq yoludur!” prinsipi ilə fəaliyyət göstərir, öz nəcib əməlləri ilə tarixi Vətənə-Azərbaycana bağlı olduqlarını nümayiş etdirirlər. Onlar Vətəndən çıxsalar da, Vətən onların qəlbindən heç vaxt çıxmayıb.

Bir daha fəxarətlə xatırlayaq ki, Müzəffər Ali Baş Komandanımızın dönməz iradəsinin, ordumuzun əzmkarlığının daha bir göstəricisi olan möhtəşəm qələbəmiz Vətən müharibəmizi şərəfləndirən “Dəmir yumruq” əməliyyatı sayəsində qazanılıb. Azərbaycanımızı dünyada tanıdan həmvətənlərimiz yaşayıb-çalışdıqları ölkələrdəki diaspor təşkilatlarımızda sıx, yumruqtək, birləşməli, daha mükəmməl təşkilatlanmalıdır. Bu isə qüdrətli ölkəmizin təbliğində və haqq işinin dəstəklənməsində ən mühüm amildir.

***Zemfira MƏHƏRRƏMLİ,***
***yazıçı-publisist***

## Həmrəyliyimizin Zəfər tağı

2020-ci il, 10 noyabr...

Gün o gün, çoxdandır addım-addım yol aldığımız o böyük məqam idi...

On illərdir arzuladığımız, həsrətində olduğumuz kimi, ana yurdumuzun, Şuşanın, Laçının, Kəlbəcərin, Ağdamın, Füzulinin, Cəbrayılın, Qubadlının, Zəngilanın, Qarabağımızın qurtuluş müjdəsini aldığımız sevinc zamanı idi...

Azərbaycan xalqının ən qürurlu, ən parlaq zəfər ili kimi bəşər var olduqca xatırlanacaq əbədi qələbə imzası atdığı möhtəşəm tarix idi...

Qarabağ zəfəri kimi könül səltənətimizin şah zirvəsində qərar tutan möcüzəvi an idi...

2020-ci ilin 27 sentyabrı isə ruhumuza diriliş, milli kimliyimizə oyanış günü kimi həkk olundu, zəfərə, qalibiyyətə susamış xalqımın bir qərinəlik torpaq nisgilini dindirməyə yetdi.

30 illik nisgilimizin, yurd həsrətimizin üzərinə məlhəm çəkdi, vətənə qovuşma eşqi qanayan, sızlayan yaralarımızı bir andaca sağaltdı. Ümidlərimizi dirçəltdi, qəlbimizə abu-həyat saçdı.

### Torpağına canım qurban, Azərbaycan

44 gün ərzində, sanki sehrli bir dünyada var olduq, ilahi hisslər keçirdik, varlığına, həyata keçəcəyinə xəyallarımızda belə inana bilməyəcəyimiz müqəddəs gerçəklər yaşadıq, Yer üzündə şərin məğlubiyyəti, haqqın nahaqqa qalib gəldiyi müqəddəs anlara şahidlik etdik. Şəhidlərimizin ruhu qarşısındakı o müqəddəs borclarımızı ödədik, Xocalının qisasını qiyamətə qoymadıq, yağı tapdağında qalan, viranəyə çevrilən ana yurdumuzu xilas etdik...

“Torpağına canım qurban, Azərbaycan” deyərək irəli şığıdıq, bir olduq, birlik olduq, Qarabağ dedik, Vətən hayqırdıq. Bu uğurda bir öldüksə, min dirildik, qanımızla, ruhumuzla qaraca torpağa can verdik, ay-ulduzlu üçrəngli bayrağımızın kölgəsində ana Vətən yenidən cənnət ətri saçdı.

Ana yurdun harayına yetən qəhrəman övladlarımız canını bu torpağa qurban deyib, şəhidlik şərbəti içdi, canı bahasına torpağımızı qoruyaraq qazi oldu, soyuq, şaxta, qar-boran demədən, güllə, mərmi, bomba düşünmədən düzənliklər keçərək, dağlar aşaraq, sıldırımlı qayalara dırmaşaraq mənfur düşmənin üzərinə yeridi. Heç bir çətinlik onları haqq yolunda çıxdıqları səfərdən döndərə bilmədi. İgidlərimiz daim irəli şığıdılar, döyüşə atıldılar.

Qarabağın ən hündür zirvələrində Azərbaycanın müqəddəs bayrağını dalğalandıraraq əzmkarlıq, rəşadət nümayiş etdirdilər.



### Bir amal uğrunda birləşdik

Vətən müharibəsində bir amal ətrafında tarixin heç bir dönəmində olmadığımız kimi həmrəy olduq, haqq savaşımız uğrunda hər birimiz müsəlləh əsgərə çevrildik.

Bu Zəfər tağını Azərbaycan xalqının hər bir övladı öz əlləriylə zərrə-zərrə, kərpic-kərpic hördü. Çoxmillətli xalqımın hər bir üzvü bu qələbədə kiçicik də olsa payı olması üçün gecə-gündüz əzmlə çalışdı. Ləzgisi də, talışı da, yəhudisi də, kürdü də, rusu da, türkü də yaralı yurdumuzun müdafiəsinə qalxdı, bir yumruğa çevrilib düşmənin başında zərbəyə döndü.

Hər gün intizarla İlham Əliyevin qələbə xəbərlərini gözlədik və Ali Baş Komandanın hər müjdəsini bayram etdik. Ruh yüksəkliyi, şövqlə düşmənin məğlubiyyətə uğradıldığının, torpaqlarımızdan qovulduğunun xoş əhvalını yaşadıq.

Ermənistan cəmi 44 gün ərzində Azərbaycan Silahlı Qüvvələrinin Ali baş Komandanı İlham Əliyevin bütün müstəvilərdə uğurlu şahmat gedişi qarşısında “mat”, işğalçı qoşunları isə Şanlı Ordumuzun ildırım sürətli hücumları ilə tar-mar oldu.

### Azərbaycan həm səngərdə, həm də arxa cəbhədə mübarizə apardı

Azərbaycan xalqı birləşərək Vətən savaşımızın qalibiyyətlə bitməsi üçün əlindən gələn hər şeyi etməyə çalışdı. Həm ön səngərdə vuruşdu, həm də arxa cəbhədə mübarizə apardı. Hər kəs cani-dildən çalışdı ki, dövlətimizə, ordumuza, əsgərimizə, ümumilikdə Qələbəmizə töhfə versin. Xeyli sayda ictimai təşəbbüslər başladı, könüllü hərəkatlara start verildi, beynəlxalq aləmə səsimizi çatdırmaq, informasiya müharibəsində savaşmaq üçün gecə-gündüz çalışıldı. Yaşından, başından, pulundan, dünyagörüşündən, yaşadığı bölgəsindən asılı olmayaraq hamı bu uğurda səfərbər oldu. Tək ölkəmizin daxilində deyil, onun hüdudlarından kənarda yaşayan soydaşlarımız da haqq savaşı uğrunda birləşdilər. Bütün dünya azərbaycanlılarının ürəyi bir olub yalnız Qarabağ üçün döyündü.

Ön cəbhədə vuruşan mərd oğullarımıza dayaq durmaq üçün arxa cəbhədə insanlarımız əsgərlərimizə olan dəstəyini artırdı.

Dövlət xalq, xalq dövlət oldu, siyasi düşüncəsindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları Ali Baş Komandanın “Qarabağ Azərbaycandır!” haqq nidasına dəstək verdi. Vətən torpaqlarımızı düşməndən azad etmək eşqiylə coşan xalqın on minlərlə cəsur övladları, gəncindən, yaşlısından, qazisindən asılı olmayaraq, orduya getmək, düşmənə layiq olduğu cavabı vermək üçün könüllü olaraq döyüşlərə can atdı.

İnsanlar maddi imkanı çatdığı qədər Silahlı Qüvvələrə Yardım Fonduna pul köçürdü. Milyonlarla vəsait köçürən də oldu, özünün ehtiyacı olduğu təqdirdə son pulunu əsgərlərdən əsirgəməyənlər də...

Cəbhəyə doğru sovqat karvanları yola çıxdı. Qurbanlar kəsildi, təndirlərə çörək yapıldı, nənələr corab toxudu, şagirdlər məktub yazdı. Azərbaycan xalqı əsgərlərimizin sağ-salamat olmaları üçün əl açıb Tanrıya dua etdi.

Onu da xüsusilə vurğulamalıyıq ki, həmin günlərdə qardaş Türkiyə xalqı da daim yanımızda oldu, haqq savaşımıza mənəvi dəstək verdi. Prezidentimizə xeyli sayda məktub ünvanlayan türk gəncləri Ali Baş Komandanımıza Qarabağ uğrunda döyüşmək istəyində olduqlarını yazdılar.

Vətən müharibəmiz zamanı bir türk gəncinin nişan üzüyünü sataraq Silahlı Qüvvələrə Yardım Fonduna ianə etməsi isə qəlblərimizi riqqətə gətirən nümunələrdən sadəcə biri olmuşdu.

### Vətən sınağından birliyimiz sayəsində üzüağ çıxdıq

“Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir”. Torpağı vətənə çevirən onun uğrunda canını fəda etməyə hazır övladlarının var olmasıdır. Onların qanlarıyla, canlarıyla ruh, yaşam vermələri sayəsində torpaq Vətən olur.

“Azərbaycan tarixdə heç vaxt belə parlaq Zəfər əldə etməmişdir, tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bizim gücümüz birliyimizdədir. Biz birlik nümayiş etdirmişik, əzmkarlıq nümayiş etdirmişik, qəhrəmanlıq nümayiş etdirmişik və bunun nəticəsində dəmir yumruqla düşmənin başını əzib öz doğma torpaqlarımızı azad etmişik”. Ali Baş Komandan İlham Əliyevin dekabrın 23-də işğaldan azad edilmiş Qubadlı və Zəngilan rayonlarında olarkən bütün dünyaya bəyan etdiyi kimi, məhz birliyimiz və əzmimizlə, qətiyyətimizlə dədə-baba yurdumuz Qarabağı azadlığa qovuşdurduq.

Və nə xoşbəxt xalqıq ki, sentyabrın 27-dən noyabrın 10-na qədər olan 44 günlük bir zaman dilimindəki Vətən sınağından birgəliyimiz sayəsində üzüağ çıxdıq.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***




**Biz birlikdə güclüyük**

# Pandemiyaya qarşı mübarizədə Azərbaycan nümunəsi

**2020-ci il başlayanda Yer kürəsinin heç bir sakini xəyalına belə gətirə bilməzdi ki, bəşəriyyət necə ağır xəstəliklə qarşılaşacaq, hansı sınaqlardan keçəcək. İl başlar-başlamaz bütün bəşəriyyət pandemiya ilə qarşı-qarşıya qaldı. COVID-19 adı verilən yeni növ koronavirus sürətlə planetin 200-dən çox ölkəsinə yayılaraq ilin sonuna qədər 81 milyondan çox insanı yoluxdurdu, 2 milyona qədər insanın həyatına son qoydu.**

Dünya sözün həqiqi mənasında "əsas can sağlığıdır" ifadəsinin gerçəkliyinin fərqinə vardı. İlboyu bütün səylər bu problemlə mübarizəyə və profilaktika tədbirlərinə yönəlsə də, pandemiyanın qarşısını almaq mümkün olmadı. Beləliklə, 2020-ci ili koronavirusla mübarizə apararaq başa vurduq.

Təəssüf ki, bu mübarizədə hələ də koronavirus öndədir. Əksər ölkələrdə sanitar-epidemioloji vəziyyət ürəkaçan deyil. Yoluxma sayı yüksək həddə çatdığından sərt karantin rejimi davam edir.

## Qabaqlayıcı tədbirlər ölkəni fəlakətdən qorudu

Azərbaycan dövləti də vətəndaşların sağlamlığını qorumaq məqsədilə müəyyən tədbirlərin görülməsinə üstünlük verdi. COVID-19 infeksiyası yayılmağa başladığı ilk günlərdən, virus sərhədlərimizə hələ çatmadan ölkəmizdə bütün istiqamətlər üzrə zəruri qabaqlayıcı tədbirlər həyata keçirilməyə başlandı. Prezident İlham Əliyevin tapşırığına əsasən, profilaktik və təxirəsalınmaz qərarların həyata keçirilməsi üçün Nazirlər Kabinetinin yanında aidiyyəti dövlət qurumlarından ibarət Operativ Qərargah yaradıldı.

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini nəzərə alaraq, hökumət problemin ciddiliyini anlayaraq dünyada öz sərhədlərini qapadan, bütün təhsil müəssisələrini bağlayan, kütləvi tədbirləri, idman yarışlarını təxirə salan ilk ölkələrdən oldu. Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin davamı olaraq martın 14-dən sosial izolyasiya qaydaları tətbiq olundu, aprelin 5-dən isə xüsusi karantin rejimi elan edildi.

Birbaşa ölkə rəhbərinin ciddi nəzarəti və tapşırıqlarına əsasən, pandemiyaya qarşı həyata keçirilən mühüm çevik və operativ tədbirlər infeksiyanın yayılmasını mümkün qədər məhdudlaşdırmağa və sanitar-epidemioloji vəziyyəti nəzarətdə saxlamağa imkan verdi, kütləvi yoluxmanın qarşısını aldı. Koronavirusla əlaqədar ilkin mərhələdə dövlətin həyata keçirdiyi qabaqlayıcı tədbirlər ölkəni böyük fəlakətdən qorudu. Qüdrətli dövlətlərin, inkişaf etmiş ölkələrin səhiyyə sisteminin belə, aciz qaldığı bir dönəmdə Azərbaycan COVID-19-la mübarizəni bütün sahələrdə uğurla davam etdirən və müsbət nəticələr qazanan ölkələr sırasında yer aldı.

Prezident İlham Əliyevin ölkəmizin vətəndaşlarının sağlamlığını qorumağa yönəlmiş məqsədyönlü strategiyası hətta beynəlxalq qurumlar tərəfindən də təqdir edildi. Ümumdünya Səhiyyə Təşkilatı bu sahədə respublikamızda atılan addımları təqdir edərək görülmüş işlərə yüksək qiymət verdi, Azərbaycanın təcrübəsini digər ölkələrə nümunə göstərdi. Dövlət başçısının tapşırığına uyğun olaraq, ilk növbədə, ölkə səhiyyəsi koronavirusla səmərəli mübarizə üçün tələb olunan standartlara uyğunlaşdırıldı.

Hökumətin intensiv və düzgün fəaliyyəti sayəsində səhiyyə infrastrukturu pandemiya ilə mübarizəyə istiqamətləndirildi, aidiyyəti dövlət qurumlarının fəaliyyəti bacarıqla əlaqələndirildi. Ölkəmizdə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alındı, diaqnostik alətlər, müasir avadanlıq və ləvazimatlar, qoruyucu vasitələr vaxtında ölkəyə gətirilərək, tibb müəssisələrinə təhvil verildi.

Virusun diaqnostikası üçün tibb müəssisələrində dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir laboratoriya sistemləri quruldu, onlar Avropa ölkələrinin buraxdığı testlərlə təchiz edildi. Laboratoriyaların sayı il ərzində 8 dəfə artırıldı. Paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı. Xüsusi rejimli xəstəxanalar müvafiq dərman və qoruyucu vasitələrlə təmin olundu, hər bir karantin zonalarına tibb müəssisələrinin rəhbərləri, həkim və orta tibb heyəti ezam edildi, virusla mübarizədə digər dövlətlərdəki həkim-ekspertlərlə təcrübə mübadiləsi aparıldı. Həkim çatışmazlığı probleminin həlli üçün 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən mütəxəssislər dəvət edildi.

Qısa müddətdə 20-dən çox xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən "Yeni Klinika" koronavirus xəstələrinin ixtiyarına verildi. Dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən, bölgələri də əhatə etməklə ölkədə 10 modul tipli xəstəxana quraşdırıldı. Onlardan beşi - ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonundadır.

## Zərər çəkən vətəndaşlar diqqətdən kənarda qalmadı

Pandemiyadan zərər çəkən insanların maddi və mənəvi cəhətdən dəstəklənməsi, ölkə iqtisadiyyatına dəyən ziyanın aradan qaldırılması üçün dövlət tərəfindən mühüm tədbirlər həyata keçirildi. Karantin dövrü ərzində pandemiyadan əziyyət çəkən insanlara maddi və sosial yardımlar edildi. Prezident İlham Əliyevin sərəncamı əsasında pandemiyanın iqtisadiyyata, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə dəyəri 2,5 milyard manata çatan sosial-iqtisadi dəstək paketi qəbul edildi. Pandemiya dövründə mikro, kiçik, orta və iri sahibkarlıq subyektləri üçün ciddi güzəştlərin nəzərdə tutulması iş adamlarına dəyən zərərin kompensasiya edilməsi baxımından əhəmiyyətli oldu.

Pandemiyadan ən çox zərər çəkən sahələrdə işləyən 300 mindən çox insanın əməkhaqlarının əhəmiyyətli hissəsinin dövlət tərəfindən dəstəklənməsi, 300 minə yaxın mikro sahibkarın, ümumilikdə, 600 minə yaxın insanın dövlətdən maddi yardım alması cəmiyyətdə razılıqla qarşılandı. Maliyyə dəstəyi tədbirləri Azərbaycanın beş milyona yaxın vətəndaşını əhatə etdi.

Pandemiya dövründə Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial dəstək aksiyası da aztəminatlı vətəndaşların problemlərinin həlli baxımından əhəmiyyətli oldu. "Biz birlikdə güclüyük" şüarı ilə həyata keçirilən aksiya çərçivəsində respublika üzrə 100 minədək aztəminatlı ailəyə ərzaq yardımları paylanıldı. Bu yardımlar davam etdirilir.

## Azərbaycan qlobal mübarizə işinə sanballı töhfələr verir

Pandemiya dövründə ölkəmiz tək iqtisadi, sosial sahədə deyil, beynəlxalq arenada da özünü güclü dövlət kimi göstərdi. Azərbaycan Prezidenti bütün dünyanı bürüyən COVID-19 infeksiyasına qarşı mübarizədə liderlik təşəbbüslərini öz üzərinə götürərək adını dünya tarixinə yazdırmağı bacardı. Məhz dövlət başçısının təşəbbüsü ilə Türk Şurasının və Qoşulmama Hərəkatının koronavirusla mübarizəyə həsr olunan Zirvə görüşləri keçirildi. Türk Şurası bu Zirvə görüşü ilə həm də COVID-19 pandemiyasına həsr olunmuş Sammit keçirən ilk beynəlxalq təşkilat kimi tarixə düşdü. Qoşulmama Hərəkatının Zirvə görüşündə isə ölkə rəhbəri BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü irəli sürdü.

Nəticədə dekabrın 3-4-də Azərbaycan Prezidentinin təşəbbüsü, 70-dən çox dövlət və hökumət başçısının iştirakı ilə BMT Baş Assambleyasının koronavirus pandemiyasına həsr olunmuş 31-ci xüsusi sessiyasının keçirilməsi ölkəmizin bu bəşəri bəlaya qarşı səylərin birləşdirilməsində maraqlı olduğunu, habelə pandemiyaya qarşı qlobal mübarizə işinə sanballı töhfələr verdiyini bir daha təsdiqlədi.

Beləliklə, dünyanın koronavirus pandemiyasından ciddi ziyan çəkdiyi, hətta inkişaf etmiş ölkələrin belə bu qlobal bəladan sarsıldığı bir zamanda Azərbaycan pandemiyaya qarşı mübarizədə nümunəvi model ortaya qoydu.

## Əsas şərt müsbət dinamikanı qoruyub saxlamaqdır

Azərbaycanda virusla mübarizə hələ də qətiyyətlə davam etdirilir. Qlobal böhrandan minimum itkilərlə çıxmaq üçün bütün qüvvələr COVID-19-a qarşı səfərbər edilib. Mütəmadi olaraq epidemioloji vəziyyət dəyərləndirilir, uyğun addımlar atılır. Artıq respublikamızda görülən kompleks tədbirlər sayəsində son günlər koronavirusa yoluxma sayında müsbət tendensiya müşahidə olunur. Xəstəlikdən sağalanların sayı isə gündəlik yoluxanların sayını üstələyir. İnfeksiyaya gündəlik yoluxma halları da xeyli aşağı düşüb. Bu da məhdudiyyətlərin tətbiqinin, karantin rejiminin sərtləşdirilməsinin düzgün qərar olduğunu təsdiqləyir.

Hazırda əsas şərt müsbət dinamikanı qoruyub saxlamaqdır. Bunun üçün də arxayınlaşmamaq, ehtiyatı əldən verməmək, tədbirli davranmaq lazımdır. Cüzi laqeydlik, məsuliyyətsizlik yoluxma sayının yenidən artmasına səbəb ola bilər. Ona görə də mübarizəni sonacan aparmalı, xüsusi karantin rejiminin qaydalarına ciddi əməl etməliyik.

Pandemiyanın ilk günlərindən hazırkı dövrə qədər dövlət tərəfindən bütün lazımi addımlar atılıb. COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması ilə əlaqədar görülən bütün işlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədini daşıyıb.

Bu gün Azərbaycan dövləti üçün ən prioritet məsələ vətəndaşlarının koronavirus infeksiyasından qorunmasıdır. Dövlət tərəfindən qəbul edilən bütün qərarların arxasında məhz əhalinin sağlamlığı, rifahı, təhlükəsizliyinin təmini dayanır.

Ölkəmiz qlobal təhlükənin öz əhalisinə təsirini mümkün qədər minimuma endirmək üçün ən səmərəli tədbirlər həyata keçirir. Vətəndaşlar da öz növbəsində bu tədbirlərə dəstək məqsədilə karantin qaydalarına riayət etməlidir. Ailəsini, yaxınlarını düşünərək maksimal dərəcədə anlayışlı olmalı, qoyulan tələblərə, verilən tövsiyələrə etinasız yanaşmamalı, bəsit gigiyenik qaydalara riayət etməli, maska taxmalı, sosial məsafəni saxlamalı, ehtiyac olmadıqda evdən çıxmamalıdır. Yalnız bu zaman biz virusa birgə qalib gələ bilərik.

***Xəyalə MURADLI, "Azərbaycan"***





**“Ömrümün yarıdan çoxunu hərb sənətinə, Silahlı Qüvvələrdə xidmətə sərf etmişəm. Öz ixtisasım üzrə yüksək vəzifəyə qədər yüksəlmişəm. Dövlətimiz tərəfindən 9 medalla təltif olunmuşam. Əvvəllər müəyyən tədbirlərdə hərbi formamın sol yaxasına bu medalları taxanda ürəyim sıxılır, özümü pis hiss edirdim. Torpaqlarımız erməni işğalında qaldığı müddətdə o medalları sinəmdə gəzdirməyi özümə layiq bilmirdim. Sanki utanır, xəcalət çəkirdim...**

# Üç savaşın iştirakçısı

## *Polkovnik-leytenant Daşqın Abbasov:*

## “Hər zaman bir şüarla yaşamışam - öncə vətən, dövlət, sonra ailə, şəxsi həyat”

Bu gün isə həmin medalları və polkovnik-leytenant paqonunu qürurla, fəxrlə daşıyıram. Çünki illər sonra düşməndən qisasımızı aldıq, torpaqlarımızı işğaldan azad etdik, şəhidlərimizin ruhunu sevindirdik. Artıq biz məğlub yox, qalib xalqın, dövlətin, Ordunun nümayəndələriyik...”

### Qisasımızı aldıq, ondan sonra uşağı dəfn etdik



Birinci Qarabağ müharibəsinin, Aprel döyüşləri və İkinci Qarabağ savaşının iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant Daşqın Abbasov bu fikirlərlə başlayır söhbətinə...

Həyat yolu da, döyüş yolu da Zəngilandan başlayıb. 1974-cü ildə rayonun Qıraq Müşlan kəndində dünyaya gəlib. 1981-ci ildə Zəngilan şəhər 1 nömrəli orta məktəbinə gedib. O zamanlar məktəblər arasında keçirilən “Üfüqdə parıltı” adlı hərbi yarışlarda komandir təyin olunmağı onun gələcək taleyini də müəyyənləşdirir. 1988-ci ildə Cəmşid Naxçıvanski adına hərbi məktəbə daxil olur. 1991-ci ildə oranı bitirib Varonej Ali Hərbi Aviasiya Mühəndisləri Məktəbində avtomobil nəqliyyatı ixtisası üzrə ali təhsil alır. Lakin taqım komandirləri, erməni əsilli kapitan Varfolomeyovun “Qarabağ bizimdir, Qarabağı sizdən alacağıq”, - deyib azərbaycanlı tələbələri ələ salaraq qıcıqlandırması böyük mübahisə ilə nəticələnir. Söhbət məktəbin rəisi general İvanova çatır. Mübahisənin səbəbini bilən general əsəbiləşərək, bütün şəxsi heyətin qarşısında həmin erməni kapitanın paqonlarını söküb atır. Ancaq bu da Daşqın Abbasovu fikrindən döndərmir. Həmin ali məktəbdə oxumaqdan imtina edərək, təhsilini 1992-ci ilin fevralından Bakı Ali Ümumqoşun Komandirləri Məktəbində davam etdirir. Bu o zamanlardı ki, Qarabağda vəziyyət getdikcə daha da gərginləşirdi. Zəngilan tez-tez erməni yaraqlılarının hücumuna məruz qalırdı. Rayonda bu ərəfədə ərazi özünümüdafiə taboru yaradılır. 18 yaşlı Daşqın Abbasov da taborun tərkibində döyüşmək üçün təhsilini yarımçıq dayandırıb doğma yurdu Zəngilana gedir. Könüllü olaraq rayonun müdafiəsi uğrunda gedən döyüşlərə qatılaraq şücaət göstərir.

- Həmin ilin avqust ayında ermənilər nənəmgilin Rəzdərə kəndindəki evini vurub dağıtdılar. “Azərbaycan Bayrağı” ordenli Baloğlan Süleymanovun evi nənəmgilə yaxın idi. Mərminin biri həyətlərinə düşdü. 9 yaşlı oğlu Sadiq həyətdə şəhid oldu. Baloğlan and içdi ki, oğlumun qisasını almasam, onun qəbrinin üstünə getməyəcəm. Axşam Baloğlan qardaşı Elman, silahdaşları Elşən və Pənahla birlikdə silahlanıb, ermənilərdən qisas almağa getdilər. Mənə digər döyüşçülərə nisbətən gənc olduğum üçün arxada qalmağı tapşırdılar və lazım olsa, kömək üçün çağıracaqlarını dedilər. Ancaq biz gözləmədik, bir neçə yoldaşla onların arxalarınca sol tərəfdən atəş dəstəyi verdik. Həmin əməliyyat nəticəsində düşmənin bir postu içindəki əsgərlərlə birlikdə məhv edildi. Uşağın ölümünə səbəb olan tank vuruldu. Qisasımızı aldıqdan sonra uşağı dəfn etdik.

### Mayor Elnur Əliyev özünü qumbaranın üstünə atıb əsgərləri xilas etdi

Daşqın Abbasov Zəngilan işğal olunana qədər ata-baba yurdunun müdafiəsində iştirak edib. Silahdaşları ilə birlikdə mənfur erməni daşnaklarının bu torpağa ayaq basmasına imkan verməyib. Uzun müddət təcavüzkar ermənilərə qarşı müqavimət göstərib, rayonun müdafiəsində fədakarlıqla dayanıb. Lakin 1993-cü il avqustun 23-də Füzuli və Cəbrayıl, bir həftə sonra isə Qubadlı düşmənin əlinə keçdikdən sonra Zəngilan təklənərək erməni mühasirəsinə düşür. İki aya qədər düşmən mühasirəsində qalan rayon faciəli günlər yaşayır. Oktyabrın 23-dən başlayaraq döyüşlər daha da şiddətlənir. Zəngilan alayı təpədən-dırnağacan silahlanmış düşmən qarşısında bacardığı qədər duruş gətirir. Oktyabrın 29-da isə kömək ala bilməyən Zəngilan rayonu erməni qəsbkarları tərəfindən işğal edilir. Bütün zəngilanlılar kimi, Daşqın Abbasovun da ailəsi rayonu tərk edərək məcburi köçkün həyatı yaşayır.

Bundan sonra gənc hərbçi yarımçıq qalan ali təhsilini davam etdirmək qərarına gəlir. 1996-cı ildə Bakı Ali Ümumqoşun Komandirlər Məktəbini (Hazırda Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi) bitirir. 13 il Naxçıvan Muxtar Respublikasında bölük komandiri, maddi-texniki təminat üzrə komandir müavini, avtomobil xidməti rəisi vəzifələrində qulluq edir. 2009-cu ildə Murovdağda briqadanın avtomobil xidməti rəisi olur. 2011-ci ildə xidmətini Bakıda davam etdirir. 2013-cü ildə Şəmkirdə, 2014-cü ildə Beyləqan korpusunda avtomobil xidməti rəisi kimi çalışır. 2016-cı ildə elə bu korpusun tərkibində Aprel döyüşlərində iştirak edir.



- Döyüşdə bizim işimiz kolonu, şəxsi heyəti vaxtında döyüş mövqelərinə çatdırmaq, vurulmuş və zədələnmiş texnikanı döyüş mövqelərindən çıxarıb, təmir edib yenidən döyüşə qaytarmaq, qənimət kimi götürülümüş avtomobil texnikalarını, silah-sursat, yaralı və şəhidləri döyüş mövqelərindən çıxartmaqdır. Təxminən 10 gün gecə-gündüz sürücülərlə birlikdə bu tapşırıqları yerinə yetirdik, texnikaları apardıq. Aprelin 2-ə keçən gecə saat 4-də ermənilər atəş açmağa başladılar. Komandir Mais Bərxudarov tapşırıq verdi ki, Lələtəpə götürülməlidir. Beləliklə, təyin olunmuş istiqamətlər üzrə qruplar hərəkətə keçdi. Saat 5-də məruzə etdilər ki, Lələtəpə azad olundu. Bir saat keçmədi ki, həmin yerdə bayrağımız dalğalandı. Aprel döyüşlərində hamı ön cəbhədə komandirin yanında idi. Döyüşlər zamanı ermənilər bizim üzərimizə qumbara atırdılar. Mayor Elnur Əliyev sinəsini qumbaranın qarşısına sipər edib şəxsi heyəti ölümdən qurtardı, özü isə şəhid oldu. Mais Bərxudarov özü onu çiynində döyüş bölgəsindən çıxartdı... Həmin döyüşlərdə ermənilər artilleriyadan güclü atəş açırdılar. Dəfələrlə ölümlə qarşılaşdığımız anlar oldu. Sağ qalmağımız Allahın möcüzəsiydi...

### Partlayış səsindən bir qulağım tutulub

Aprel döyüşlərindən sonra 2017-ci ilin yanvarından Daşqın Abbasov Müdafiə Nazirliyində avtomobil xidmətində baş zabit vəzifəsində xidmətə başlayır. 2018-ci ildə öz istəyi ilə ordu sıralarından tərxis olunur. İkinci Qarabağ savaşı başlayan gün isə könüllü olaraq yenidən döyüşlərə qatılır.

- Həyatımda iki dəfə ürəkdən ağlamışam. Bir Elnur Əliyev, bir də Polad Həşimovla İlqar Mirzəyev şəhid olanda... Onların qisasını almaq üçün alışıb-yanırdım. Hər zaman bir şüarla yaşamışam - öncə vətən, dövlət, sonra ailə, şəxsi həyat... İllərdir torpaqlarımız uğrunda savaşın başlanması arzusuyla yaşayırdım. Doğma yurdlarımızın azad olunması üçün Allaha dua edirdim. Torpaqlarımızı başqa yolla ermənilərdən təmizləmək mümkün deyildi. Sentyabrın 27-si səhər 8-in yarısı zəng gəldi ki, döyüş başladı. Hər şeyimi yığdım maşınıma, bir dostumu da götürüb getdik Beyləqana, xidmət etdiyim II korpusa. Elə birinci gecə göstəriş verdilər ki, tankları döyüş mövqelərinə aparın. Kolonu döyüş mövqeyinə aparanda gördük başımızın üstündən PUA-lar uçur. Yanımdakı yoldaşa dedim bura təhlükəlidi, vuracaqlar, tankları burdan çıxarmaq lazımdı. Xəritəyə baxdıq ki, bizə deyilən yerə - Burğa Dərəsinə gəlmişik. İşimizi bitirib ordan aralanıb asfalt yola çatanda həmin yeri ermənilər vurdular. 3 hərbçi yaralandı, amma tankları vura bilmədilər...

Bir dəfə ermənilərin atdığı iki mərmi yanımıza düşdü. İkinci mərminin zərbəsi bizi havaya qaldırıb yerə atdı. Bir anlıq düşündüm ki, görəsən ölmüşəm, ya sağam... Tez durub yoldaşım Babəki axtardım, gördüm ki, sağdır. O partlayış səsindən bir qulağım tutuldu, indiyə qədər də açılmayıb.

### Ermənilər maşınların hamısını minalamışdılar...

D.Abbasov deyir ki, döyüşlər davam edən 44 gün ərzində dəfələrlə ölümlə üz-üzə gəldiyi anlar olub. Amma gözəgörünməz bir əl daim onu qoruyub. Görünür, şəhidlik zirvəsinə ucalmaq qismətinə yazılmayıbmış...



- Oktyabrın 5-i Cəbrayılın Şükürbəyli kəndi yaxınlığında ermənilərə məxsus hərbi hissədən texnikaları təcili çıxarmaq tapşırığı verildi. Bu işə aid olan qrupu götürüb həmin mövqeyə getdik. Gördük ermənilər maşınları, topları və digər silah-sursatları qoyub qaçıblar. Elə bu vaxt ermənilər bizim olduğumuz yeri vurmağa başladılar. Sağ olsun, xüsusi təyinatlılarımız həm bizi çətin vəziyyətdən çıxartdılar, həm də ermənilərin qoyub qaçdıqları texnikaları götürməyimizə kömək etdilər. Oradan qayıdandan sonra göstəriş gəldi ki, Cəbrayıl istiqamətində bizimkilər erməni kolonunu vurub, yol bağlanıb. O yolu açmaq lazımdı ki, qoşunlarımız keçə bilsin. 2 qrupla getdik. Axşama kimi artilleriya atəşi altında yolu təmizlədik, açdıq, texnikaları çıxartdıq. Sonra “Cəbrayıl dairəsi” deyilən yerə getdik. Orada polkovnik Şükür Həmidovla görüşdük. Dedim, sən də, komandir də Qubadlıdansız deyə istiqaməti bu səmtə salmısız. İmkan verin gedək Zəngilanı götürək, ordan Qubadlıya gedərik. Dedi, Daşqın, narahat olma, biz burdan Qubadlıya girərik, siz də ordan Zəngilana. Heyif ki, doğma yurdu uğrunda gedən döyüşlər zamanı şəhid oldu.

Xüsusi qeyd etmək istəyirəm ki, ikinci korpusdan Şükür Həmidov, eləcə də general-leytenant Kərim Vəliyev, general-mayor Mais Bərxudarov, polkovnik Firudin Əzizov, polkovnik Vilayət Quliyev, polkovnik Nizami müəllim döyüşlər başladığı andan ön xətdə olublar, şəxsi heyəti arxalarınca aparıblar.

Döyüşçümüz xatırlayır ki, Füzulidə də təhlükəli halla rastlaşıblar. Şəhər işğaldan azad olunmazdan əvvəl onlara Hadrut istiqamətinə gedib, yolları təmizləmək əmri verilib. Deyilən əraziyə çatanda ermənilərin maşınları ilə yanaşı, xeyli meyitlərinin də orda toplandığını görürlər. Bu, onlara şübhəli gəlir. Odur ki, mühəndis istehkam qrupuyla əlaqə saxlayıb əraziyə minaaxtaranlar göndərməsini istəyirlər. Minaaxtaranlar gələndən sonra məlum olur ki, şübhələnməkdə haqlı imişlər. Belə ki, ermənilər maşınların hamısını minalayıblar. Minaları təmizlədikdən sonra texnikaları götürüb toplama məntəqəsinə gətirirlər.

### Yüzlərlə erməninin arasından sağ çıxmaq şansımız yox idi

Daşqın Abbasov Şuşanın işğaldan azad olunması ilə bağlı maraqlı məqamı da danışır.

- Noyabrın 4-də bildik ki, bizimkilər Şuşaya girməlidirlər. Kəşfiyyat qrupu və xüsusi təyinatlılarımız getmişdi, amma onlara dəstək vermək üçün maşınlar, texnikalar, artilleriya irəliləməliydi. Bunun üçün də yeni yol açılmalıydı. Azıx kəndini çıxandan sonra meşəlik başlayır. Ordan indiyə qədər yol keçməyib. Göstəriş olmuşdu ki, yol açılsın. Mühəndis briqadasının komandiri Ceyhun Bağırov komandası ilə birlikdə əsl qəhrəmanlıq göstərib gecədən səhərə qədər meşənin içi ilə yol düzəltdilər. O yoldan lazımi döyüş texnikalarını keçirdik. Yolun hər iki tərəfi sıldırım idi, iki maşın yan-yana keçə bilməzdi. Maşın xarab olurdusa, çıxarmaq mümkün deyildi. Xüsusi təyinatlılarımız sıldırım qayaları kanatla Şuşaya qalxdılar. Dövlət başçısına məruzə edib bayrağımızı sancdılar. Noyabrın 8-də Ali Baş Komandan şad xəbəri xalqa elan etdi.

Noyabrın 10-da Müdafiə Nazirliyinin əməkdaşı Vüsal Hüseynov, mən və sürücümüz Hüseynlə “Niva”ya minib həmin təzə yolla Şuşaya istiqamət aldıq. O yolu çıxandan sonra Daşaltını, qayaları görsək də, yolun dəqiq istiqamətini bilmirdik. Bir az gedəndən sonra yolun ortasına dəmir maneə qoyulduğunu gördük, şübhələndik, amma dayanmadıq. Ancaq sən demə, yolu səhv salmışıq, Xankəndi istiqamətinə gedirik. Bir az sonra başa düşdük ki, artıq ermənilərin içindəyik. Qabaqda yüzlərlə erməni toplanmışdı, texnikaları yığılmışdı. Bizə necə baxırlar, ilahi?! Qabaqdan bir maşın da gəlirdi. Sürücüyə dedim o maşına çatmamış geri dön, ermənilərin də yanında saxlama, yanlarından keç. Hamımız, silahlarımızı döyüşə hazır vəziyyətə gətirib bir-birimizlə halallaşdıq. Çünki yüzlərlə erməninin əhatəsindən sağ çıxmaq şansımız demək olar ki, yox idi. Biri əl edib maşını saxlatdırsaydı, atışma başlayacaqdı. Hamımız yəqin ki, şəhid olacaqdıq. Amma qəribədir, bizi nə saxladılar, nə də əl etdilər. Elə bil gözləri yumulmuşdu. Allahın möcüzəsi sayəsində oradan salamat çıxa bildik. Elə gəldiyimiz yolla da geri qayıtdıq. Həmin gün Şuşa məscidində şükran namazı qıldıq. Vüsal Hüseynov atasının əhdini yerinə yetirib onun verdiyi bayrağı Şuşa qalasından asdı.

### Zəngilan o qədər tanınmaz hala düşmüşdü ki, kəndimizin yolunu tapa bilmədim

Həyatının ən xoşbəxt, ən unudulmaz, eyni zamanda ən kədərli günü isə 27 ildən sonra doğma yurdu Zəngilana getdiyi gün olub. Daşqın Abbasov işğaldan azad olunandan sonra doğma rayonuna ayaq basan ilk zəngilanlıdır. Dünyaya göz açdığı Qıraq Müşlan kəndinə ilk bayrağı sancan da elə o olub...

- Rayona girəndə xeyli sarsıntı keçirdim. Mənə elə gəldi ki, Zəngilan qapqara qaralıb, balacalaşıb, yığılıb, büzüşüb... Sanki küsüb bizdən. Özüm-özümdən utandım, xəcalət çəkdim. Elə bildim yoldaşlarım da fikirləşir ki, gör, torpaq buna necə küskün baxır. Elə bir hala düşdüm ki, sözlə ifadə etmək çətindir. Rayon o qədər tanınmaz hala düşmüşdü ki, kəndimizin yolunu tapa bilmədim. “Kruqda” düşüb torpağı çoxlu öpdüm... 27 ildir bu günün həsrətilə yaşayırdım...

Sonra prokurorluğun binasının qarşısına qoyulmuş erməni büstünün üzünü daşla tanınmaz hala saldım. Şəhərdəki evimizi sökmüşdülər, izi-tozu qalmamışdı. Amma Müşlandakı evimizi tapdım. Kəndimizə girən ilk azərbaycanlı olaraq ora bayraq taxdım və Allaha şükür etdim ki, ölmədən doğulduğum torpağı yenidən görməyi mənə qismət elədi.

Zabitimizin bundan sonra ən böyük arzusu isə Zəngilanda ata ocağını yenidən qurub, orada yaşamaq, həyatını doğma yurda həsr etmək və Zəngilanın mərkəzində şəhid və qazilərimizin şərəfinə xatirə abidəsi ucaltmaqdır. Deyir, nə qədər ki, sağam, qoymayacam gələcək nəsillər ermənilərin başımıza açdıqları oyunları, faciələri unutsunlar...

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

# Qarabağı dünyanın ən gözəl guşələrindən birinə çevirəcəyik

*Əvvəli 1-ci səh.*

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) mütəxəssisləri belə hesab edirlər ki, müharibədən sonrakı bərpa prosesi qüsursuz işlənilmiş kompleks mexanizmlərin tətbiqini və ilk növbədə minimum yaşayış səviyyəsinin təminatını nəzərdə tutan tədbirləri əhatə etməlidir. Bura ərazilərin minalardan təmizlənməsi, elektrik enerjisinin təminatı, kritik yol xətlərinin bərpası, içməli su, sanitar qovşaqlarının və irriqasiya sistemlərinin işə salınması, yaşayış sahələrinin bərpası və s. aiddir. Sözügedən tədbirlər ardıcıllıqla yerinə yetirildikcə minimum yaşayış səviyyəsinin təminatı sosial-iqtisadi inkişafın daha sürətlə və geniş miqyasda inkişafına təkan verəcək, əhalinin adaptasiyası sürətlənəcək. Onu da qeyd edək ki, müvafiq dövlət qurumlarında bu məsələlər geniş müzakirə edilir, KİV-də anons tipli məlumatlar dərc olunur.

Bütün bu proseslər şəxsən dövlət başçısının nəzarətindədir. Prezident İlham Əliyevin təklifi ilə ilk olaraq bərpa işlərinə qardaş Türkiyənin və dost İtaliyanın cəlb edilməsi belə qənaətə gəlməyə imkan verir ki, işlərin ən yüksək səviyyədə aparılması nəzərdə tutulur. Məqsəd Qarabağı qısa müddət ərzində dünyanın ən gözəl güşələrindən birinə çevirməkdir.

İİTKM-nin təqdim etdiyi araşdırmada Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonalarında gəlir gətirən sahələrin inkişafına diqqət yetirilir, ərazilərin bərpasında iştirak etmək niyyətində olan maraqlı tərəflərin mandatlarına uyğun maliyyələrin qoyulması və cəlb edilməsi prioritet sayılır.

Mərkəzin təhlilçisi Ayhan Satıcı Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonalarının inkişaf potensialının yüksək olduğunu, Zəngilan, Kəlbəcər, Qubadlı, Cəbrayıl, Xocalı, Laçın, Tərtər, Füzuli rayonlarında arıçılıq və maldarlığın, Cəbrayıl və Kəlbəcər rayonlarında balıqçılığın inkişaf imkanlarını qeyd edir. Azad edilmiş ərazilərdə, həmçinin ipəkçiliyin, taxılçılığın inkişafı, emal sahələrinin yaradılması, ət-süd məhsullarının istehsalı üçün geniş imkanlar mövcuddur.

Bu sırada Kəlbəcər və Zəngilan rayonlarında qızıl, mis, gümüş, civə və xromit ehtiyatlarını, Cəbrayıl rayonunda yerləşən “Yəşəm” və “Xalsedon” yataqlarını, həmçinin Dağlıq Qarabağın füsunkar mənzərələrinin turizmin inkişafı üçün əvəzsiz olduğunu da mütləq qeyd etmək lazımdır. Üstəlik, yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonalarının yüksək enerji potensialını, “Xudafərin”, “Qız Qalası” su elektrik stansiyaları, “Tərtər” SES mütləq nəzərə alınmalıdır. Bunlardan əlavə, Kəlbəcər və Laçın rayonlarındakı külək enerjisi potensialını, geotermal enerji resurslarını da diqqətdən kənarda qoymaq olmaz.

Ayhan Satıcı beynəlxalq təcrübəyə istinadən yazır ki, risklərin hesablanması sənaye və enerji sahələrinə qoyulan birbaşa xarici investisiyalarda öhdəsindən gəlinən təhlükə kimi nəzərə alınır. Bu səbəbdən bir çox beynəlxalq şirkətlər post-konflikt dövründə sənaye və enerji sahələrinə investisiya yatırımlarına müsbət baxırlar. Diaspor investisiya qoyuluşu kifayət qədər çətin olsa da, ətraflı məlumatların və perspektiv iqtisadi analizlərin təqdimatı investorları daha çox cəlb etmək gücünə qadirdir. Bu baxımdan beynəlxalq təcrübədən də faydalanmaq mümkündür.

Çilidə yaranmış Çili Fondu diaspor investisiyası cəlb edərək innovativ aqrobiznes startaplarına dəstək verir. Ekvadorda olan “El Cucayo” fondu miqrant biznes sahibi ekvadorluların ölkədə individual biznes, yaxud korporasiya yaradılmasına və inkişafına dəstək verir. 25-50 faiz sərmayə kapital mükafatı və özünü doğrultmuş bizneslərə 500-50.000 dollar ətrafında maliyyələşmə təklif edirlər.

Digər sərmayə qoyuluşlarının münaqişədən sonrakı dövr ərazilərdə texnologiya sahəsinə cəlb edilməsini də nəzərdən keçrmək mümkündür. Bu sərmayələri vençur kapital, yaxud kraudfandinq yolu ilə artırmaq mümkündür. İlkin səviyyədə böyük həcmdə sərmayə qoyuluşu çətin olduğundan kiçik və orta biznes səviyyəsində sərmayələrin cəlb edilməsi sonrakı dövrdə böyük investisiya qoyuluşlarına zəmin yaradacaq. Yeri gəlmişkən qeyd edək ki, məhz bunun nəticəsində Tayvan və Yaponiya texnologiya sahəsində vençur kapital qoyuluşlarında özlərini doğruldublar.

Ayhan Satıcı yekun olaraq belə yazır: “Postkonflikt dövründə sərmayə qoyuluşları üçün sahələr detallı araşdırılmalı və mərhələli prioritetləşdirilməlidir. Vətəndaşların ilkin yaşayış səviyyəsini təmin etdikdən sonra onların köçürülməsinə yönələn prosesdə ilkin olaraq sosial və iqtisadi inkişafa dayanan sahələrə diqqət yetirilməlidir. Əlavə olaraq uzun müddətdə dayanıqlı iqtisadi inkişaf modeli yaradılmalı və sərmayə qoyuluşlarında davamlı gəlirlər əldə etmək üçün strateji sahələr seçilməlidir. Son olaraq, Yuxarı Qarabağ və Kəlbəcər-Laçın iqtisadi zonalarının potensiallarından səmərəli istifadə olunmalıdır”.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Heç nə unudulmur, həç nə yaddan çıxmır

## Xocalı qətliamı filmə çevrilir



**Xocalıda ermənilərin azərbaycanlılara qarşı soyqırımından bəhs edən “Qarabağda son gecə” filminin çəkilişi üçün beş il davam edən hazırlıqlar başa çatıb.**

Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki Xocalı şəhərində azərbaycanlı mülki şəxslərin erməni silahlı quldur dəstələri tərəfindən amansızcasına qətlə yetirilmələri qardaş Türkiyədə özünün film həyatını yaşamağa başlayır.

Tarixi dram janrında çəkilişə hazır olan, Xocalı qırğınından bəhs edən filmin baş rejissoru tanınmış kino-rejissor Nihat Alandurdur. O deyir ki, bütün hazırlıqları son nəsil çəkiliş və texniki avadanlıqlarla tamamladıq: “XX əsrin sonunda Xocalıda ermənilər tərəfindən törədilən soyqırımı bu günə qədər insanlığa qarşı törədilmiş ən böyük qətllərdən biridir. Xocalı fəlakətinin dünyaya məlum Xatın, Lidittse, Oradur, Holokost, My Lai, Ruanda və Srebrenitsa qırğınları kimi, tarixin yaddaşından silinməyəcək dəhşətlərdən heç bir fərqi yoxdur. Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ süni şəkildə ovalıq və dağlıq bölgələrə bölündü, Azərbaycan rəhbərliyi sonradan Qarabağın dağlıq hissələrinə köçmüş ermənilərə muxtariyyət statusu vermək məcburiyyətində qaldı. Üstəlik, bu muxtariyyət təcrübəsi tarixboyu Dağlıq Qarabağda məskunlaşmış Azərbaycan əhalisinin səsi nəzərə alınmadan və hüquqları ən kobud şəkildə pozularaq həyata keçirildi”.

Filmin ssenari müəllifi Zeynəb Naxçıvanlı, səhnələşdirəni ikinci ssenarist Kamran Tumay Yıldız, ikinci rejissoru Murat Vela Derman, bəstəkarı Türk dünyasının məşhur bəstəçilərindən sayılan Can Atilladır. Film üçün seçilən musiqilərin öz orjinallığı ilə diqqəti cəlb edəcəyinə tam əminlik yaradılıb. Diqqətlə seçilən türk kinosunun bir çox ustad aktyorunun yer aldığı filmin iki aparıcı aktyorunun seçimi Azərbaycanda keçiriləcək. Kamera arxasında, təbii şərait nəzərə alınaraq film üçün iki yüzə yaxın texniki qrup çalışır. Bunun üçün Ankaranın Haymana səmtində Xocalı qəsəbəsi inşa edilir.

Filmin ssenari müəllifi Zeynəb Naxçıvanlı heç bir millətin soyqırımı və insanlığa qarşı digər cinayətlərlə qarşılaşmamasını arzu edir: “Kinonun gücü ilə qırğınlara qarşı çıxmaq istədik. Filmin ssenarisi 2010-cu ildə Mübariz İbrahimovun erməni işğalçılarına təkbaşına cavabı və göstərdiyi qəhrəmanlıqdan, ən ali məqama ucalmasından - şəhid olması barədə dildə-ağızda gəzən həyat və döyüş hekayəsindən yaranıb. Burada əsasən Xocalı qətliamı zamanı körpə olan, valideynlərini itirən uşaqların acı taleyi, qırğın və soyqırımına aparan proseslər təsvir edilir”.

Filmdə anladılan hadisə bütün dünyanın xroniki problemlərindən biridir. Filmdə hər şey öz rəngində, yəni hadisələr kiçildilib-böyüdülmədən verilir ki, bu da əsl həqiqətin üzə çıxarılması deməkdir.

Baş rejissor fikrinə onu da əlavə edir ki, bu film bir türk olaraq bizim üçün də bir revanşdır. Erməni vandalizminə qarşı birgə mübarizədir: “Ən əsası isə filmdən əldə ediləcək gəlirin bir az da olsa öz töhfə kimi Xocalı soyqırımında həyatını itirən azərbaycanlı ailələrə bağışlanmasıdır...”

Baş rejissor çəkilişinə başlanan “Qarabağda son gecə”nin mədəniyyət filmləri siyahısında “Ölçülər siyahısı - həyat gözəl - pianist” kimi yerini alacağını da söylədi.

Çəkilişlər simvolik olaraq Xocalı qətliamının anım günündə (26 fevral 2021-ci il) başlayacaq və 18 oktyabr 2021-ci ildə (Azərbaycanın Müstəqillik Günü) başa çatdırılacaq. Filmin eyni vaxtda dünyanın hər yerindəki kinoteatrlarda nümayiş olunma tarixi 26 fevral 2022-ci ilədək planlaşdırılır.

“Human Rights Watch” Xocalı qətliamını Dağlıq Qarabağın işğalından bəri ən dəhşətli qətliam kimi xarakterizə, Azərbaycan Milli Məclisi isə 1994-cü ildə Xocalıdakı qətliamı soyqırımı elan edib. Xocalıda cəsədlər üzərində aparılan müayinələrdə bir çoxunun erməni vandalları tərəfindən yandırıldığı, gözlərinin oyulduğu, başlarının kəsildiyi görüldü. Hamilə qadınlara və uşaqlara hücum edildiyi məlum oldu ki, bütün bunlar da bəşəri cinayət deməkdir. Filmin çəkilişində əsas məqsəd baş vermiş hadisələrin bədii formada bəşəriyyətə təqdim edilməsidir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Tamaşaçılar ilə ünsiyyət sosial şəbəkə üzərindən gerçəkləşir

**Sumqayıt Dövlət Dram Teatrı COVID-19 pandemiyası ilə bağlı elan olunmuş karantin rejimi dövründən tamaşaçıları ilə ünsiyyəti sosial şəbəkə üzərindən gerçəkləşdirir.**

Artıq xeyli müddətdir ki, virtual repertuar planına uyğun kollektiv üzərinə düşən missiyanı yerinə yetirir. Yaradıcılıq prosesinin dayanmaması üçün rejissorlar məşqləri onlayn şəkildə aparır. Belə vəziyyətlərdə yaradıcı heyət daha çox kamera əsərlərinə, monotamaşalara üstünlük verir.





Teatrın baş rejissoru Xalq artisti Firudin Məhərrəmovun gənc yazar Ülviyyə Heydərovanın "Uşaqlıq" əsəri əsasında hazırladığı eyni adlı monotamaşanı istedadlı aktrisa İlahə Səfərova ifa edir. Tamaşa sirk artisti olan və sənətini ürəkdən sevən qadının bətnindəki körpəsi ilə xəyali söhbəti üzərində qurulub. Gərgin psixoloji məqamların fonunda gənc qadının çırpınışları, kritik seçim qarşısında qalışı İlahə Səfərovanın mükəmməl oyun tərzi ilə maraq doğurur.

Teatrın direktoru Əməkdar artist Mübariz Həmidov sənət ocaqlarının onlayn çıxışlarının müsbət rezonans doğurduğunu söyləyir. M.Həmidov bildirir ki, müasir texnoloji vasitələrin yaratdığı geniş imkanlardan bəhrələnərək biz də özümüzün virtual repertuar planını qurmuşuq. Sosial şəbəkələr üzərindən doğma tamaşaçılarımıza xidmət göstəririk. Repertuara daxil edilən monotamaşaların məşqlərinin davam etdirilməsini tapşıran rəhbərlik digər vacib məsələlərə də toxunub. Hazırda Vətən müharibəsində möhtəşəm qələbəmizə həsr edilən yeni tamaşaların məşqi aparılır. Tezliklə onlayn şəklində tamaşaçılara təqdim ediləcək belə tamaşalar öz yeni yanaşma metodu ilə əvvəlkilərdən seçiləcəkdir.

Onu da bildirək ki, teatr kollektivi karantin qaydalarına uyğun işləyir və yaradıcılıq yollarını yeni əsaslarla davam etdirirlər.

***Akif ƏLİYEV, "Azərbaycan"***




SOCAR
SOCAR PETROLEUM QSC

2020-ci il Azərbaycanın Zəfər ili, 2021-ci il isə düşmən tapdağından Ali Baş Komandan cənab İlham Əliyevin birbaşa rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri tərəfindən azad olunmuş Qarabağ torpaqlarında dirçəliş və quruculuq ili kimi tarixə düşəcək!

Xalqımızı Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, qüdrətli Azərbaycana davamlı inkişaf arzulayırıq




QARABAĞ AZƏRBAYCANDIR!


# Bir əli əkin-biçində, bir əli tətikdə olan tərtərlilər







Vətən müharibəsinin qaynar nöqtələrindən biri, bəlkə də birincisi Tərtər olub. 44 gün davam edən müharibənin elə günü olmayıb ki, rayon mərkəzinə, kəndlərə yüzlərlə raket, artilleriya mərmisi atılmasın, evlər, məktəblər, uşaq bağçaları, tibb müəssisələri düşmənin hədəfinə çevrilib dağıdılmasın, yerləyeksan edilməsin. Qarabağ savaşının başladığı ilk zamanlardan günümüzə qədər Tərtər qaynar qazana çevrilib.

Ordumuzun hərb tarixinə şanlı səhifələr kimi yazılan Aprel döyüşlərində də Tərtər fəal iştirak etmiş, gerçək qəhrəmanlıq nümunəsi göstərmişdir. Tərtərlilər bütün Qarabağ münaqişəsi dövründə mərdliklə döyüşmüş, sinələrini sipər edərək düşmənə bir qarış da olsun torpaq verməmişlər. Əksinə, nankor qonşuları, mənfur düşmənləri uzun illərdən bəri məskunlaşdıqları rayon ərazisindən qovub çıxarmışlar.

Ötən 30 ilə yaxın bir zaman kəsiyində, sözün həqiqi mənasında, Tərtər narahat və nigaran günlər yaşayıb. Bir əli əkində, biçində olsa da, bir əli tətikdə olub. Bu illər ərzində abadlıq, quruculuq işləri ilə davamlı şəkildə məşğul olub fəal vətəndaş mövqeyindən doğma yurdun hər qarışını gerçək cənnətə döndəriblər. Dövlətin qayğısından güc alaraq müasir və yaraşıqlı, Avropa şəhərləri ilə müqayisə edilə biləcək yeni bir şəhər yaradıblar. Bu illər ərzində rayonun kənd əməkçiləri bol kənd təsərrüfatı məhsulları istehsal edərək ölkə iqtisadiyyatının daha da möhkəmlənməsinə sanballı töhfələr veriblər. Doğma torpağa, halal zəhmətə qırılmaz tellərlə bağlı tərtərlilər əsl əmək fədakarlığı nümunəsi göstərərək ölkənin aqrar sektorunda qabaqcıl təcrübə məktəbi yaratmağa nail olublar.

Artıq iki aya yaxındı ki, bölgədə mərmi səsləri eşidilmir. Müzəffər Ali Baş Komandanın qətiyyəti və şanlı ordumuzun qəhrəmanlığı ilə Vətən müharibəsi parlaq qələbəmizlə başa çatmış, düşmən darmadağın edilmişdir. Əlbəttə, bu tarixi zəfər haqlı olaraq ölkəmizin hər bir vətəndaşında böyük qürur hissi doğurur. Ən böyük hakim olan zaman xalqımızın necə böyük qüdrətə malik olduğunu, tarixi qəhrəmanlıq ənənələrinə yenilməz sədaqətini bir daha təsdiq edib bütün dünyaya göstərdi ki, son dərəcə qonaqpərvər və tolerant olan Azərbaycan xalqı həm də xəyanəti bağışlamır. Dünya ona da şahid oldu ki, Azərbaycan xalqı öz qəhrəman ordusu ilə birləşib dəmir yumruğa çevrilə və onu düşmənin başında ildırım kimi çaxa bilər.

Hər günü, hər saatı bir qəhrəmanlıq səhifəsi olan Vətən müharibəsi artıq bizim üçün qürurverici şanlı tarixə çevrilmişdir. Qazandığımız ən böyük uğur odur ki, ərazi bütövlüyümüzü təmin etmişik. Əlbəttə, bu, böyük qurbanlar bahasına oldu. Hərəsi bir evin, bir ailənin ümid çırağı olan 3000-ə yaxın övladımız Qarabağ uğrunda döyüşlərdə canından keçib şəhid oldu, bütöv bir xalqın qürur və iftixar mənbəyinə çevrilib əbədiyyətə qovuşdu. Çox sayda oğullarımız savaşlarda yaralanıb qazi statusu qazandı, dövlətin və elin-obanın qayğı və ehtiram ünvanına çevrildi.

İndi müharibədən sonra yeni quruculuq və bərpa dövrü başlayıb. Prezident İlham Əliyevin "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə, sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbir haqqında" 6 noyabr 2020-ci il tarixli sərəncamında günümüzün təxirəsalınmaz vəzifələri prioritet olaraq göstərilir. Artıq bu istiqamətdə işlərə start verilmişdir.

Hazırda bu məqsədlə Tərtərdə 3 işçi qrup işləyir. Müəyyən edilmişdir ki, 44 gün davam edən Vətən müharibəsi zamanı bütövlükdə 40 yaşayış məntəqəsi üzrə 4586 evə ziyan dəymişdir. Evlərdən 240-ı tamamilə dağılmışdır. Ziyan dəyən evlərdən 2017-si çoxmərtəbəli yaşayış binalarındakı mənzillərdir. Bundan əlavə, 95 ticarət və ictimai-iaşə obyektinə, 39 sosial obyektə, 21 istehsal obyektinə, 24 inzibati binaya, 11 qəbiristanlığa və 146 yarımçıq tikiliyə ziyan dəymişdir.

Tərtərə atılan çoxsaylı raketlərdən biri də şəhərdə aprel şəhidi Nicat İskəndərovun ailəsinin yaşadığı evə düşmüşdür. İşçi qrupu mütəxəssisləri evə dəyən ziyanı müəyyənləşdirmişlər. Şəhid atası Bəhruz İsgəndərov:

- Oğlum Nicat Aprel döyüşlərində qəhrəmanlıqla döyüşüb şəhid olmuşdur. Oğul düşmən çəpəridir, deyiblər. Bu, həqiqətdir, dar gündə vətəni oğullar qorumalıdır. Nicat şərəfli bir ömür yaşadı. Bizə, ailəsinə həmişəlik qürur, başucalığı bəxş etdi. Noyabrda evimizə raket düşdü, isti yuvamız dağıldı. Buna qətiyyən pis olmadıq. Düşmənin namərdliyi göz qabağındadır. Müharibə edirsənsə, əsgərlə döyüş, daha mülki əhali ilə nə işin var. Biz hər zaman dövlətimizə güvənmişik, Prezidentimizə inanmışıq. Həmişə dövlətin, rayon rəhbərliyinin qayğısını hiss edirik. İnanırıq ki, düşmən raketinin dağıtdığı evimizi dövlət əvvəlkindən də yaxşı təmir edib bizə verəcək. Mən bütün tərtərlilərin fikrini ifadə edib demək istəyirəm ki, hamımızın bir vətəni var. Ona özümüz də, övladlarımız da, ev-eşiyimiz, mal-dövlətimiz də qurban olsun.

Cəbhədə döyüş parlaq zəfərlərimizlə başa çatıb. İndi Tərtər kəndlisi tarlaya, fermaya, işinə-gücünə nigaran getmir. Müharibənin doğurduğu faciələr ağrılı-acılı xatirələrə hopub yaddaşlara köçüb. Bu gün Tərtər kəndlisi ikiqat həvəslə çalışır. Cari il rayon üzrə 42056 ton taxıl, 12731 ton şəkər çuğunduru, 4837 ton günəbaxan tumu, 13211 ton meyvə və giləmeyvə, 2541 ton ət, 20949 ton süd, 1017 ton yun, 13 milyon ədəddən çox yumurta istehsal olunmuşdur. Pambıqçılıqda qabaqcıl təcrübə məktəbi yaratmağa nail olan Tərtər kəndlisi bu il çətin şəraitdə çalışsa da, optimal müddət pozulsa da, müəyyən itkilər olsa da, nəticə qənaətbəxşdir. İndiyədək 11475 ton pambıq istehsal olunmuşdur. Hər hektarın məhsuldarlığı hələlik 34,8 sentnerdir. Hələlik ona görə ki, yığım davam edir. Əkib-becərən və tətik tutan əlləriniz var olsun!

***Lazım QULİYEV, "Azərbaycan"***







ADY
Azərbaycan Dəmir Yolları QSC



Azərbaycan xalqını
31 Dekabr - Dünya Azərbaycanlılarının
Həmrəyliyi Günü və Qarabağın quruculuq ili
olacaq 2021-ci il münasibətilə təbrik edir,
əmin-amanlıq və ölkəmizə davamlı
inkişaf arzulayır

QARABAĞ AZƏRBAYCANDIR!

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

Azərbaycan xalqını




# Dövlət Sərhəd Xidməti qaçaqmalçılığa qarşı mübarizə tədbirlərini davam etdirir

Dövlət Sərhəd Xidməti (DSX) dəniz sərhədlərinin etibarlı mühafizəsi, Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub bölməsində rejim qaydalarına nəzarətin gücləndirilməsi və qaçaqmalçılığa qarşı mübarizə üzrə zəruri tədbirləri davam etdirməkdədir.



Dekabrın 29-da Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsi üzrə xidməti təşkil edən sərhəd gözətçi gəmisi tərəfindən Neftçala rayonunun Həsənabad kəndi istiqamətində iki üzmə vasitəsi müşahidə olunub. Tanınma üçün zəruri tədbirlər həyata keçirilərək hər birində iki nəfər heyət üzvü olan "Bayda" tipli üzmə vasitələri olmaları müəyyənləşdirilib. Sərhəd gözətçi gəmisinin "Dayan" komandasına tabe olmayan şəxslər üzmə vasitəsinin sürətini artıraraq ərazidən şərqə doğru uzaqlaşmağa cəhd edib, əlavə iki sərhəd gözətçi gəmisinin cəlb olunduğu axtarış-təqibetmə əməliyyatı nəticəsində baydalar sahil nəzarəti bölmələri ilə qarşılıqlı əlaqədə saxlanılıblar.

Qeyri-qanuni olaraq baydalarda rejim sularına çıxmış şəxslərin Neftçala şəhər sakinləri 1982-ci il təvəllüdlü İsayev Taleh Tahir oğlu, 1977-ci il təvəllüdlü İsayev Rahim Tahir oğlu, Neftçala rayonunun Bankə qəsəbəsinin sakinləri 1977-ci il təvəllüdlü Nağıyev Sulduz Ayaz oğlu və 1977-ci il təvəllüdlü Əliyev Xəyyam Bəxtiyar oğlu olmaları müəyyənləşdirilib.






Həmin gün sərhəd gözətçi gəmisi tərəfindən Neftçala rayonunun Şirvanlı kəndi istiqamətində sutkanın qaranlıq vaxtı kiçik həcmli üç üzmə vasitəsi aşkarlanıb. Sərhəd gözətçi gəmisinin "Dayan" komandasına tabe olmayaraq, sürəti artırmaqla cənub-şərqə doğru ərazidən uzaqlaşan üzmə vasitələri təqib edilib, hərəkət zamanı həmin üzmə vasitələrindən dənizə qutuya bənzər əşyaların atılması müşahidə olunub.

Qaranlıq hava şəraitində dənizə atılmış əşyaların axtarışı üçün digər sərhəd gözətçi gəmisi cəlb olunub, təqibi davam etdirilən kiçik həcmli üzmə vasitələri cənub-şərq istiqamətində Azərbaycan Respublikasının ərazi sularını tərk edərək müşahidədən itiblər. Naməlum əşyaların atıldığı dəniz sahəsinə baxış nəticəsində 60 qutu aşkarlanıb, qutuların içərisində 5916 blok, hər blokda 10 ədəd olmaqla 59160 ədəd müxtəlif növ siqaret olduğu müəyyənləşdirilib.

Bununla yanaşı, Xəzər dənizinin cənub istiqamətində İran İslam Respublikasından qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına narkotik vasitələrin keçirilməsinin qarşısı alınıb, dəniz istiqamətləndirici nişanına bağlanmış 1 ədəd selofan torbanın içərisində ümumi çəkisi 745 qram narkotik vasitəyə (515 qram marixuanaya, 230 qram heroinə) oxşar maddə aşkarlanaraq götürülüb.

Qeyd edilən bütün faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

*"Azərbaycan"*

# Paytaxtın kommunal xidmətləri üçün yeni texnikalar alınıb

**Dövlət başçısı İlham Əliyevin şəhər təsərrüfatı və kommunal xidmətlərinin daha da təkmilləşdirilməsi, bu istiqamətdə həyata keçirilən işlərin yeni səviyyəyə çatdırılması ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti qarşısında qoyduğu tapşırıqlar uğurla icra edilir.**




Bu işlər çərçivəsində paytaxt sakinlərinə göstərilən xidmətlərin səviyyəsinin daha da yüksəldilməsi məqsədilə Prezidentin ayırdığı maliyyə vəsaiti hesabına ötən il Bakı şəhər kommunat təsərrüfatı xidmətləri üçün müasir tələblərə tam cavab verən Almaniya istehsalı olan kommunal təyinatlı yeni avtonəqliyyat vasitələri və mexanizmlər alınıb və bu il də bu işlər davam etdirilir.

Ölkəmizin müharibə şəraitində olmasına və koronavirus pandemiyası ilə mübarizə tədbirərinin genişləndirilməsinə baxmayaraq, ümumilikdə bu il alınması nəzərdə tutulan xüsusi təyinatlı avtonəqliyyat vasitələrinin 16-sı noyabr ayında Bakıya gətirilib və onların istismarına başlanılıb. Dünən isə daha 10 ədəd kommunal təyinatlı avtotexnika Bakıya gətirilib.

Yeni texnikaların tətbiqi kommunal xidmətlərin mövcud avtoparkının yeniləşməsinə və əhaliyə göstərilən kommunal xidmətlərin səviyyəsinin daha da yüksəldilməsinə səbəb olacaqdır. Texnika sayının artırılması şəhərin müxtəlif rayonlarında məişət tullantılarının vaxtında daşınmasına və şəhərin ekoloji durumunun yaxşılaşdırılmasına müsbət təsir göstərəcəkdir.

Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamentinin avtonəqliyyat qarajında təşkil olunmuş təqdimat mərasimində yeni gətirilmiş xüsusi təyinatlı avtonəqliyyat vasitələri və mexanizmlər, onların texniki göstəriciləri barədə ətraflı məlumat verildi. Bildirildi ki, müxtəlif həcmli və təyinatlı bu texnikalar həm də Bakı şəhərində Böyük Britaniyanın Mott MacDonald şirkətinin iştirakı ilə həyata keçirilən bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsi layihəsinin paytaxtın digər rayonlarında da tətbiq edilməsi işlərində böyük kömək olacaqdır. Yeni, müasir texnikaların tətbiqi şəhərimizin sanitar təmizliyinin yaxşılaşmasına, ətraf mühitin və sağlamlığımızın qorunmasına, yeni ekoloji, sanitar mədəniyyətin formalaşmasına böyük təsir göstərərək, Bakı şəhərinin dünyanın ən gözəl şəhərlərindən biri olmasına yardımçı olacaqdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***



Günay Bank

2020-ci il Azərbaycan üçün Zəfər ili kimi tarixə yazıldı. Ali Baş Komandan cənab İlham Əliyev əfsanəvi bir sərkərdə olaraq müzəffər Ordumuzla 44 günlük Vətən müharibəsində Qarabağı işğaldan azad etdi. 2021-ci il isə Qarabağın dirçəliş ili kimi tarixə düşəcək. Qədəmləri uğurlu olsun!




QARABAĞ AZƏRBAYCANDIR!



GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü, Yeni il və Azərbaycanın ərazi bütövlüyünün təmin olunması münasibətilə təbrik edir

QARABAĞ AZƏRBAYCANDIR!


# FHN-in Vətən müharibəsində iştirak etmiş mülki işçilərindən bir neçəsi göstərdikləri şücaətə görə medallarla təltif olunublar













Əzəli Azərbaycan torpaqlarını 30 ilə yaxın müddətdə işğal altında saxlayan Ermənistan silahlı qüvvələrinin bu il sentyabrın 27-də törətdiyi genişmiqyaslı hərbi təxribata cavab olaraq Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə rəşadətli Azərbaycan Ordusu əks-hücum əməliyyatı həyata keçirib və qısa müddətdə düşməni sarsıdıcı məğlubiyyətə uğratdı.




Cəmi 44 gün davam edən Vətən müharibəsində Azərbaycan böyük Zəfər qazandı. Düşməni diz çökdürərək işğal altındakı torpaqlarımızı azad edən qəhrəman Azərbaycan Ordusu tarix yazdı və ölkəmizin ərazi bütövlüyünü təmin etdi.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, FHN-in hərbi qulluqçuları və xüsusi rütbəli əməkdaşları torpaqlarımızın işğaldan azad olunması ilə əlaqədar əməliyyatlar çərçivəsində fövqəladə halların, o cümlədən düşmənin mərmi və raket zərbələri nəticəsində yaranan dağıntı və yanğınların qarşısının alınması, nəticələrinin çevik aradan qaldırılması, zərərçəkmişlərin xilas edilməsi, təxliyəsi, döyüş bölgəsində yaşayan insanların gündəlik təminatı, habelə digər istiqamətlərdə xidməti vəzifələrini ləyaqətlə yerinə yetirməsi ilə yanaşı, həm də mülki vəzifələrdə olan işçilərindən də Azərbaycan Ordusunun tərkibində döyüşlərdə bilavasitə iştirak edərək şərəfli döyüş yolu keçənlər olub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə həmin əməkdaşlar sırasından Vətən müharibəsində göstərdikləri şücaətə görə Cəfərov Sadiq Əliağa oğlu "Cəbrayılın azad olunmasına görə", Sadıqov Nail Novruz oğlu "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə", Ağayev Fəxri Ağarza oğlu "Suqovuşanın azad olunmasına görə" və Vəliyev Yasin Fəyaz oğlu "Ağdamın azad olunmasına görə" medalları ilə təltif ediliblər.

Qeyd edək ki, mənfur Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsindən kənarda yerləşən yaşayış məntəqələrimizi intensiv mərmi və raket atəşlərinə məruz qoyması nəticəsində xidməti vəzifələrini yerinə yetirərkən nazirliyin əməkdaşı Şəfiyev Rəşad Vaqif oğlu şəhid olub.

Vətən uğrunda canını fəda etmiş bütün şəhidlərimizə Allahdan rəhmət diləyir, yaralıların tezliklə sağalmasını arzu edirik. Qarabağ Azərbaycandır!


Coca-Cola
şirkəti
Azərbaycan xalqını

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və 2021-ci ilin gəlişi münasibətilə təbrik edir


# Müharibə və hərbi xidmət vəzifələrini yerinə yetirməklə əlaqədar əlilliyi olan 100-dək şəxsə avtomobil verilib

Prezident İlham Əliyevin uğurlu sosial siyasəti müharibə, hərbi xidmət vəzifələrini yerinə yetirməklə, habelə Çernobıl AES-də hərbi xidmətlə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsi, o cümlədən onların avtomobillə təminatı tədbirlərinin də ildən-ilə uğurla davam etdirilməsinə imkan verib.



AZƏRTAC xəbər verir ki, bunu əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov həmin kateqoriyalardan olan vətəndaşlara nazirlik tərəfindən 96 avtomobilin təqdim edilməsi tədbirində vurğulayıb.

Nazir müavini bildirib ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun torpaqlarımızı işğaldan azad etməsi kimi möhtəşəm Zəfəri ilə əlamətdar olan 2020-ci ildə ölkəmizdə sosial sahədə də mühüm addımlar atılıb. Sosial müdafiə və aktiv məşğulluq proqramları uğurla davam etdirilib və daha da genişləndirilib.





# Vətən deyəndə...





**Böyük zəfər**

**Qayıdırıq... Bu sözdə nə qədər həsrət yükündən azad olmaq var, nə qədər nisgil yükündən qurtulmaq var, nə qədər sevinc qarışıq gözyaşı var. Bu yükün ölçüsü ölçüyə gəlməz, çəkisi çəkiyə gəlməz. Müzəffər Azərbaycan Ordusunun cəsurdan cəsur, qəhrəmandan qəhrəman zabit və əsgərləri əkshəmlə əməliyyatları zamanı erməni qəsbkarlarına havadan və yerdən sarsıdıcı zərbələr endirərək illərdən bəri işğalda qalmış torpaqlarımızı azad etməyə başladılar. Yaşayış məntəqələrimiz bir-birinin ardınca Ermənistan silahlı qüvvələrindən təmizləndi.**



## Elimizə, obamıza qayıdırıq...

İndi həyatımızın sevindirici, fərəhli günlərini və ürəkaçan anlarını yaşayırıq. İçində yaşadığımız bu şərəf dolu günlər ömrümüzün səhifələrinə böyük hərflərlə yazıldı. Çünki uzun illərdən bəri xəyal etdiklərimiz gerçəkləşdi. Yuxularımızda gördüklərimiz indi reallığa çevrildi. Azərbaycan əsgəri şəhər-şəhər, kənd-kənd, oba-oba doğma ocaqlarımızı qəsbdən, yağıların murdar caynağından azad etdi. Bu günlər hamıdan çox illərdən bəri əzablar içində qaçqınlıq ömrü yaşayanların üzü gülür, ürəyi açılır, qəlbi kövrəlir, gözləri nəmlənir. Şanlı Azərbaycan Ordusu erməni qəsbkarlarını ata-baba yurdlarımızdan qovub çıxartdı. Bir müddətdən sonra qaçqınlar doğma ocaqlarına qayıdacaq və iyirmi səkkiz il əvvəlki gözəl həyatlarını yaşamağa davam edəcəklər. Ömürlərinin yeni mərhələlərini yaşayacaqlar.

Bu ılıq payız günlərində 28 il erməni işğalında qalan doğma torpaqlarımızda Azərbaycan əsgərinin addım səsləri eşidilir. Cəbrayıl, Füzuli rayonlarından sonra şanlı ordumuz Zəngilan və Qubadlı istiqamətlərində də əkshəmlə əməliyyatlarını böyük zəfərlərlə davam etdirdi. Hərbçilərimiz düşməni məğlub edib geri qovduqca yaşayış məntəqələrimizdə üçrəngli bayrağımız dalğalanır.

Gələcək nəsillərə nümunə olacaq uğurlu döyüşlərdən sonra oktyabr ayının 20-də Zəngilan rayonunun mərkəzi və bir neçə kəndi qəsbkarlardan azad edildi. Oktyabr ayının 21-də isə qoynunda dünyaya göz açdığım axarlı-baxarlı Babaylı kəndindən də erməni qəsbkarlarının qovulduğu xəbər verildi. Uzun illərdən bəri ata-baba yurdumuzun işğalına, qəsbinə son qoyuldu.

Oktyabr ayının 25-də Qubadlı rayonunun mərkəzi və bir neçə kəndi də erməni işğalından azad olundu. Noyabr ayının 8-də musiqimizin beşiyi, Qarabağın tacı Şuşa erməni qəsbindən qurtuldu. Noyabr ayının 10-da isə gözlənilən böyük tarixi hadisə baş verdi. Müzəffər Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən erməni qəsbkarları ağır itkilər verərək torpaqlarımızı sülh yolu ilə qaytarmağa məcbur oldular. İşğalçılar noyabr ayının 20-də Ağdamdan, 25-də Kəlbəcərdən çıxarıldılar, dekabr ayının 1-nə qədər isə Laçından qoşunlarını təmizləmək barədə öhdəlik götürdülər. Beləcə, erməni qəsbində olan torpaqlarımız 28 ildən sonra şanlı Azərbaycan Ordusunun zabit və əsgərlərinin qəhrəmanlığı sayəsində azad olundu. Azərbaycan Ordusu 44 gün davam edən döyüşlərdə tarix yazdı. Noyabrın 10-u tariximizə Qələbə günü kimi düşdü. Hər il bu əlamətdar günü böyük təntənə ilə qeyd edəcəyik.

Televiziya ekranlarından, Ali Baş Komandan İlham Əliyevin dilindən başqa yaşayış məntəqələri kimi kəndimizin də adını eşidəndə necə sevindiyimi, necə fərəhləndiyimi, hansı kövrək hisslər keçirdiyimi, necə qürurlandığımı, nə cür iftixar dolu anlar yaşadığımı təsvir etməkdə bəlkə də söz də acizdir. Tarixin müxtəlif anlarında belə hadislər olur. Telefonuma bir-birinin ardınca təbrik zəngləri axışmağa başladı. Doğmalarım, dost-tanışlarım, qohumlarım sevinc içindəydi. Ata-baba yurdumuzun erməni işğalçılarından azad edilməsi xəbərinə sevinməyən yox idi. Hamı Ali Baş Komandanın, Azərbaycan əsgərinin hünərinin, zəfərinin şərəfinə alqış deyirdi. Bəli, Azərbaycan əsgəri bütün cəbhəboyu erməni işğalçılarının canlı qüvvəsini, zirehli texnikalarını, artilleriya qurğularını məhv edə-edə tarix yazdı.

İndi doğma ocaqlarımıza gedən yollarımız bütün genişliyi ilə üzümüzə açılıb. Artıq geri dönmək üçün hazırlıq işləri görürük. Hamımız sevinc içindəyik, çünki Azərbaycan əsgərinə minnətdarlıq hissi ilə elimizə, obamıza qayıdırıq.

Bəli, artıq yavaş-yavaş yır-yığış edib doğma torpaqlarımıza dönmək ovqatındayıq. Həsrətə, intizara son qoyulur, ata-baba yurdumuzun isti qoynuna qayıdırıq. Şükürlər ki, bu günü görmək, bu anın sevincini yaşamaq, bu sevinci ürəyimizdə daşımaq bizə nəsib oldu. Yurd yerlərimizin nisgilini çəkə-çəkə, qürbətindən yanıb qovrula-qovrula gəlib bu xoş günə çatdıq. Bütün həsrətlilər vüsala yetişmir. Nə yaxşı ki, bizim torpaq həsrətimiz vüsala qovuşdu. Azərbaycan əsgəri sürətli əks-həmlələri ilə qısa müddət ərzində qaçqınların torpaq nisgilinə son qoydu. Üzlərə, gözlərə qucaq-qucaq sevinc ələdi, könüllərdəki sıxıntını, qubarı şanlı zəfərləri ilə təmizlədi.

İşğaldan azad olunduğuna görə indi doğma ocaqlarımızın da üzü gülür, könlü açılır. İntizarla əsl sahiblərinin gəlişini, geriyə dönüşünü gözləyir. İndi kəklikli, qırqovullu dərələrimizin, bu dərələrdəki xınalı qayalarımızın, ot basmış cığırlarımızın gözləri yollarda qalıb, qayıdışımızın həsrətini çəkir. Ey doğma ocaqlar, ey doğma ellər, gözünüz yollarda çox qalmasın, ürəyimizdə həsrət yükünü sevinclə yuya-yuya yaxın günlərdə qoynunuza qayıdacağıq. Nisgil dolu günlərə son qoyacağıq. İndən sonra heç vaxt torpaqlarımızdan ayrılmayacağıq, həmişə bir yerdə yaşayacağıq.

O yerlərin havasını udmaq, suyunu içmək nə böyük xoşbəxtlikdir! Bu qayıdış, bu dönüş tarixin səhifələrinə böyük hərflərlə yazılacaq. Bu yazını heç kim poza bilməyəcək. Çünki bu böyük bir dönüşdür, möhtəşəm bir qayıdışdır. İşğal günlərini, həsrət dolu çağları heç kim unutmayacaq. Bu günləri xatırlaya-xatırlaya həmişə ermənilərə nifrətlər yağdıracağıq.

Qoy bütün dünya görsün və bilsin ki, şanlı Azərbaycan Ordusu, Azərbaycan əsgəri döyüş meydanlarında böyük igidlik, qəhrəmanlıq göstərərək erməni qəsbkarlarını məğlubiyyətə uğratdı, illərdən bəri işğalda olan torpaqlarımızı azad etdi. Bu gün xalqımız sevinc içindədir. Artıq işğala, qəsbə son qoyulub, şəhidlərimizin qisası alınıb. Buna görə də böyük sevinclə, yüksək ovqatla, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və müzəffər ordumuza böyük minnətdarlıq hissi ilə elimizə, obamıza qayıdırıq.

***Vahid MƏHƏRRƏMOV***

**Vətən sənə oğul deyir**

## Hünəriylə, qeyrətiylə ad almışlar...

### Üçrəngli bayrağımızın Şuşada dalğalanması, oradakı məsciddən verilən azan səsi bizi doğma yurdlara səsləyir

**Qarabağın qara qüvvələrdən, bədniyyətli daşnaklardan, erməni vandallarından azad edilməsi uğrunda gedən Vətən müharibəsində Azərbaycan oğullarının misilsiz qəhrəmanlıqları dillərdə dastana çevriləcək. Ali Baş Komandan İlham Əliyevin ətrafında bir monolit birlik yaradan xalq-ordu birliyi dünyaya göstərdi ki, illər keçsə də, Vətən torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizə davam edir. Lazım gələrsə, bu yolda yaşından və dinindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı düşmənlə döyüşərək, öz tarixi ata-baba yurdlarını işğaldan qurtaracaq.**



Müzəffər Azərbaycan Ordusunun düşmən üzərində qələbəsi, 28 ildən bəri işğalda inləyən torpaqları kənd-kənd azad etməsi xalqımızın vətənpərvərlik hisslərinin gücünü, birliyini dünyaya göstərdi. Qarabağın zümrüd tacı olan Şuşaya üçrəngli bayraq sancan Azərbaycan əsgəri raport verdi: "Cənab Ali Baş Komandan, Şuşa da bizimdir, Qarabağ Azərbaycandır!"

"Belə müjdələrlə gözləri yollara dikilən ata-anaların sevincinin hədd-hüdudu olmayıb. Demək olar ki, bu zəfərdə, möhtəşəm Qələbədə xalqımızın hər bir övladının, o cümlədən ailəmizin də payı var. Oğlumuz İbrahimov Fərhad İsmayıl oğlu 1993-cü ildə Bakı şəhərinin Yasamal rayonunda anadan olduğu üçün Qarabağın necə işğala məruz qalmasını yalnız yazılanlardan, söylənilənlərdən öyrənib. Ata-baba yurdu Cəbrayılın necə bir müqəddəs məkan olmasını bilir..."

Fərhad İbrahimovun anası Leyla xanımın səsi telefonda titrəyir... Deyir ki, Fərhad bu döyüşlərə könüllü qatılıb, həm də illərlə bunu gözləyib. Yasamal rayonundakı 175 nömrəli orta məktəbi 2011-ci ildə əla qiymətlərlə başa vuraraq İqtisad Universitetinə qəbul olanda da, 2015-ci ildə Beyləqanda birillik hərbi xidmət keçəndə də. Qayıdıb magistraturada iki il təhsilini davam etdirəndə də ermənilərin vandallığına cavab olaraq onları doğma torpaqlardan qovmaq üçün sanki öz üzərində bir hərbi təlim keçirdi.

Anası fikrini yenidən cəmləyir: "... Bilirsizmi, Fərhad, əslində,1993-cü ildə ata-baba yurdu Cəbrayılın Dağ Maşanlı kəndində dünyaya göz açmalı idi. Həmin ilin avqust ayında Cəbrayılla Füzuli rayonları da Ağdamdan sonra işğala məruz qaldı. Ailəmiz də digərləri kimi doğma ev-eşiyindən didərgin salındı. Bakıda müvəqqəti məskunlaşdıq. İki aydan sonra Fərhad Bakıda dünyaya göz açdı. Atası İsmayıl ona Qarabağ haqqında həmişə məlumatlar verir, ermənilərin bir əsrdə 2-3 dəfə xalqımızın başına açdığı müsibət və qətliamlardan, Xocalı, Daşaltı soyqırımlarından danışırdı. Sən demə, uşaq bunların hamısını ürəyinə yığırmış. Orta məktəb illərindən başlayaraq kompüterdə döyüş qaydalarını öyrədən oyunlara meylini salmışdı. Düzü, bir neçə dəfə hətta ona belə şeyləri qadağan da etdik. Sən demə, internet vasitəsilə bir qrup yaradıb hərbi təlim keçirmişlər. Sonralar məlum oldu ki, artilleriya döyüşlərinin taktiki gedişini öyrənirmişlər. Bu oyunların beynəlxalq yarışlarında Fərhadın da iştirakı və qələbə sertifikatı qazanması bizi sevindirdi..."

Döyüşkən oğul atası İsmayıl İbrahimov Fərhadın hələ uşaqlıq çağlarından vətənpərvərlik duyğuları ilə boy atdığını deyir: "İnanırdım ki, belə oğullarımızla biz Vətəni darda qoymayacağıq. Ali Baş Komandanımız İlham Əliyevin bir əmri ilə düşmən üzərinə "alıcı quş" kimi yeriyən oğullarımızda vətənpərvərlik hissi çox güclüdür. Amma baxıb ermənilərdə nəyi görürük? Qisasçılıq. Təslim olub ağ bayraq qaldıra-qaldıra, atəşkəs istəməkləri ilə yanaşı, torpaqlarımızdan çıxanda yandırmadıqları yer-yurd qalmır. Bu, vandallıqdır, vəhşilikdir. Düzü, onu da hiss etmirdik ki, o yerlərdə doğulmayan oğulların qəlbində Qarabağa belə sevgi bəslənib. Bax, həmin sevgidir onları düşmən üzərinə yeridən. Bu sevgini onlara Ali Baş Komandan İlham Əliyev və ön cəbhədə əsgərlərini doğma balaları kimi sevən, onları qoruyarkən şəhid olan komandirlər aşılayıb, ata-anaları ilə yanaşı. Fərhad da digər əsgər dostları kimi bu ilin yay aylarından ermənilərin azğınlaşmasından hiddətlənir, onlara layiq olduqları cavabı verməyə can atırdı. Sentyabrın 27-dən öncə könüllü orduya yazılması da bundan irəli gəlirdi. Sentyabrın 21-də gəlib bildirdi ki, artıq düşmənə mən də öz sözümü deyəcəyəm. Həmin gün ön cəbhəyə yola düşdü. Şuşaya kimi necə getdiklərini bilmədik. İmkan düşəndə Cəbrayıl və Füzuli ərazilərinin azad edilməsi xəbərini verirdi. Lakin Şuşaya getdiyini oradan telefonla zəng edib xəbər verəndə bildik. Bundan hansı ata, ana qürur duymaz ki?!"

Bəli, Fərhad İbrahimov kimi vətənpərvərliyi ilə nümunə olan oğullarımız xalqımıza Qələbə sevincini yaşatdı! Bu müzəffər yolda şəhidlik zirvəsinə ucalan oğulların da ata-anası "Vətən, başın sağ olsun!" dedilər. Bu, Vətənə layiq oğulların və onların valideynlərinin Azərbaycan - Qarabağ sevgisidir!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

**Tarix yazan oğullar**

## Zəfər zirvəsini fəth edənlər

**Çalışdıqları vəzifələrdə məsuliyyətli və işgüzar, nizam-intizamlı kadrlar kimi tanınır və həmişə uğurlu iş təcrübələri ilə seçilirlər. Bu gün isə onları həm də Vətən müharibəsində xalqımıza tarixi Qələbə sevincləri yaşadan qəhrəmanlar cərgəsində görür və hər biri ilə qürur duyuruq.**




Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 28 sentyabr 2020-ci il tarixli sərəncamına uyğun olaraq ehtiyatda olan zabit kimi səfərbərlik çərçivəsində Silahlı Qüvvələrimizin sıralarına qoşulanlar arasında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemindən də müxtəlif vəzifələrdə çalışan əməkdaşlar var.

Nazirliyin DOST İş Mərkəzinin direktoru Firudin Cəbrayılov ictimai işlər proqramının uğurlu icrasında, işsiz və işaxtaran şəxslərin məşğulluğunun təmin olunmasında səmərəli fəaliyyəti ilə seçilir. Vətən müharibəsi başlayandan sonra Firudin Cəbrayılov da ölkəmizin ərazilərinin təcavüzkar Ermənistan işğalından azad edilməsi istiqamətində aparılan hərbi əməliyyatlarda fəal iştirak edərək, özünü bacarıqlı zabit kimi doğrultdu.

"Vətən torpaqlarının düşmən işğalından azad edildiyini görmək heç zaman unudulmayacaq fərəhli, sevincli hisslər, iftixar duyğuları bəxş edir. Mən də qat-qat artıq sevinirəm. Həm də şərəf hissi keçirirəm ki, düşmənə sarsıdıcı zərbələr vuraraq onu qısa müddətdə məğlubiyyətə uğradan, kapitulyasiyaya məcbur edən, ölkəmizin ərazilərini cəmi 44 gün ərzində sürətlə azad edən, şanlı tarix yazan qüdrətli Ordumuzun sıralarında mən də oldum. Bu müharibə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan vəzifəni qısa müddətdə uğurla icra etməyə qadir güclü, müasir və yüksək döyüş hazırlığı olan bir ordunun olduğunu dünyaya nümayiş etdirdi", - deyə Firudin Cəbrayılov bildirir.

Nazirliyin tabeliyindəki Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin departament müdiri İlkin Yusifov cəbhədə həkim-zabit kimi döyüşçülərimizin xidmətində dayanması ilə qürur duyduğunu qeyd edir: "Azərbaycan əsgər və zabitləri bu müharibədə xalqımızın necə qəhrəman, döyüşkən, qorxmaz bir xalq olduğunu göstərdilər. Hərbçilərimiz böyük mərdlik, rəşadət nümunəsi oldu. Döyüşlər zamanı hətta yaralananda belə öz yarasının fərqinə varmadan döyüşə atılmağa, irəliləməyə doğru can atırdılar. Fəxr edirəm həbçilərimizlə və qürur duyuram ki, mən onların lazımi anda tibbi xidmətlə təmin olunması kimi vacib sahədə öz köməkliyimi göstərmişəm. Vətənimiz xoşbəxtdir ki, onun vətənpərvər, cəsur, mərd övladları var".

İlkin Yusifov onu da bildirdi ki, çalışdığı tibbi-sosial ekspertiza və reabilitasiya xidməti sahəsində tez-tez müharibə əlilləri ilə təmasda olur: "Onlara qayğı ilə yanaşılması bizim üçün əsas prinsipdir. Sağlamlıqlarında müsbət dönüşə nail olunması üçün bütün reabilitasiya tədbirləri görülür. Bundan sonra da hər bir müharibə əlili bizim qayğımızla, reabilitasiya xidmətlərimizlə əhatə olunacaq. Bunun üçün son illərdə müasir tələblərə uyğun reabilitasiya sistemimiz də qurulub".

Nazirliyin Protokol sektorunun məsləhətçisi Fərhad Allahverdizadə və nazirlik aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin məsləhətçisi Kamil Balakişiyev dövlət qulluğunun etik davranış qaydalarına uyğun fəaliyyət göstərən işgüzar və bacarıqlı kadrlar kimi tanınırlar. Bu müharibədə keçdikləri döyüş yolu ilə onlar içində sonsuz yurd sevgisi olan, qorxmaz, mərd, vətənpərvər əsgərlər kimi özlərini göstərdilər. Və sübut etdilər ki, hansı sahədə çalışmalarından asılı olmayaraq, Vətənin sadiq əsgərləridirlər və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərə də atılmağa hazırdırlar.

Qeyd edək ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sistemində müxtəlif vəzifələrdə çalışan 81 əməkdaş 44 günlük Vətən müharibəsində iştirak edərək tariximizə qızıl hərflərlə yazılan möhtəşəm Qələbəmizin əldə olunmasında öz xidmətlərini göstəriblər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

**Qarabağ Azərbaycandır!**

## Döyüşdə qələbəyə inam silah-sursatdan irəlidir

### Qazi Şaban Qəribli savaş zamanı bu hissi yaşadığını deyir

**Deyirlər, insanların dünyada bölə bilmədikləri üç şeydən biri də torpaqdır. Əsrlərboyu onun yolunda qanlar axmış, milyonlarla can torpağa qarışmışdır. Vətənləşən torpaq nəsildən-nəslə keçərək and yerinə, iman ocağına çevrilmişdir.**

30 ilə yaxın işğal altında qalan, talan olunan Qarabağın azadlığı uğrunda mübarizəyə qoşulmaq üçün minlərlə insan hazır olduğunu bildirdi. Onlardan biri də Şaban Qəribşah oğlu Qəribli idi.

Siyəzən rayon Sədan kənd sakini Şaban 25 noyabr 1995-ci ildə anadan olub. Orta təhsilini Elman Rəhimov adına Sədan kənd tam orta məktəbində alıb.

- Orta məktəbdə oxuyanda idmanla məşğul olurduq, - qazi Şaban bildirir. - Dərsdən sonra bir yerə yığışar, müxtəlif idman hərəkətləri edərdik. Soyuğa, qara və yağışa dözümlü olur kənd uşaqları.

- Qazimizin atası da veterandır, - deyə Sədan kənd kitabxanasının müdiri İsmayıl Muradzadə söhbətimizə qoşulur. - Qəribşah dayı Birinci Qarabağ savaşının iştirakçısı olub. Onun igidlikləri barədə kəndimizdə çox söz-söhbət dolanır. Allah rəhmət eləsin, 2012-ci ildə vəfat edib. Dəfnində Ağdam, Zəngilan və digər rayonlardan çoxlu adamlar gəlmişdi. Əksər insanlar söyləyirdilər ki, Qəribşah olmasaydı, biz indi ailəmizin yanında deyildik. Elə Vətən müharibəsi başlayanda atası kimi Şaban da cəbhəyə yollandı.

- Həyatda insanı yaşadan məqamlar çoxdur, - deyə Şaban söhbətə davam edir. - Əsgərlərimiz düşmən üstünə elə hücuma keçirdilər ki, onların içlərindəki qorxmazlığını görməmək mümkün deyildi. Ali Baş Komandanımızın tapşırıqlarını yerinə yetirməyə hamı tələsirdi. Döyüşdə insana nə silah, nə texnika kömək edir. Adama döyüşdə inam kifayətdir. Mən bunu yaşamışam.

Füzuli və Cəbrayıl rayonlarında gedən döyüşlərdə iştirak edən Şaban düşmənin neçə canlı qüvvəsini, texnikasını məhv edir. Əsgər yoldaşları ilə birlikdə ərazilərimizi azad edən Şaban döyüşlərin birində snayper gülləsinə tuş gəlir, dizindən yaralanır. Amma o, bunu yoldaşlarına bildirmədən döyüşməyə davam edir.

- İnanın ki, yaralandığımı döyüşün sonunda hiss etdim. İçimdəki qalibiyyət hissi idi məni belə möhkəm edən. Uşaqlarla danışmışdıq ki, Şuşaya bayrağı biz taxacağıq. Amma aldığım yara döyüşləri davam etdirməyə imkan vermədi. Eybi yox, təki qalib olaq.

Şaban artıq bir neçə dəfə əməliyyat edilib. Ağcabədi rayon Diaqnostika Mərkəzində onun sağ ayağına "İlizarov" aparatı qoyulub. Dostları onu tək buraxmırlar. Hər gün ona dəyməyə gələnlərlə söhbətləşən Şaban halının getdikcə yaxşılaşdığını deyir.

- Belə getsə, bir azdan özüm sərbəst yeriyə biləcəyəm. Həkimlər də sağ olsun, çox qayğıma qalırlar. Yəqin yeni ilə tam sağalacağam. Nə yaxşı ki, bizim nəsil bu müharibəni etdi, problemi gələcək nəsillərə qoymadı. Bu, bizim qələbəmizdir, Ali Baş Komandanımızın qələbəsidir.



Beləcə, Şabanın həmkəndlisi İsmayıl Muradzadə ilə birlikdə ondan ayrılırıq. Yolda İsmayıl mənə bildirdi ki, Şabanın istədiyi var: "Sağalsın, ona yaxşı bir toy edəcəyik".

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***







# Azərbaycan təhlükəsizlik orqanlarının 100 illik tarixindən bəhs edən kitab işıq üzü görüb

**Azərbaycan təhlükəsizlik orqanlarının 100 illik tarixindən bəhs edən "Azərbaycan təhlükəsizlik orqanları - 100 il. Təhlükəsizlik tariximizin səhifələrindən (1919-2019)" adlı kitab işıq üzü görüb.**

AZƏRTAC xəbər verir ki, nəfis tərtibatlı kitabda ölkəmizin xüsusi xidmət strukturlarının yaranması tarixi barədə məlumat verilir, mənalı ömrünün 25 ilini Azərbaycanın təhlükəsizlik orqanlarında xidmətə həsr etmiş Ümummilli Lider Heydər Əliyevin peşəkarlıq məktəbinin nümunələri təqdim olunur.

Nəşrdə Ulu Öndərin və onun siyasi irsinin layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təhlükəsizlik və xüsusi xidmət orqanlarının əməkdaşları ilə görüşlərindəki nitqləri və təbrikləri, həmçinin bu mühüm dövlət təsisatının müasir tələblərə uyğun təkmilləşdirilməsi, inkişafı, maddi-texniki bazasının möhkəmləndirilməsi məsələlərinə diqqət və qayğısını əks etdirən hüquqi aktlar yer alır.

Azərbaycan Respublikası Prezidentinin Mətbuat xidmətinin, AZƏRTAC-ın və Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsinin materiallarından və fotoarxivindən istifadə edildiyi kitabın "Ön söz əvəzi"ndə qeyd olunur ki, müasir Azərbaycan dövlətçiliyi qədim və şanlı tarixi köklərə, yüz illər boyu nəsildən-nəslə ötürülən ənənələrə bağlıdır. Azərbaycan Xalq Cümhuriyyətinin həmyaşıdı kimi Azərbaycan təhlükəsizlik orqanları da zəngin və keşməkeşli yol keçib. 2019-cu ildə Azərbaycan təhlükəsizlik orqanlarının yaradılmasının 100 ili tamam olub. Milli yaddaşda özünəməxsus yeri və rolu olan xüsusi xidmət orqanlarının təşəkkülü və formalaşması xalqımızın taleyi və inkişaf mərhələləri ilə sıx bağlıdır.

Vurğulanır ki, Azərbaycanda dövlət təhlükəsizliyinin təminatı sistemi Ulu Öndər Heydər Əliyevin vətənpərvərlik irsinə və peşəkarlıq məktəbinə əsaslanır. Ömrünün 25 ilini xüsusi xidmət orqanlarında fəaliyyətə həsr edən




Ümummilli Lider Heydər Əliyevin dövlətçilik ənənələrinin və amallarının yaşadılması Azərbaycan təhlükəsizlik orqanlarının fəaliyyətinin dəyişməz prinsipidir. Bu prinsipin əsasında dövlət müstəqilliyinin əbədiliyinin və dönməzliyinin qorunması, sabitliyin və təhlükəsizliyin etibarlı təmin olunması, işğal altındakı ərazilərimizin azad edilməsi, ölkəmizin hərtərəfli inkişafı və daha da qüdrətlənməsi dayanır.

Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin 2015-ci il 14 dekabr tarixli Fərmanına əsasən, xüsusi xidmət orqanlarının fəaliyyətinin səmərəliliyini artırmaq və dövlət idarəetmə strukturunu təkmilləşdirmək məqsədilə Dövlət Təhlükəsizlik Xidməti və Xarici Kəşfiyyat Xidməti yaradılıb.

Yeddi hissədən ibarət nəşrin birinci hissəsində ölkəmizdə xüsusi xidmət orqanlarının Cümhuriyyət dönəmindən müstəqilliyin bərpasınadək olan dövrü əhatə edən tarixindən ətraflı bəhs olunur. "Heydər Əliyev - Azərbaycanın təhlükəsizlik orqanlarının milli mənafelərə xidmət edən dövlət təsisatı kimi formalaşması prosesinin banisi" adlı ikinci hissədə Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, ömrünün 25 ilini ölkəmizdə xüsusi xidmət orqanlarında xidmətə, bu sahənin inkişafına və milliləşməsinə həsr etmiş Ulu Öndər Heydər Əliyevin fəaliyyəti əksini tapır. Həmçinin Ümummilli Liderin əfsanəvi qəhrəman Mehdi Hüseynzadənin tarixi xidmətlərinin üzə çıxarılmasında misilsiz rolu, dahi şəxsiyyətin 1960-1970-ci illərdə Azərbaycan əleyhinə yönəlmiş erməni-daşnak qüvvələrinin məkrli planlarına qarşı qətiyyətli mübarizəsi və digər məsələlər geniş işıqlandırılır.

"Heydər Əliyevin şanlı dövlətçilik irsi milli təhlükəsizliyin təminatı üçün tükənməz mənbədir" adlı hissədə Ulu Öndərin müstəqil Azərbaycanda milli təhlükəsizlik orqanlarının inkişafına bilavasitə diqqət və qayğısını əks etdirən materiallar yer alır.

Kitabın dördüncü hissəsi "Azərbaycanın milli təhlükəsizlik orqanları müasirləşmə və yeniləşmə dövründə" adlanır. Bu hissədə Prezident İlham Əliyevin milli təhlükəsizlik orqanlarının inkişafına ali diqqət və qayğısından, xüsusi xidmət orqanlarının əməkdaşları ilə görüşlərindən, bu sahənin ən müasir tələblər səviyyəsinə yüksəldilməsi istiqamətində görülən işlərdən ətraflı söz açılır.

"Azərbaycan təhlükəsizlik orqanlarının tarixində yeni mərhələ" adlı hissədə Prezident İlham Əliyevin diqqət və qayğısı nəticəsində ölkəmizin milli maraqlarını qorumağa qadir olan güclü və ən müasir tələblərə cavab verən, milli birlik və həmrəylik, vətənpərvərlik və dövlətə sədaqət prinsipini rəhbər tutan xüsusi xidmət orqanlarının səmərəli fəaliyyəti, beynəlxalq əməkdaşlığı ilə bağlı maraqlı məlumatlar oxuculara təqdim olunur.

Nəşrdə həmçinin Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının 25 illik səmərəli fəaliyyətindən və bu qurumun müharibə qurbanlarının taleyində oynadığı mühüm rolundan bəhs edilir. Eləcə də milli təhlükəsizlik orqanlarının əməkdaşları olan Azərbaycanın Milli Qəhrəmanları haqqında məlumat verilir, qurumun fəaliyyətinin ən müasir tələblər səviyyəsində təşkili, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər əksini tapır.

# Tarixi özündə əks etdirən ünvan

**Latınca "achivin" sözünün mənası "Hökumət idarəsi" anlamına gəlir. Sənəd və materialların saxlanıldığı yer əvvəllər belə adlanırdı.Tarixi hadisələri özündə əks etdirən, gələcək nəsillər üçün çox güclü məlumat mənbəyi olan arxiv sənədləri hər bir xalqın və dövlətin qiymətli mənəvi sərvəti sayılır. Məhz bu qiymətli sərvətin mühafizəsində, onların qorunub saxlanılmasında dövlət arxivlərinin böyük xidməti var.**



Ölkəmizdə arxiv quruculuğunun maraqlı tarixi var. "Vahid Dövlət Arxivi Fondunun təşkil edilməsi və Xalq Maarif Komissarlığı yanında Mərkəzi Dövlət Arxivinin yaranması haqqında" 13 dekabr 1920-ci il tarixli dekreti ilə Azərbaycan arxiv işinin əsası qoyulmuşdur. Bu dekretə əsasən, 1920-ci ilin aprel ayının 26-na qədər fəaliyyət göstərmiş bütün idarələrə sənədlərin Mərkəzi Dövlət Arxivinə təhvil verilməsi tapşırılır. 1921-ci ilin yanvarında Bakıda fəaliyyətə başlayan Azərbaycan SSR Mərkəzi Dövlət Arxivi Qafqazda ilk dövlət arxivi olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin 2 dekabr 2002-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi yaradılmışdır. Hazırda Milli Arxiv İdarəsinə tabe olan respublika əhəmiyyətli 7 dövlət arxivi və Dövlət Arxivinin 15 filialı, Naxçıvan MR Dövlət Arxivi və 57 rayon, şəhər arxivləri fəaliyyət göstərir. Şabran Rayon Dövlət Arxivi 1930-cu ildə təşkil edilmişdir. Bu arxiv Azərbaycan SSR Nazirlər Sovetinin 1967-ci il tarixli 457 saylı qərarı ilə təşkil edilmiş Respublika Dövlət Arxivinin Quba Filialının tərkibinə daxil edilmişdir. Şabran Rayon Dövlət Arxivi hər rübdə bir dəfə filial qarşısında gördüyü işlər barədə hesabat verir, həmçinin filial tərəfindən metodiki kömək və göstərişlər alır.

Rayon icra hakimiyyəti başçısının inzibati ərazi vahidi üzrə nümayəndəlikləri, bütün bələdiyyələr, sənədləri dövlət arxivinə təhvil verməli olan digər idarə və təşkilatlar cari ilin yanvar ayının ilk gününə qədər, ləğv olunmuş təşkilatlar isə ləğv olunma tarixinə qədər toplanmış daimi xarakterli və arayış xarakterli (əmr kitabları və əməkhaqqı cədvəlləri) sənədləri arxiv qaydaları üzrə tam sahmana salaraq Dövlət Arxivinə təhvil verməlidirlər. Bu sənədlərin itməsi həmin təşkilatda işləmiş neçə-neçə insanın gələcəkdə pensiyaya çıxarkən problemlərinin yaranmasına səbəb ola bilər.

Azərbaycan Prezidentinin 2 dekabr 2002-ci il tarixli "Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında" Fərmanına uyğun olaraq Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16 fevral 2004-cü il tarixli 12 saylı qərarında Şabran Rayon Dövlət Arxivinin yeni bina ilə təmin edilməsi nəzərdə tutulmuşdur.

Şabran Rayon Dövlət Arxivi üçün yeni otaqlar ayrılıb. Lakin həmin otaqlarda həddindən artıq rütubət olduğu üçün arxiv sənədlərinin mühafizəsi çətinlik yaradır. Otaqlardakı rütubət qısa müddət ərzində aradan qaldırılmasa, saxlanılan sənədlər müəyyən müddətdən sonra yararsız vəziyyətə düşə bilər. Sənədlərin əksəriyyəti açıq halda rəflərdə və döşəmədə saxlanılır.

Rayon dövlət arxivinin sənədləri rayon ərazisində fəaliyyət göstərən və Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin Mərkəzi Ekspert Yoxlama Komissiyası tərəfindən təsdiq olunmuş idarə və müəssisələrdən qəbul edilir.

Əgər hər hansı bir təşkilat ləğv olunarsa və yaxud fəaliyyəti dayandırılarsa, o zaman təşkilatın müraciəti əsasında onların şəxsi heyətinə aid əmrlər kitabları və əmək haqqı cədvəlləri saxlanılmaq üçün tərəfimizdən qəbul olunur. Həmin sənədlərin qəbulunda Azərbaycan Respublikası Dövlət Arxivinin Quba Filialının əməkdaşlarının fəaliyyətlərini qeyd etmək istərdim.

Şabran Rayon Dövlət Arxivinə qəbul olunan sənədlərin siyahısı Azərbaycan Respublikası Dövlət Arxivinin Quba Filialının Ekspert Yoxlama Komissiyası tərəfindən təsdiq olunur.

Rayon arxivində mühafizə olunub saxlanılan sənədlərin saxlama müddəti bitdikdən sonra qanunvericiliyə uyğun olaraq dövlət əhəmiyyətli sənədlər Azərbaycan Respublikası Dövlət Arxivinin Quba Filialına təhvil verilir.

Hazırda rayon arxivində mühafizə olunub saxlanılan ən uzunmüddətli sənədlər 1938-ci ildən başlayan ayrı-ayrı kəndlər üzrə tərtib edilmiş təsərrüfatbaşına kitablardır. Müraciətlər müxtəlif sahələri əhatə edir. Ən çox müraciət isə iş stajı və fərdi mənzil tikintisi üçün olan torpaq ayırmalarına aiddir.

Rayon dövlət arxivinin problemi öncə yerləşmə məkanı ilə bağlıdır. Hazırda rayon dövlət arxivində 86 fond üzrə mühafizə olunan 8429 saxlama vahidi mövcuddur. Həmin işlərin 3250-si xüsusi arxiv qutularına yerləşdirilmişdir. Qalanları açıq halda saxlanılır. Rayon dövlət arxivinin açıq halda saxlanılan sənədlərinin quraşdırılması üçün xeyli sayda arxiv qutusuna ehtiyacı var. Mühafizəxanada arxiv sənədlərinin mühafizəsi üçün qənaətbəxş deyildir. Rütubətin çox olması sənədlərin fiziki halına təsir edir. Fond otağının kiçik olmasına görə əlavə rəflərin quraşdırılması mümkün deyildir. Şabran Rayon Dövlət Arxivi üçün sənədlərin daha yaxşı mühafizəsini təmin edilməsi məqsədilə binanın olması vacibdir.

Əlbəttə, qeyd edilən problemlərin həlli arxiv idarələrinə vaxtaşırı üz tutan vətəndaşların müraciətinə operativ cavab verməyə də kömək edərdi. Axı arxiv idarələri vətəndaşların tez-tez müraciət etdiyi vacib dövlət strukturlarından biridir.

*Leyla QULİYEVA,*
*Şabran Rayon Dövlət Arxivinin müdiri*



# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı döyüş tapşırıqlarını və xidməti vəzifələrini yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıdakı hərbi qulluqçuları "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilsinlər:

Məmmədov Nizami Ağoğlan oğlu - general-mayor
Mirzəyev Yusif Həsən oğlu - general-mayor
Nəsibov Qədir Əşrəf oğlu - general-mayor
Abdullayev Mirzə Ağamalı oğlu - polkovnik
Ağamirov Baris Əmirxan oğlu - polkovnik
Ağayev Anar Talıb oğlu - ədliyyə polkovniki
Baxşıyev Şixəli Arif oğlu - ədliyyə polkovniki
Balayev Emil Malik oğlu - polkovnik
Bayramov Ehtibar Nuru oğlu - polkovnik
Əliyev Bəxtiyar Qüddəsər oğlu - polkovnik
Əsədov Səxavət Ağagül oğlu - polkovnik
Əzizov Elvin Tofiq oğlu - polkovnik
Gözəlov Bəxtiyar Telman oğlu - polkovnik
Hacıyev Elçin Akif oğlu - polkovnik
Hüseynov Yaşar Firuddin oğlu - polkovnik
Kərimov Mehman Abdulla oğlu - polkovnik
Qəhrəmanov Şahin Orduxan oğlu - polkovnik
Quliyev Əziz Qadir oğlu - polkovnik
Məlikov Kamran Sədiyar oğlu - polkovnik
Məmmədov Ələsgər Şavaat oğlu - polkovnik
Məmmədov Həbib Tağı oğlu - polkovnik
Məmmədov Vüqar Vaqif oğlu - polkovnik
Mikayılov Telman Neman oğlu - polkovnik
Mirzəyev İntiqam Fəraməz oğlu - polkovnik
Niftaliyev Teymur Ağasəlim oğlu - polkovnik
Rəcəbov Mehman Rəcəb oğlu - polkovnik
Seyfullayev Kutayis Qüdrət oğlu - polkovnik
Abbasov Ramil Müseyib oğlu - polkovnik-leytenant
Abdullayev Dadaş Muradəli oğlu - polkovnik-leytenant
Allahverdiyev Fariz Gülverdi oğlu - polkovnik-leytenant
Aloyev Abuzər Xamməd oğlu - polkovnik-leytenant
Aslanov Adil Qəzənfər oğlu - polkovnik-leytenant
Atayev Murad Nəriman oğlu - polkovnik-leytenant
Bababəyli Kamil Novruz oğlu - polkovnik-leytenant
Babayev Nəbi Tofiq oğlu - polkovnik-leytenant
Babayev Ramin Fəraməz oğlu - polkovnik-leytenant
Bağırov Azad Mahal oğlu - polkovnik-leytenant
Bağırov Vədut İsrafil oğlu - polkovnik-leytenant
Baxşəliyev Firdovsi Yusif oğlu - polkovnik-leytenant
Balaliyev Natiq Xanbaba oğlu - polkovnik-leytenant
Bayramov Aslan Qəhrəman oğlu - polkovnik-leytenant
Bəndəliyev Sərxan Saybalı oğlu - polkovnik-leytenant
Cəfərov Bayram Eldar oğlu - polkovnik-leytenant
Cəfərov Firdovsi İbrahim oğlu - polkovnik-leytenant
Cəfərov Zaur Hüseyn oğlu - polkovnik-leytenant (ölümündən sonra)
Cəfərov Ziyəddin Hafiz oğlu - polkovnik-leytenant
Cənnətov Emin Şakir oğlu - polkovnik-leytenant
Eynullayev Ələsgər Möhübbət oğlu - polkovnik-leytenant
Eyvazov Anar Məhəmmədəli oğlu - polkovnik-leytenant
Eyvazov Anar Rəhman oğlu - polkovnik-leytenant
Əbilov Emin Cəsail oğlu - polkovnik-leytenant
Əfəndiyev Sadiq Qabil oğlu - polkovnik-leytenant
Əhmədov Namiq Məhərrəm oğlu - polkovnik-leytenant
Əhmədov Şöhrət Lətif oğlu - polkovnik-leytenant
Əhmədov Vüqar Məmməd oğlu - polkovnik-leytenant
Ələkbərov Qasım Asəf oğlu - polkovnik-leytenant
Əliyev Emin Əkbər oğlu - polkovnik-leytenant
Əliyev İlham Rafiq oğlu - polkovnik-leytenant
Əliyev Mirpaşa Fərrux oğlu - polkovnik-leytenant
Əliyev Rövşən Yusif oğlu - tibb xidməti polkovnik-leytenantı
Əlizadə Elqar Məmmədsadıq oğlu - polkovnik-leytenant
Əmirov Zamiq Məhəmməd oğlu - polkovnik-leytenant
Əmrahov Ramiz Teymur oğlu - polkovnik-leytenant
Əsədbəyli Tural Bəhruz oğlu - polkovnik-leytenant
Əsədov Ceyhun Rafiq oğlu - polkovnik-leytenant
Əsgərov Pərviz Firudin oğlu - polkovnik-leytenant
Hacıyev Cəmil Cavanşir oğlu - polkovnik-leytenant
Hacıyev Fərhad Sovqat oğlu - polkovnik-leytenant
Hacıyev İslam İlham oğlu - polkovnik-leytenant
Həbibov Rüfət Vahab oğlu - polkovnik-leytenant
Həsənov Pərvaz Fəryaz oğlu - polkovnik-leytenant
Həsənov Zahid Nəbi oğlu - polkovnik-leytenant
Hüseynov Elmar Etibar oğlu - polkovnik-leytenant
Hüseynov İlham Tahir oğlu - polkovnik-leytenant
Xankişiyev İlqar İmran oğlu - polkovnik-leytenant
Xəlilov Vidadi Vaqif oğlu - polkovnik-leytenant (ölümündən sonra)
İbişov Nizami Zöhrab oğlu - polkovnik-leytenant
İbrahimov Emil Yasin oğlu - polkovnik-leytenant
İbrahimov Fuad Paşa oğlu - polkovnik-leytenant
İbrahimov Rasim Ağahüseyn oğlu - polkovnik-leytenant
İsgəndərov Babək İbrahim oğlu - polkovnik-leytenant
İzmaylov Azad Atababa oğlu - polkovnik-leytenant
Kazımov Rasim Kamal oğlu - polkovnik-leytenant
Kərimov Zaur Valeh oğlu - polkovnik-leytenant
Qaçayev Hüseyn Sədaqət oğlu - tibb xidməti polkovnik-leytenantı
Qafarov Müşfiq Fədail oğlu - polkovnik-leytenant
Qasımov Rafael Səlim oğlu - polkovnik-leytenant
Qasımov Yalçın Vaqif oğlu - polkovnik-leytenant
Qəmbərov Bahadur Akif oğlu - polkovnik-leytenant
Mahmudov Ramiq Rasim oğlu - polkovnik-leytenant
Mehdiyev İftixar Bəxtiyar oğlu - polkovnik-leytenant
Məcidov Emin Şamil oğlu - polkovnik-leytenant
Məhərrəmov Natiq Bunyamin oğlu - polkovnik-leytenant
Məmmədov Alay Zeynəddin oğlu - polkovnik-leytenant
Məmmədov Allahverdi Məmməd oğlu - polkovnik-leytenant
Məmmədov Elnur Rüstəm oğlu - polkovnik-leytenant
Məmmədov Həsən Əli oğlu - polkovnik-leytenant
Məmmədov Namiq Fərmayıl oğlu - polkovnik-leytenant
Məmmədov Raqib Əliyar oğlu - polkovnik-leytenant
Məmmədov Rüfət Yusif oğlu - polkovnik-leytenant
Məmmədov Vüsal Bahadur oğlu - polkovnik-leytenant
Məmmədov Yalçın Allahyar oğlu - polkovnik-leytenant
Məsimov Yusif Cavanşir oğlu - polkovnik-leytenant
Mirzəyev Anar İsa oğlu - polkovnik-leytenant
Mirzəyev Sergey Zakir oğlu - polkovnik-leytenant
Mollayev Oskar Vahid oğlu - polkovnik-leytenant
Musayev Sahibxan Alay oğlu - polkovnik-leytenant
Mustafayev Rafail Firudin oğlu - polkovnik-leytenant
Nastakalov Adil Ramazan oğlu - polkovnik-leytenant
Nəcəfov Ruslan Nəcəf oğlu - polkovnik-leytenant
Nəsirov Rəşad Ramiz oğlu - polkovnik-leytenant
Nəzərov Amil Mühasib oğlu - polkovnik-leytenant
Nəzərov Vaqif Şaməmməd oğlu - polkovnik-leytenant
Orucəliyev İlham Cabir oğlu - polkovnik-leytenant
Orucov Ramin Vaqif oğlu - polkovnik-leytenant
Osmanov Natiq Mehman oğlu - polkovnik-leytenant
Rəhimli Vüqar Asəf oğlu - polkovnik-leytenant
Rəhimov İlqar Həsənağa oğlu - polkovnik-leytenant
